

Dilqəm Əhməd

# YOLUN YARPAQLARI

**Dilqəm ƏHMƏD**

# Yolun yarpaqları

Bakı: 2011

dilqemehmed.wordpress.com

dilqemehmed@gmail.com

**I yarpaq**

## Aquen kilsə məclisi

**"Albaniya çarı Vaçaqanın hakimiyyəti dövründə əhali, yepiskoplar, keşişlər, əyanlar və rəiyyətlər arasında çoxlu mübahisələr baş verirdi. Buna görə çar qərara gəldi ki, Mareri ayının 13-də Aquendə böyük məclis çağırılsın". (Musa Kalankatuklu)**

Xristianlığın dünyəvi bir din kimi formalaşmağa başladığı ərəfələrdən etibarən, yəni IV yüzildən başlayaraq dini təlim, kilsə idarəçiliyi və intizam məsələləri ilə bağlı problemləri həll etmək üçün Kilsə Məclisləri adlanan (ümumdünya və yerli) ən yüksək rütbəli qurultaylar keçirilirdi. I Ümumdünya kilsə məclisi 325-ci ildə Roma imperatoru I Konstantin tərəfindən Nikeya şəhərində çağırılmış və bu məclisdə ariusçuluq məzhəbi (bu məzhəb İsa ilə Tanrının fərqli mahiyyətə malik olduğunu iddia edirdi) rədd edilir. 381-ci ildə keçirilən II Ümumdünya Kilsə Məclisində Ata-Oğul-Müqəddəs Ruh üçlüyünün vahidliyi ehkamı öz təsdiqini tapır. 431-ci ildə keçirilən III Ümumdünya Kilsə Məclisində xristoloji mübahisələr (İsanın mahiyyəti ilə bağlı-yəni onun tanrılığı və bəşəriliyi) müzakirə olunur və nestorianlar təriqəti rədd edilir. 451-ci ildə keçirilən IV Ümumdünya- Kalkedon kilsə məclisinin əsas qərarı monofizitlik təriqətinin rədd edilməsi ilə bağlı olur. Bu məclisin keçirilməsindən 47 il sonra, 498-ci il yanvar ayının 26-da xristianlığın ilkin yurdlarından olan Albaniyada çar III Vaçaqanın əmri ilə yerli Aquen kilsə məclisi çağırılır.

Albaniya hökmdarı III Vaçaqan (493-510) dövlətdə xristianlığın güclənməsində mühüm rol oynamışdır. Onun Mömin Vaçaqan adlandırılması da bununla əlaqədardır. Təsadüfi deyil ki, hakimiyyətə gəldikdən sonra o, əhali arasında mövcud olan qədim inancları (bütpərəstlik, atəşpərəstlik, sehrbazlıq, cadugərlik, İblisə pərəstiş edən barmaqkəsənlər təriqəti) təqib edərək, onların tərəfdarlarını məhv etdikdən sonra, əhali arasında xristianlığın yayılması məqsədilə

məktəblər açmağa başlayır, xristian müqəddəslərinin cəsədlərinin tapılması barəsində göstərişlər verir. Bu məktəblərdə xristianlığın müqəddəs üçlük ideyası təbliğ edilir, onları həqiqi bir xristian bələdçisi kimi hazırlayırlar. Çar Mömin Vaçaqanın xristianlığın təbliğində apardığı mücadiləni bütün detalları ilə qeyd edən Musa Kalankatuklu onu Roma imperatoru I Konstantin ilə müqayisə edir: "Çar Vaçaqanın vasitəsilə bütün ölkə xristianları Allah mərhəmətindən öz paylarını aldılar və Vaçaqanın şöhrəti mən hesab edirəm ki, heç də qərbin sahibi olan imperator I Konstantinin şöhrətindən az deyildi". Təsadüfi deyil ki, təkcə onun əmri ilə Albaniyada 365 kilsə inşa edilmişdi.

Xristianlığın genişlənməsindən sonra Mömin Vaçaqan mövcud problemləri həll etmək və dinə aid qayda və ehkamları təsdiqləmək məqsədilə Albaniyanın Böyük Arran vilayətində yerləşən Aquendə Kilsə Məclisi toplamağı qərara alır. Kilsə Məclisinin iştirakçıları Albaniyanın iri feodalları və yüksək rütbəli din xadimləri idi: Bərdənin arxiyepiskopu Şulhalişo, Qəbələnin yepiskopu Manas, Haşunun yepiskopu Yunan, Uti vilayətinin yepiskopları Ananiya və Sahaq, Kalankatuk kəndinin keşişi İosif, Bərdənin keşişi Toma, Göyçay keşişi Poqos, Tsri vilayətinin yepiskopu Şmavon, Darahoc keşişi Mate, Sazbaday keşişi Abikaz, Ayrmanuşay keşişi Urbat, keşişlər Uovel, Pərmudə və Yaqub və Arsax vilayətinin əyan və qəbilə başçıları, Kalankatuk qəbiləsinin başçısı Bakur.

Sənədi imzalayanlar isə bunlar idi: Çarın vəzirləri Mutak, sərkərdə Mirhərik, qəbilə başçıları Marut, Tirazd, Asparak, Şama, Bakur, Ratan, Arğeş, Girdimanın sahibi Cəsur Vardan, Xurs, Bermusan, Xosken, patriarx Pivroq və Albaniyanın bütün əsilzadələri. Məclisdə eyni zamanda Vaçaqanın arvadı və oğlu da iştirak edirdi.

Məclisdə 21 maddədən ibarət xristian-feodal qanunları qəbul edilir. Qanunlarda vergi, cəza-məhkəmə, kilsənin idarəedilməsi, ailə münasibətləri, dini qadağalar və məcburiyyətlər öz əksini tapır.

“Albaniya tarixi”nin 33-cü fəsli bu qanunlara həsr olunub. Qanunlar ona görə əhəmiyyətlidir ki, Azərbaycan tarixində xristian dininin prinsiplərini özündə əks etdirən yeganə qanunvericilik sənədidir. Nədənsə, alban türklərinin uzun müddət dini dünyagörüşü olmuş xristianlığın tədqiqi və bu gün Azərbaycan ərazisində olan qədim kilsələrin memarlıq üslubunun araşdırılması, ortodoks xristianlıqla Alban xristianlığının müqayisəli təhlilinin aparılması həddindən artıq zəifdir. Biz ondan ehtiyat edirik ki, özünü türkoloq kimi qələmə verən bir sıra tədqiqatçılarımız bu gün zərdüştiliyi farslara qurban verdikləri kimi, zamanla Alban mədəniyyətini və bu kültürün əsasını təşkil edən Alban xristianlığını ermənilərə qurban verəcəklər. Təsadüfi deyil ki, xarici ədəbiyyatlarda Aquen məclisinin qəbul etdiyi qərarlar “erməni qanunnamələri” çərçivəsinə salınır. Məhz buna görə də bu məclisin qəbul etdiyi qərarları həmin dövrdə xristian dünyasında mövcud olan dini qanunlarla müqayisəsi aparılmalıdır. Qeyd edək ki, Aquen (və ya Aluen) III Vaçaqanın iqamətgah qurduğu Bərdə şəhərinin yaxınlığında yerləşirdi. Bəzi tədqiqatçılar onun indiki Ağdam ərazisində xarabalıqları olan Govurqala olduğu qənaətindədir. Qanunları mahiyyətinə görə biz aşağıdakı şəkildə qruplaşdırırıq:

**Vergi ilə bağlı qanunlar-** Xalq tərəfindən keşişə gətirilən torpağın bəhrəsi varlı adamlar üçün 4 cərib (ölçü vahididir) buğda, 6 cərib arpa və 16 bardaq şirin çaxır, kasıblar üçün bu taxılın yarısı və şirin çaxır (imkanı çatdığı qədər) ilə müəyyənləşir. Heç bir bağı və əkin yeri olmayan insandan bəhrə alınmır, təsərrüfatı qoyun olanlardan 1 qoyun, 3 qoyunun yunu, bir parça pendir, təsərrüfatında atı olanlardan isə bir dayça, iribuynuzlu heyvanı olanlardan isə bir buzov tələb olunur. Əsilzadələr və kəndlilər rəhmətə gedən qohumlarının xatirəsi üçün kilsəyə ildə bir dəfə nəzir (imkana görə bu at və ya öküz ola bilər) verməlidir. Kənd keşişləri ildə iki dəfə yepiskopa hörmət göstərməli, adəti üzrə ona ildə bir dəfə hədiyyə aparmalıdır. Keşiş vəzifəsinə təyin olan şəxs bunun müqabilində yepiskopa 4 dirhəm, keşişlikdən aşağı

vəzifəyə təyin olunanlar isə iki dirhəm ödəməlidir. Adlı-sanlı əyanlar və çar nəslindən olan şəxslər ömrü boyu bir dəfə bir yəhərli-qayışlı at və ya nə bacarırsa onu verməlidir. Əgər həmin şəxs bunu etməyib ölərsə, bu vəzifə onun ailəsinin üzərinə düşür. Əsilzadələrin kilsəyə verdikləri onda bir vergisinin yarısı Baş kilsəyə, digər yarısı isə mənsub olduqları öz kilsələrinə verilməlidir.

**Cəza və məhkəmə qanunları-** Məclisin qəbul etdiyi 7-ci maddəyə görə əgər hansısa bir xaçpərəst biri ilə dava edib onun qanını tökərsə, həmin adam birbaşa yepiskopun yanına gətirilməli və cəzasını almalıdır. Əgər bir rahib monastrdan oğurluq edərsə, həmin adam mühakimə olunmalı və ona ayrılan torpaq payı kilsənin xeyrinə verilməlidir. Məclisin qəbul etdiyi 12-ci maddəyə əsasən ölülər üçün yas saxlamaq və ağlamaq qadağan edilir və bu qanuna qarşı çıxanlar çar divanında cəzalandırılır. Keşişlər və ondan aşağı vəzifədə olanlar hər hansı bir suçdan sonra günahlarını boyunlarına alarlarsa, onlar yepiskop tərəfindən cəzalandırılmalı və kilsədə tövbə etməlidirlər, əgər onlar günahlarını etiraf etməsələr və günahları aşkar olunsa, onlar qanunlar əsasında cəzalandırılıb, kənddən qovulmalıdırlar, əgər keşişlərin günahı təsdiq olunmazsa, o zaman onlar nahar ibadətini keçirtməlidirlər.

**Kilsənin idarə edilməsi ilə bağlı qanunlar-** Məclisin qəbul etdiyi qanunun 7-ci maddəsi kilsəyə mənsub olan keşişlərin və dindarların say nisbətinin müəyyənləşdirilməsinə həsr olunub. 9-cu maddəyə əsasən iki kiçik kənd bir-birilərinə yaxındırsa, onlar birləşdirilməli və onlara bir keşiş xidmət göstərməlidir. 17-ci maddəyə əsasən bir kənddə tikilmiş iki və ya üç kilsədən gələn xeyirlər və vergilər baş kilsəyə verilməlidir. 20-ci maddəyə görə əsilzadələr öz şəxsi mülklərindən yepiskopun xəbəri olmadan keşişi nə qova bilər, nə də ki onu təyin edə bilər. Yepiskoplar da eyni zamanda əsilzadənin razılığı olmadan onun mülkünə keşiş təyin edə və ya qova bilməz. Keşiş əsilzadədən və ya dindarlardan gələn hər hansı bir təhlükəyə baxmayaraq, yepiskopun icazəsi olmadan öz yerini tərk etməməlidir.

**İbadətlə bağlı qanunlar**- Qanunun 19-cu maddəsinə görə, hər bazar günləri həm ağa, həm də ki nökər bir yerdə ibadət etmək üçün Baş kilsəyə getməlidirlər. 21-ci maddəyə görə isə əsilzadə öz kilsəsində səcdəgah qurub ibadət mərasimi keçirmək istəyirsə, bunu yepiskopun icazəsi ilə etməlidir. Əgər buna əməl etməzsə, o, kilsədən uzaqlaşdırılır və yepiskopa cərimə gətirir. Qanunun 13-cü maddəsinə əsasən ölmüş heyvanın ətini və qırxgünlük pəhriz zamanı ət yeyən və bazar günü işləyib kilsəyə getməyən şəxslər dindarların gözü qabağında keşiş tərəfindən cəzalandırılır.

**Ailə ilə bağlı qanunlar**- Qanunun 10-cu maddəsinə görə, heç kəs öz qohumu olan əmi və bibi nəvəsi ilə evlənə bilməz, qardaşının arvadını ala bilməz. 11-ci maddəyə görə əgər kim öz arvadını səbəbsiz yerə boşayıb, ikinci arvadla kəbinsiz yaşayırsa, kim cadugərlərə müraciət edirsə, onlar çar divanına gətirilməli və işgəncələrdən sonra ölüm cəzasına məhkum edilməlidir.

Göründüyü kimi, Aquen kilsə Məclisinin qanunları Albaniyada fedoal münasibətlərin möhkəmlənməsinə, Alban kilsəsinin hüquqlarının artırılmasına və kilsə xadimlərinin nüfuzunu əyanlarla eyniləşdirməyə və onlar arasındakı münasibətləri tənzimləməyə, ölkədə dini birliyin yaradılmasına xidmət edirdi. Lakin bütün bu tədbirlərə baxmayaraq Çar Vaçaqanın ölümündən sonra Albaniyada xristianlıq yüksək səviyyəyə çata bilmədi, yəni Azərbaycan türklərinin vahid dininə çevrilmədi.

**II yarpaq**

## Alp Ər Tonqa

Alp Ər Tonqa və onun hökmdarı olduğu Turan dövləti haqqında olan mənbələrin azlığından və mövcud olan mənbələr də şifahi xalq ədəbiyyatına və dini rəvayətlərə əsaslandığından bu mövzu ətrafında müxtəlif mülahizələrin yaranmasına səbəb olub. Lakin buna baxmayaraq böyük türk xaqanı Alp Ər Tonqanın (orta əsr şərq mənbələrində Əfrasiyab) kimliyi zaman baxımından bir-birindən xeyli uzaq olan iki mühüm mənbə əsasında qismən açıqlana bilir. Bunlardan biri Azərbaycan ərazisində formalaşmış müqəddəs kitab hesab edilən Avesta, digəri isə Türküstanda yaşamış Mahmud Kaşğarlının "Divani-lüğət ət-Türk" əsəridir.

Birinci mənbəmiz Avesta olduğundan ilk olaraq orada Franqrasyan adlanan və Alp Ər Tonqa hesab edilən Turan hökmdarı barədə olan məlumata diqqət yetirək. Avestanın Yaştlar kitabının Ardvisur-Yaşt bölməsinin XI hissəsində Turanlı Franqrasyanın Vorukaş (Xəzər) dənizinin ortasında yerləşən Xvarnonu (xvarnonu əldə edən şəxs xoşbəxtlik qazanır və ilahi qüdrət sahibi olur) ələ keçirmək üçün Anahit Ardvisura qurban gətirməsi, lakin ilahə Anahitin bu qurbanı qəbul etməməsi və ona bu zəfəri bəxş etməməsi qeyd olunur:

"Ona qurban gətirdi əsli Turanlı olan,

Uçurum qırağında bədəməlli Franqrasyan.

Min cöngə, 10 min qoyun, bir də yüz at gətirdi.

O da Ardvisurdan belə dilək dilədi:

"Ey xeyirxah, qüdrətli Anahit Ardvisur,

Mənə elə bir uğur nəsib elə, yetir ki,

Vorukaş dənizinin ortasında nur saçan,

Bu günün, gələcəyin Ari yurdundan olan,

Zərdüştə mənsub olan, Artaya sədaqətli-

Cah-cəlallı Xvarno ölkəsi var qiymətli

Qoy ona sahib olum, onu ələ keçirim".

Xeyirxah və qüdrətli Anahit Ardvisur

Ona belə bir uğur, səlahiyyət vermədi.

Təbii ki, Avestanın uzun müddət fars sülaləsi olan Əhəməni və Sasanilərin dövlət ideologiyasına çevrildiyindən bütün hallarda "ilahə"lərin Turan hökmdarlarının istəyini qəbul etməməsi normal qarşılanmalıdır. Necə ki, bu hadisə sonralar "Şahnamə"də təkrar olunduğundan Firdovsi qızıl sikkələr əvəzinə gümüşlə mükafatlandırılır. Bizim üçün burada gərəkli olan Turanlı Franqrasyanın hər hansı bir uğur əldə etmək qüdrətində olmasıdır, yəni əfsanə hesab edilən Turan dövlətinin bir növ gerçəkliliyinə olan sübutdur.

Avesta mətnlərinə görə, Franqrasyan Traytaonun varisi, Turan hökmdarı Paşanqın (Peçeneqin) övladıdır. Burada mütləq haşiyə çıxaraq Avestada İran-Turan qarşıdurmasının əfsanəvi mahiyyətinə diqqət yetirməliyik: Paradata sülaləsinin beşinci hökmdarı Atvinin oğlu Traytaona Yimin bacıları Arnavak və Saxnavakla evlənir və onlardan 3 oğlu olur: Sayrim, Tur və Arya. Traytaona qocaldığı zaman səltənəti bu 3 övladı arasında bölür: Ayranam-Vayca və Ərəbistan Aryaya, Rum və qərb torpaqları Sayrimə, Çin və Turan isə Tura verilir. Bundan sonra Arya arilərin, Salm sarmatların, Tur isə turların əcdadı olur. Lakin bu bölgüyə Sayrim və Tur razılaşmırlar və 12 ildən sonra Aryanı öldürürlər. Bununla da İran-Turan ziddiyyətlərinin əsası qoyulur. Daha sonra Aryanın varislərindən Manuşçihr turlarla mübarizəyə başlayaraq Salm və Turu öldürür və bu hadisənin ardınca çoxillik mübarizə daha

da kəskin xarakter alır. Manuşçihrin dövründə isə Turanlılara başçılıq edən Franqrasyan (və ya Frasiyaq) qalib gəlir və 12 il hakimiyyətdə olur. Hakimiyyətdə olduğu müddətdə Franqrasyan müqəddəs xvarnonu ələ keçirmək üçün 3 dəfə Vorukaş dənizinə baş vursa da, onu əldə edə bilmir. "Zamyad-Yaşt"ın 8-ci bölməsində artıq hər dəfə lüt-üryan Vorukaşa dənizinə baş vuran, lakin ona-xvarnoya yaxınlaşdıqca ondan uzaqlaşmasına əsəbiləşən Turanlı Franqrasyan anlaşılmaz bir dildə (çox güman ki, əski türkcə) hətta söyüş də söyür:

Və çıxdı Franqrasyan,

Turların ən mübarizi, qoçağı.

Vorukaşa dənizindən,

Bağırtıyla söyərək:

"İte-ita-yatna-axmay...

Ötənlərin, köçənlərin,

Ari ölkələrinin hökmdarlarının,

Əldə etdikləri

Xvarnonu mən əldə edə bilmərəm

Zərdüşt-Spitamaya məxsus olanı

Mən əldə edə bilmərəm

Franqrasyan adı isə sonrakı mənbələrdə Frasiyak-Frasiyab və nəhayətində Əfrasiyab formasına düşür. Avesta mətnlərində turanlı Franqrasyanın Xosrov tərəfindən Çayaçesta (Urmiya) gölü ətrafında öldürüldüyü qeyd olunur. Tədqiqatçılar arasında ikinci bir mühüm polemika da məhz burada meydana çıxır. Franqrasyan və ya Alp Ər Tonqa kiminlə və hansı dövlətlə vuruşmada öldürülür?

Bu günə qədər olan ortaq fikrə görə Alp Ər Tonqa İran hökmdarı Keyxosrovla olan döyüşdə xəyanət sonucunda qətlə yetirilib və bu hadisə İran-Turan ziddiyyətinin ana xətlərindən hesab edilir. Və digər bir fikrə görə bu hadisə İsanın doğulmasından 625 il əvvəl baş verib və "Şahnamə"də Keyxosrov adlanan hökmdar Mada çarı Kiaksardır. Ziddiyyət açıq aşkar ortadadır. Bir tərəfdən Mada və Əhəməni imperiyaları dövrünün olaylarını bizlərə çatdıran və tarixin atası ünvanını daşıyan Herodot madalılarla farsların tamamilə başqa xalqlar olduğunu və Astiyaqın hakimiyyəti madalılara deyil, onların qulları olan farslara verdiyi üçün xəyanətkar Qarpağı ağılsızlıqla suçlamasını qeyd etdiyi halda, digər tərəfdən Alp Ər Tonqanın farslar tərəfindən öldürülməsini tədqiqatçılar aksioma hesab edirlər. Sadəcə olaraq Alp Ər Tonqanın digər bir türk xaqanı ilə savaş aparmasını qəbul etmək istəməyən tədqiqatçılar (hansı ki, hətta orta əsrlər dövründə biz bunu Sultan Səlimlə Şah İsmayıl, Teymurla I Bəyazid, Teymurla-Toxtamış, Cahan şahla Sultan Həsən və d. arasında görməkdəyik) Firdovsinin şovinizmə əsaslanan "Şahnamə"sinə aldandıqlarını görməkdəyik.

Qeyd edək dövrün ən müfəssəl izahını yazan Herodot qəti şəkildə madalılarla farsları ayrı-ayrı xalq hesab edir və bunu "Tarix"in Astiaq-Kir-Qarpaqla olan bölümlərdə qeyd edir. Eyni zamanda Herodot iskitlərlə (bir çox tədqiqatçı Alp Ər Tonqanın iskit-sak xaqanı olmasını bildirir) Mada hökmdarı Kiaksar arasında baş verən müharibənin səbəbkarının iskitlər olmasını qeyd edir: "Fraortanın ölümündən sonra hökmranlıq onun oğluna, Deyokun nəvəsi Kiaksara keçir...Kiaksar assurları yenib Nini mühasirəyə almağa başlayan zaman başda Protofieyin oğlu hökmdar Madiyes olmaqla iskitlərin böyük qoşunu onun hökmdarlığının sərhədlərinə soxulur...Onda Kiaksar və midiyalılar bir dəfə çoxlu iskiti qonaq çağırıb keflənənəcən içirtdilər, sonra onları qırdılar. Midiyalılar öz hökmdarlarının əvvəlki əzəmətini belə bərpa edir......"

Burada xüsusilə onu qeyd edək ki, bir sıra tədqiqatçılar Madanı ələ keçirən iskitlərin başçısı Madiyesin (Madi) əslində Alp Ər Tonqa olduğunu qeyd edirlər. Çünki məhz Madada iskitlərin hakimiyyətə gəlməsi onun hakimiyyəti dövründə baş verib. Madiyes haqqında görkəmli tədqiqatçı Altay Məməmdov "Oğuz səltənəti" adlı əsərində yazır: "İşquz çarlığı dövründə ən çox qələbələr qazanmış çar Madi olmuşdur. Məhz Midiya üzərindəki qələbədən sonra işquzların Asiya üzərindəki 28 illik hegemonluğunu o təmin etmişdir. Misir, İsrail, Şam üzərinə müvəffəqiyyətli hərbi səfərlər Madinin başçılığı altında olmuşdur".

Ümumiyyətlə, bütün bu ilkin ehtimallardan belə nəticəyə gəlmək mümkündür ki, iskitlərin Madada 28 illik hökmranlığı əslində Turan xaqanlığının ən möhtəşəm dövrü olub və Herodotun da qeyd etdiyi kimi, Madanı tutduqdan sonra qoşunları Misirə doğru irəliləyəcək qüdrətdə olub. Alp Ər Tonqanın və ya Frasiyakın iskit xaqanı Madiyes olması bir çox tədqiqatçı tərəfindən dəstəklənsə də, Frasiyakın həmçinin Midiyanın sonuncu çarı Astiyaq ola bilməsi haqqında da maraqlı fikirlər mövcuddur. Tədqiqatçı İsrafil Hüseyn "Alp Ər Tonqa-Əfrasiyab-Astiyaq bədii və tarixi mənbələrdə" adlı araşdırmasında rəvayətlərdə adı çəkilən Frasiyaqın Astiyaq olduğunu, Keyxosrovun isə Midiyada türk hakimiyyətinə son qoyub farsların hökmranlığa gətirən II Kir (Kuruş) olduğunu bildirir və mühüm arqumentlərlə fikrini isbatlayır. Xüsusilə Herodotun "Tarix"ində verilən Astiyaq əfsanəsi sırf Mada (Turan) ilə gələcək Əhəmənilər arasındakı münaqişədən bəhs edir və əslində əfsanələrdən fərqli olaraq İran-Turan ziddiyyətinni başlanğıcı Astiyaqın qız nəvəsi Kirin xəyanətkar Qarpaqla birlikdə farsları midiyalılara qarşı üsyana qaldırması hesab edilməlidir. Frasiyaq və Astiyaq adlarının bir-birinə yaxınlığı və Astiyaq əfsanəsi ilə Avestada verilən rəvayətlər arasındakı paralellər bu fikri daha da gücləndirir. Lakin Alp Ər Tonqanın kefləndirilərək öldürülməsi isə qəti şəkildə iskit xaqanı Madiyeslə əlaqədardır. Üstəlik, Herodot Astiyaqın

oğul övladının olmamasını qeyd edir, halbuki Alp Ər Tonqanın Barman və Barsaqan adlı iki oğlunun olması Türk dastanlarında göstərilir. Həmçinin Herodotda II Kirin Astiyaqı sağ saxlaması qeyd olunduğu halda, Alp Ər Tonqanın əsir düşdükdən sonra öldürülməsi digər mənbələrdə bildirilir. Bütün bu fikirləri ümumiləşdirərək ilkin olaraq belə nəticə çıxarmaq mümkündür ki, Alp Ər Tonqa timsalında iki hökmdar- Madanın sonuncu xaqanı Astiyaq və qüdrətli İskit xaqanı Madiyes dastanlaşdırılıb. Yəni dastanın müəyyən hissəsi Astiyaqı, digər hissəsi isə Madiyesi (assur mətnlərində Maduva) əhatə edir. Və əsas olan budur ki, Keyxosrov Mada xaqanı Kiaksar deyil, məhz Əhəməni şahı II Kirdir. Əfsanə hesab edilən Turan dövləti isə iskitlərin Midiyada 28 illik hakimiyyətdə olduğu müddətdə Mada-iskit birləşməsinin ümumi adı olub. Və belə ehtimal etmək olar ki, iskitlər m.ö VII əsrdə İdil çayı ətrafından gələrək Dəmirqapı Dərbənddən keçərək Ön Asiyaya gəlirlər və Madada hakimiyyəti ələ aldıqdan sonra İran-Xorasan yolu ilə Türküstan ərazilərinə yönəlirlər və burada bir sıra şəhərlər salırlar və nəhayətində farslarla mübarizə sonucunda məğlub olurlar. Məhz buna görədir ki, Turan xaqanlığının əraziləri kimi Kaşğardan Urmiya gölü ətrafına qədər olan bir çox ərazilər göstərilir.

İndi isə ikinci mühüm mənbə hesab edilən Kaşğarlı Mahmudun "Divan"ına nəzər yetirək. Alp Ər Tonqanın xəyanət nəticəsində öldürülməsi bu mühüm mənbədə 11 ağı ilə qeyd olunur. Ümumiyyətlə, türk dastanlarında Alp Ər Tonqanın şəhərləri kimi Balasaqun, Ordukənd (Kaşğar), Quzey Azərbaycanda Şabran və Bakı, güneydə Qəzvin qeyd olunur. Qəzvin şəhərinin Alp Ər Tonqanın qızı Qaz tərəfindən salınması haqqında məlumatlar vardır. Digər tərəfdən Orxon abidələrində Tonqra tigin matəminin keçirilməsi barədə bilgilər mövcuddur. Belə ki, 714-cü ildə Uyğurların yaşadığı Beşbalıq şəhərinin mühasirəyə alındığı zaman Tonqra tiginin yuğ-yas mərasiminin keçirildiyi günə təsadüf olunduğu qeyd olunur. Kaşğarlı Mahmudun məlumatına əsasən bütün Türk xaqanlarının soy kökü Alp Ər Tonqadır

və bu soydan olmayanlar "xan" və "xaqan" titullarını daşıya bilməzlər. Məhz buna görədir ki, Qaraxanlılar özlərini "Ali-Əfrasiyab" adlandırırdılar. Tarixçi Cüveyni uyğur xaqanlarının, Əbülqazi Bahadır xan "Şəcəreyi-Tərakimə" əsərində isə səlcuqların Əfrasiyab soyundan olduğunu bildirir. Tarixçi Fəxrəddin isə yazır: "Türklərin padşahı, son dərəcə müdrik və ağıllı adam kimi tanınan Əfrasiyabın kəlamları içərisində belə bir kəlam da var: "Türk balıqqulağı içindəki mirvarini xatırladır, nə qədər ki, o öz qınındadır heç bir qiyməti yoxdur. Lakin balıqqulağının içindən çıxan kimi o qiymətə minir, padşahların taclarını, şahzadə xanımların boyun-boğazını və qulaqlarını bəzəyir"

Alp Ər Tonqa şəxsiyyətinə Mahmud Kaşğarlı ilə yanaşı dövrün digər bir türk bilgini Yusif Balasağunlu da toxunub və o 1069-cu ildə qələmə aldığı "Qutadqu-Bilik" adlı əsərində yazır: "Türk bəyləri arasında Alp Ər Tonqa öz biliyi və şücaəti ilə seçilirdi. O, hər şeyi bilir və başa düşürdü. Bu dünya nə qədər seçilmiş və bacarıqlı qəhrəmanları udmuşdur. Taciklər Alp Ər Tonqanı Əfrasiyab adlandırırlar".

Bütün bunlardan belə nəticə çıxır ki, müxtəlif dövrlərdə tarixçi və dastançılar real türk hökmdarları ilə qüdrətli Alp Ər Tonqa və ya Əfrasiyabı qarışdırıblar. Məsələn, İran tarixçisi Əlaəddin Ata Malik Cüveyni 1259-cu ildə farsca yazdığı "Tarixi-cahan-guşə" əsərində Alp Ər Tonqanın qüdrətli Uyğur xaqanı Buku xanla eyniləşdirir və Buku xanın digər bir adının Əfrasiyab olduğunu qeyd edir. Moğol tarixçisi Mirzə Heydər Duğlat 1541-1547-ci illərdə yazdığı "Tarixi Rəşidi" əsərində Əfrasiyab haqqında yazır: "Kaşğar qədim və məşhur bir şəhərdir. Qədim zamanlarda Kaşğar sultanları moğolların Buqa xan dedikləri Türk Əfrasiyabın ailəsindəndir. Onun şəcərəsi belədir: Firudin oğlu, Tur oğlu, Dad oğlu, Naşin oğlu, Piş oğlu Əfrasiyab". Buddist uyğur şairi Ki Ki də Əfrasiyabın uyğur xaqanı Bögü xaqan olmasını qeyd edir və bu hadisə 1334-cü ildə hazırlanmış və hazırda Çinin Qansu əyalətinin Vu-vei İli muzeyində saxlanılan "Koçu Uyğur xaqanlığı Töhpe" abidəsində də öz əksini tapıb. Bu abidə ilə yanaşı

uyğur türkləri arasında Əfrasiyabla bağlı xalq arasında gəzən rəvayətlər də mövcuddur. Toy mərasiminin yaranması haqqında olan rəvayətdə uyğurlar arasında evlənmə adətinin və şəhərsalma mədəniyyətinin əsasının, dəfnetmə ilə bağlı rəvayətlərdə isə cəsədlərin sandığa qoyularaq gömülməsinin, digər bir rəvayətdə isə beşiyin əsasının Əfrasiyabın vaxtında qoyulması haqqında məlumatlar verilir. Uyğur rəvayətlərində bizim üçün maraqlı olan iki şəxs adının çəkilməsidir. Ölügömmə ilə bağlı rəvayətdə Əfrasiyabın atasının adı Uluğ Tor (Avestadakı Tur ilə səsləşir), beşiyin yaranması ilə bağlı rəvayətdə isə arvadının adının Böşük (Beşik) olması qeyd olunur. Başqa bir uyğur rəvayətində Əfrasiyabın çalğı alətlərinin yaradıcısı olması, digər bir rəvayətdə özünə 7 şəhəri (Ərdəbil, Suddikut, Korla, Turfan, Hoten, Almalı, Balasaqun) paytaxt seçməsi, yuxuda cənnəti görməsi və şəhərlərində cənnət meyvələri yetişdirmək barədə əmr verməsi barədə bilgilər mövcuddur.

Alp Ər Tonqa haqqında digər bir mühüm tapıntı uyğurlara məxsus olan Bəzəklik məbədində olan yazıdır. Belə ki, məbədin divarında ağzında və paltarında ləkələr olan və öldürüldüyü ehtimal olunan bir rəsm mövcuddur və rəsmin bir yerində "Tunqa tigin", digər bir yerində "Tunqa ol" yazıları qeyd olunub.

XV əsr müəllifi Əli Yazıçıoğlu "Tarix əl-səlcuq" əsərində Əfrasiyabın oğlunu bu cür vəsf edir: "doxsan dəridən kürk olsa, topuğunu örtməyən, doqquz dəridən şəbkülah olsa, tülüyün örtməyən, doxsan qoyun dovğalıq, on qoyun öyüncük yetməyən, doqquz yaşar cüngün silküb atan, kıynağında gökdə tutan, at başın yalmırıp bir kəz yutan Əfrasiyab oğlu Alp Ariz bəy".

İslamı dövlət dini edən Qaraxanlı Satuk Buğra xaqanın böyük oğlunun adının Tonqa İlig olması, Göktürk mətnlərində Tonqa tigin adlı bir sərkərdənin yuğ mərasiminin keçirilməsi "Tonqa" adının türk xalqları arasında geniş yayıldığını göstərir. 714-cü ildə pusquya düşərək

öldürülən Tonqa tiginin Göktürk xaqanı Qapağanın böyük oğlu olması və 11 ağının məhz bu tiginlə bağlı olması barədə də fikirlər mövcuddur.

**Sonuc olaraq Alp Ər Tonqa haqqında fikirlərimizi bu cür ümumiləşdiririk:**

- Alp Ər Tonqa bir sıra türk xaqan və sərkərdələrinin ümumiləşdirilmiş obrazıdır.
- Ziyafətdə zəhərlənərək öldürülən Alp Ər Tonqa iskit xaqanı Madidir, onu zəhərləyən isə digər bir türk xaqanı Kiaksardır.
- Avestada adı çəkilən Franqrasyan və "Şahnamə"dəki Əfrasiyab Mada xaqanı Astiyaqdır
- Uyğur mətnlərində geniş yayılan Alp Ər Tonqa uyğur xaqanı Bögü xaqandır
- Mahmud Kaşğarlının və Yusif Balasağunlunun qeyd etdiyi Alp Ər Tonqa Göktürk xaqanı Qapağan xaqanın böyük oğlu Tonqa tigindir
- Əfsanəvi Turan iskitlərin Madadakı 28 illik hakimiyyətini əhatə edir

**III yarpaq**

## Altun tigin

SSRİ dönəmində Almatıda "Leninçi gənc" adlı qazax türkcəsi ilə çıxan gündəlik qəzetin 24 yanvar 1973-cü il sayında yazar Irım Kenenbayoğlunun "İyirmi beş əsr öncə yazılmış məktub" adlı məqaləsi çap olunur. Yazıda türk tarixinin daha bir qaranlıq səhifəsinin aydınlaşmasından bəhs olunurdu.

Məqalə böyük əks-səda doğurduğundan bir sıra Türk dövlətlərində milliyyətçi gənclər arasında Altun tigin əfsanəsi yayılmağa başlayır. Çünki türk tarixinin öyrənilməmiş səhifələrindən birinə azacıq işıq

salınmışdı. Bütün bu əsrarəngiz olayların səbəbkarı isə yenidən "doğulan" Altun geyimli tigin idi.

Almatının 43 km şərqində yerləşən Esik ərazisində 800 hektarlıq bir sahədə 27 böyük və 55 kiçik kurqan mövcuddur. 1963-cü ildə İssıq-göl daşdığı üçün bir çox kurqan dağılaraq torpağa qarışır. 1970-ci ildə bu bölgədə yerləşən bir təpəlikdə qaraj tikintisi üçün buldozerlər gətirilir və qazma işləri gedərkən işçilər yonulmuş qayaya rast gəlirlər. Bununla bağlı Almatı muzey rəhbəri Bekin Nur Muhamməd və Kamal Akşiyev bir heyətlə əraziyə gələrək ilkin bilgilər əldə edirlər. Beləliklə, ilk tədqiqatlar Orta Asiya tarixinin yenidən yazılacağını şərtləndirir. İttifaqa bu barədə məlumatı ilk olaraq "Komsomolskaya pravda" qəzeti verir. Sonralar 1978-ci ildə professor K.Akşiyev Esik tapıntısı barədə Moskvada rus dilində "Qazaxıstan saqalarının sənəti" adlı kitab çap etdirir.

Esik kurqanı İssıq məzarlığının güneyində yerləşir. Burada 1970-ci ildə dörd kurqanda qazıntı işlərinə başlanılır. Lakin kurqanların üçü soyğunçular tərəfindən qarət edildiyindən məzarlardan heç nə tapılmır. Fəqət sonuncu kurqan arxeoloqlara bütün bunların təəssüfünü unutdurur, çünki altun tigin onların zəhmətini boşa çıxarmır. İlk tədqiqatçılardan Nur Muhamməd məzarı aşkar etməsini bu cür anladır: "İnşaat əsnasında 6 metr yüksəklikdə, 60 metr genişlikdə iki quyu qazılırdı...Taxtanın üzərində kilim, kilimin üstündə qumaş vardı, onun üzərinə qoymuşlar, başı qərbə, ayağı şərqə dönükdü. İşləri dayandırdılar və tarixçi olduğum üçün mənə xəbər verdilər. Məzara çatdığımda torpağı əllərimlə qazmağa başladım. Öncə taxta parçalarını çıxardım, lakin taxtalar günəşi görüncə əlimdən düşdülər və toza çevrildilər. Bir az daha qazdıqda gözlərim parıltıdan qamaşdı və uzun müddət məzara baxa bilmədim. Yanımdakılar da baxa bilmədi. Gözlərimi ovuşdurduqdan sonra altın geyimi gördüm...Taxta bir tabut içərisində dəfn olunmuşdu. Yanında üzərində yazılar olan çanaq vardı. Əlində də bir üzük vardı. Üzüyü götürüb barmağına taxdım. Cəsədi

altın geyim ilə birgə qaldırdıqda, altındakı ağaclar və cəsəd toza çevrildi, sanki günəşi gördükcə yanırdı. Böyük bir həyəcan içərisindəydik...Dürüst hərəkət etdik. Ruslar gəldilər və sümük parçalarını apardılar...”

Beləliklə, 6 metr hündürlükdə yerləşən kurqanın içərisində daxili ölçüləri 2.9 x 1.5 metr, xarici ölçüləri 3.3 x 1.9 metr, hündürlüyü isə 1.5 metr olan məzar aşkar edilir. Məzarın içi Tanrı dağlarında yerləşən küknar ağaclarının kötüklərindən hazırlanmışdı. Qalıqlardan anlaşıldığına görə cənazə mərasimi tamamlandıqdan sonra cəsəd yerləşdirilərək üstü qısa kötüklərlə qapadılmış və üzərinə çınqıllı torpaq yığılmışdı. Məzarın qərb divarının dibində ağacdan düzəldilmiş 10 ədəd kiçik masa yerləşirdi. Cəsəd otağın içərisindəki həsirin üzərinə yerləşdirilmişdi. Skeletin uzunluğu 165 sm-ə çatırdı.

Tiginin geyimi başlığından corabına qədər, o cümlədən kəməri və qılıncı da saf qızıldan idi. Cəsədin corabı ilə diz sümüyü arasında üçbucaq və dördbucaq şəkilli 4800 parça qızıl vardı. Bu dünyada firon Tutanhamonun qəbrindən tapılan qızılların sayından sonra ikincidir. Döyüşçünün köynəyi əsasən qızıl ox uclarından və qızıldan tökülmüş şir başından ibarətdir. Qızıldan düzəldilmiş boyunbağı üst-üstə dörd dəfə dolanıb. Barmağında iki qızıl üzük vardır ki, bunların birinin üzərində börklü bir kişi motivi işlənib. Bu üzüklər alimlərdə cəsədin xaqan və ya tigin olma ehtimalını yaradır. Tiginin üst geyimi qırmızıya boyanmış dəridən ibarətdir, üzərində yıtıcı heyvan rəsmləri və dördbucaqlı formalı qızıllar yer almaqdadır. Dəridən hazırlanan şalvarının eni 20-25 sm-dir. Uzunluğu bir metrə yaxın olan kəməri dördbucaq formalı 16 parça qızıldan ibarətdir, üzərində 3 böyük yatmış formada təsvir edilmiş keyik və kiçik keyik rəsmləri yerləşir. Ayaqqabısı keçədən düzəldilmiş və üzəri üçbucaq formalı qızıllardan ibarətdir.

Tiginin başına taxdığı 60-65 sm hündürlüyündəki börk onun milli mənsubiyyətini əks etdirir. Belə ki, bu börk bir sıra türk xalqlarına məxsus olan bir geyimdir və üzərindəki əşyalar da totem (onqon) xarakterlidir. Börkdəki əşyalar bunlardır: dağ qoyunu (arxar), iribuynuzlu dağ keçisi, qanadlı at, quş qanadı (4 ədəd), aslan (4 ədəd), aslan dağda, şir başı (6 ədəd), at (2 ədəd), dağ keçisi (5 ədəd), quş heykəlləri (5 ədəd), diadema (tacşəkilli başlıq), kiçik quş qanadı (2 ədəd), uzun quş qanadı (4 ədəd), yarpaq (5 ədəd), kiçik yarpaq (7 ədəd), ox (4 ədəd), dağ zirvəsi (4 ədəd), ağac (5ədəd) və s.

Cəsədin sağ tərəfində qırmızı taxtadan bir qın içində qızıl qəbzəli dəmir qılınc mövcuddur. Bədəni ilə sol əli arasında taxta və dəri qını olan bir xəncər yerləşir. Sol dirsəyinin yanında ucu qızıldan olan bir ox, daha yuxarıda bir qamçı, içərisində tunc bir güzgü ilə qırmızı boya olan ipək çanta vardır. Bunlarla yanaşı məzardan tabaqlar, vazalar, güzgü və daraq qabları, gümüş qaşıqlar tapılır. Eyni zamanda məzardan içərisində yemək olan müxtəlif qablar aşkar edilir. Fəqət gümüş qablardan biri 4800 ədəd qızıl parçasını kölgədə qoyacaq qədər önəmli idi. Çünki onun üzərində qədim türk yazısından ibarət işarələr vardı. Tapılan yazı Moskva və Leninqrad universitetlərinə yollanılır, fəqət orada oxuya bilmədiklərindən geri qaytarılır. Sirli yazını oxuyan isə bütün ittifaqda tanınan Qazaxıstan Elmlər Akademiyasının bilginlərindən professor Qayneddin Əlioğlu Musabəy olur. Alim açıqlamasında Esik yazısının Orxon yazılarından 1000 il əvvəl olmasını və hər işarənin bir hərfi deyil, hecanı bildirməsini söyləyir. Geyimin türk xalqlarına məxsusluğunu isə mərhum professor, mifoloq Mirəli Seyidov türk inanc və mifləri çərçivəsində araşdıraraq sübut edir.

**Haşiyə**: Burada maraqlı cəhətlərdən biri yazıların niyə adi bir gümüş qabın içərisinə yazılmasıdır. Çünki məzardakı əşyalara nəzər yetirdikdə yazının daha qiymətli və dəyərli bir əşyanın üzərinə yazılması düşünülə bilərdi. Bunun yeganə izahı digər türk xalqları kimi saqaların da Gök Tanrı inancında olmalarıdır. Belə ki, türk xalqlarında

qab və ya bardaq göyün simvolu hesab edilirdi və magik təsir bağışladığına inanılırdı. Məhz buna görədir ki, ümumi rəy kimi qəbul edilən 25 əsr yaşı olan məktubun üzərində türk saqaların uzaq keçmişindən xəbər verən 26 hərfdən ibarət iki sətrlik yazıda deyilir: "Tigin 23 yaşında öldü. Esik xalqının başı sağ olsun". Məhz buna görədir ki, Oljas Süleymenov bədii dillə gümüş qabın altun tigini həm bu dünyada, həm də axirətdə qoruduğunu bildirir.

Sovetlər dönəmindən bu yana tarixçilər tapıntının miladdan öncə VI-V yüzilliyə aid olduğunu müdafiə etməyə çalışırlar. Fəqət bunun əksinə olduğunu isbatlamağa çalışanlar da (məs; Kazım Mirşan) vardır. Çünki ilk tədqiqatçılardan bu yana tiginin yalnız geyimi üzərində tədqiqat aparılıb. Digər tərəfdən qazıntı zamanı məzardan tiginin skeleti əldə edilsə də, üzərində heç bir karbon təhlili edilmədiyindən həqiqi nəticəyə gəlindiyi bir qədər şübhəlidir. Tədqiqatçıların tapıntının yaşını miladdan 5 əsr əvvələ aid etmələrinin bir səbəbi də onun belindəki kiçik qılıncın yunan qılıncına bənzəməsidir. Çünki bu cür qılıncların istehsalın miladdan 500 il əvvələ aid edilir və bu yanlış məntiqlə Esik tapıntısını da bu dövrə məxsusluğu iddia edilir.

Alimlər tərəfindən qəbul olunmuş digər bir ortaq nəticə skeletin saqa türklərinə məxsusluğudur. Onların fikrincə, saqalar bu əraziyə Çinin təzyiqi nəticəsində Altay dağlarını keçərək gəliblər. Altun tiginin hun türklərinə aid olması barədə də fərziyyələr mövcuddur. Professor Firudin Ağasıoğlu Cəlilov "Saqa qamər boyları" kitabında tigini Altın geyimli saqa kimi qeyd edir. Hər halda yazıdan da anlaşıldığı kimi, altun tigin türk boylarından birinə məxsusdur.

1993-cü ildə Qazaxıstanın şimal şərqində Altay dağlarında ikinci altın geyimli cəsəd tapılır. Üçüncü altun tigin məzarı isə yenə də Qazaxıstanda Atıray ərazisində aşkara çıxarılır. Esiklə yanaşı Türküstanın Talgar, Böyük və Kiçik Almatı, Kaskelen, Kurtı, İli,

Karakemer, Çilik, Çarın, Kegen, Karkara, Karatal, Ağsu, Lepsı ərazilərində zəngin məzarlara rast gəlinir.

Hazırda Esikdən tapılmış altun tiginin geyimi və digər tapıntılar Almatı muzeyində qorunur. Paytaxtın Cumhuriyyət meydanında isə bağımsızlıq abidəsi olaraq Altun tiginin heykəli ucalmaqdadır.

**IV yarpaq:**

## Asiyanın ədalət simvolu Qam Ata

"Qumata adlı bir mağ vardı. Payşiyauvada baş qaldırdı. Arakaatri adlı dağdan qalxdılar, ...ayının on dördüncü günü. O belə yalan danışırdı: "Mən Barziyayam, Kambisin qardaşı. Sonra bütün xalq: Parsa və Madaylılar, başqa torpaqlar da Kambisdən üz döndərib ona sarı döndülər. Hamapada ayının doqquzunda onlar hakimiyyəti ələ keçirdi. Sonra Kambis özünü öldürdü". **(Bağıstan yazılarından)**

Bağıstan mixi yazılarında və Herodotun "Tarix"ində qeyd olunan Qam Ata olayı İran-Turan ziddiyyətinin ən maraqlı mərhələlərindəndir. Bu gün mixi yazılar oxunsa da, Herodotun "Tarixi" müxtəlif dillərə tərcümə olunsa da, bu ilk mənbələr də Qam Ata üsyanını yetərincə işıqlandıra bilmir. Qaya yazılarının fars mətnində qamın adının bilərəkdən səhv yazılması və onun qayaüstü təsvirinin Daranın ayaqları altında verilməsi hadisənin nə qədər əhəmiyyətli olmasını əks etdirir.

Məlum olduğu kimi, Azərbaycan ərazisində ən qədim etnoslardan əsası mağ və ya muğ adlanan tayfalardır ki, hazırda ölkə ərazisində bir sıra toponimlər onların adını daşıyır. Herodot mağları Madayın altı əsas tayfasından biri, digər yunan bilginləri isə fəlsəfənin yaradıcıları hesab edirlər. Mağ və ya qam adlanan şəxslər Madayda dini ayinləri yerinə yetirir, inancın qorunub saxlanılmasına səy göstərirlər. Bu baxımdan

onları "Ata" kimi çağırırdılar. Təbii ki, müxtəlif zamanlarda sadaladığımız işlərin icraçıları kimi Qam Atalar fəaliyyət göstəriblər. Bunlardan bizə məlum olan ən cəsuru isə şərti olaraq Smerdis və ya Bardi adlandırılan Qaumatadır.

Bağıstan qayasında Qam Atanın mağ adlandırılması həm onun milli mənsubiyyətinin, həm də ki dini statusunu əks etdirir. Abidənin fars mətnində mağın adı kimi Qaumata, elam mətnində Kamata, babil variantında Qumata kimi qeyd olunur. İlk dəfə bu adın türkcə dəqiq açılışı islamaqədərki tarixlə məşğul olan professor Firudin Ağasıoğlu Cəlilov tərəfindən Qam Ata formasında verilib. Bu izahın "Qorqud Ata kitabı"ndakı şəxs adları ilə səslənməsi (Qamğan, Qambörə) açılışın doğruluğunu sübut etmiş olur. Farsca mağın adının Qaumata şəklində yazılması isə iki cəhətdən izah edilir. Birinci yanaşmaya görə, fars dilinin qrammatik qaydalarına uyğun olaraq mətndə "U" səsi əlavə olaraq artırılıb, ikinci yanaşmaya görə isə fars şahı nifrətə layiq hesab etdiyindən mağın ismini bilərəkdən Qaumata şəklində yazdırıb ki, burada "qau" sözü "öküz" anlamına gəlir. Qeyd edək ki, Qam Ata olayı haqqında ən əsaslı mənbələr Bağıstan abidəsi və Herodotun "Tarix" əsəridir. Bağıstan qayasındakı yazıların Dara tərəfindən yazılmasını, Herodotun isə məlumatları farslardan götürdüyünü nəzərə alsaq, şübhəsiz, hadisənin tam gerçəkliyi ilə qeyd olunmadığı düşünülə bilər. Lakin ilk mənbələrin bu ikisi olması onlara istinad etməyə zərurət yaradır. Herodota görə, Madayın işğalından sonra farslar ilk dövlətlərini yaradırlar və yerli xalq üzərində öz ağalıqlarını göstərmək üçün var güclərini səfərbər edirlər. Buna dözməyən mağ tayfasından iki qardaş- Patizif (Kambis onu öz mülki işlərinə rəhbər qoymuşdu) və Smerdis şahın Misirdə olmasından istifadə edərək üsyan qaldırırlar və hakimiyyəti ələ alırlar. Smerdisin Kambisin öldürtdüyü qardaşına oxşadığını və adının da onunla eyni olduğunu nəzərə alan Patizif qardaşını şah elan edir və xalqa görsənmədən dövləti idarə edirlər. Xəbər Kambisə çatdığında artıq o Suriyada ölümcül haldaydı,

buna görə də o, ətrafındakı farslara və Əhəməni ailəsinə hakimiyyəti mağlardan geri almağı vəsiyyət edərək orada da ölür. Artıq mağ qardaşları istədikləri siyasəti yürütməyə başlayırlar. **Qam Ata ilk öncə dövlətin mərkəzini yenidən Ağbatana qaytarır, saray elitasının imtiyazını azaldır, əhalini üç il müddətinə hərbi çağırışdan (çünki xalq fars işğalçı yürüşlərindən xeyli zülm çəkmişdi) və vergidən azad edir.** Bütün bunlar miladdan 522 il əvvəl mart ayında baş verir. Lakin Asiyanın ədalət simvolu olan Qam Ata hakimiyyəti cəmi 7 ay mövcud olur, Əhəməni nəslindən Dara yeddi saray əyanı ilə birləşərək mağları devirirlər. Herodota görə, ilk olaraq mağın II Kirin oğlu Smerdis (Bağıstanda Bardi) olmasından şübhələnən şəxs əsl nəcabətli və dövlətli adamlardan Otan olur. Onun qızı Fədimə Kambisin arvadı idi və indi hakimiyyətdə şahın qardaşı hesab edildiyindən adətə görə yeni hökmdarın arvadına çevrilir. Qızının vasitəsilə Otan yeni şahın qulaqsız olduğunu öyrənir (nəyə görəsə bir dəfə Kambis mağ Smerdisin qulağını kəsdirib) və başa düşür ki, şah həqiqi Smerdis deyil və bu barədə atasına xəbər verir. Otan əldə etdiyi bilgiləri Aspafinlə Qobriyə açıqlayır və bir cəbhədə birləşirlər. Ardınca Otan İntəfrəni, Qobri Meqabizi, Aspafin Hidərni özlərinə cəlb edirlər. Bu zaman Parsada olan Dara mağların gizlin iş tutduqlarını xəbər aldıqdan sonra Susa gəlir və bu altı nəfərlə birləşərək mağları devirmək üçün plan cızırlar. Bağayadis ayının onunda qəsdçilər Daranın təklifi ilə fars düşüncəsinə uyğun olaraq xəlvətcə gecə saraya doğru hərəkət edərək keşikçiləri öldürür və hər iki qardaşın üzərlərinə cumaraq ikisini də qətlə yetirirlər. Sonra başlarını payaya keçirdərək farslara göstərirlər və onları mağları qırmağa təhrikləndirirlər. **Tarixin atası qeyd edir ki, həmin gün farslar o qədər mağ öldürürlər ki, əgər gecə düşməsə idi, Midiyada mağ qalmayacaqdı. Sonralar həmin gün "mağlar qırğını" ("magufonia", 5 noyabrda keçirilirdi) adı ilə fars bayramına çevrilir. Bu "bayram"da heç bir mağ küçəyə çıxmayaraq evlərində otururdular.**

Qeyd etdik ki, ən birinci mənbə Bağıstan yazılarıdır və burada Dara bir sıra hallarda hadisələri təhrif edərək müxtəlif yalanlar uydurur:

**1)** "Maq Qumatanın Kambuziyadan zorla aldığı şahlıq nəsillikcə bizə məxsusdur. Parsua və Maday torpaqlarında o, şah oldu". Halbuki, Herodotdan tutmuş müasir tarixçilərin hamısı ilk fars dövləti kimi II Kirin xəyanətkar Qarpaqla birləşərək Astiaqı yıxıb Madayda Əhəməni şahlığı qurmalarını qeyd edir. Üstəlik, Kambis ölüm yatağında "Bax, sizin hamınıza, xüsusən Ağamən nəslini şahlıq allahlarına and verib əmr edirəm: qoymayın hakimiyyət təzədən midiyalılara keçsin!" -deyə vəsiyyət etməsi ərazidəki hakimiyyətin əslində madaylılara məxsusluğunu dolayısı ilə bildirmiş olur.

**2)** "Bizim nəsildən, Parsua və Madaydan bir şəxs tapılmadı ki, Mağ Qumatadan şahlığı geri alsın. Xalq ondan qorxurdu". Görəsən, xalqı üç il müddətinə vergidən və dağıdıcı hərbi yürüşlərdən azad etdiyinə görəmi xalq Qam Atadan qorxurdu? Elə bu nöqteyi-nəzərdən Herodot haqlı olaraq qeyd edir: **"Mağ bu vaxt ərzində tabeliyində olan adamların hamısına böyük mərhəmətlər göstərməyə imkan tapdığına görə, ölümündən sonra, təkcə farslardan başqa, qalan bütün Asiya xalqları ona yas saxlamışlar".**

Təbii ki, Daranın özünün riyakar və yalançı olması onda Qam Ataya qarşı kəskin nifrət oyadır və məhz buna görədir ki, Bağıstanda Qam Atanın təsviri Daranın ayaqları altında həkk edilir. Onun həmfikirlərini şantaj etməsi və onları aldadıb gizlicə mehtəri ilə plan quraraq hökmdarlığa yiyələnməsi məkrli və xəyanətkar təbiətə məxsus olmasından xəbər verir. Təsadüfi deyil ki, onun hakimiyyəti dövründə nəinki Madayda, bütövlükdə Ön Asiyada misli görünməmiş qiyamlar baş verir. Mağ qardaşların devrilməsindən sonra Madayda bir il sonra Fravartişin, ardınca Çissataxmanın başçılığı ilə fars əsarətinə qarşı azadlıq hərəkatı baş verir, lakin hər iki üsyançı məğlub edilərək Ağbatanda işgəncə ilə qətlə yetirilirlər.

Qam Atanın hakimiyyətə gəlməsindən sonra etmiş olduğu ən maraqlı addımlardan biri mövcud dini ibadətgahları dağıtmasıdır. Bu addımın nə məqsədlə edilməsi, onun hansı ibadətgahları və nə üçün dağıtması hələ ki elmi izahını tapmayıb. Bağıstan yazısında deyilir: "Əlimizdən alınan şahlığı geri alıb mağ Qumatanın dağıtdığı ilahi məbədləri bərpa etdim. Mağ Qumatanın dəyişdiyi ibadət qaydalarını yenidən sahmana saldım. Xalqı: Parsua və Maday və başqalarını əvvəlki səviyyəsinə çatdırdım. Hörmüzdün sayəsində bunu zəhmətlə həyata keçirdim ki, evimiz əvvəlki yerində bərqərar olsun, Hörmüzdün dayağı ilə bu mağ Qumata evimizi uçura bilməsin". Əgər Bağıstandakı bu hadisə, yəni Qam Atanın məbədləri dağıtması həqiqətdirsə, deməli mağ qardaşlar farsların məhv etdikləri və ya dəyişdirdikləri inanclarını yenidən bərpa etməyə çalışmışlar. Bu baxımdan antik mənbələrdə fəlsəfənin yaradıcıları hesab edilən mağların dini və fəlsəfi dünyagörüşləri mühüm əhəmiyyət kəsb edir. Mənbələrə əsasən, mağlar bütün vaxtlarını Tanrıya ibadət etməklə keçirir, dualar oxuyurlar. Odu, torpağı, suyu, havanı müqəddəs sayan mağların fikrincə, Tanrı yalnız onları görür və səmada təkcə iti gözlərin görə biləcəyi mövcudatlar vardır. Onlar Tanrının zatı haqqında fikirləşməyi məqbul saymayaraq, yaradıcının kişi və ya qadın cinsindən olmasını rədd edirlər. Ağappaq paltar geyinən mağlar qızıl və bəzək əşyaları gəzdirmir, göy-göyərti, pendir, quru çörək yeyərək torpaq üstündə yatırlar. Onlar ölüyandırmanı çirkin əməl sayırlar və insanın öldükdən sonra əbədi həyata qovuşacaqlarına inanırlar. Sonralar mağların bu inancını daha da təkmilləşdirən Zərdüşt həmin dövrün dünyəvi dinlərindən birini yaradır. Yeri gəlmişkən, bəzi mənbələr Qam Atanın Zərdüştün silahdaşı olması ideyasını da ortalığa atmaqdadır. Çünki Zərdüştün elmdə daha çox qəbul edilmiş yaşam tarixini (569-492) nəzərə alsaq mağın Zərdüştlə görüşmə ehtimalı mümkünsüz deyil. Lakin bütün bunlara baxmayaraq Qam Atanın hansı məbədləri və nə üçün dağıtması cavabsız qalmaqdadır. Hər halda dağıdılan məbədlər zərdüşt dininə aid olmayıb, çünki bu ehtimal məntiqi baxımdan özünü

doğrultmur. Çünki, şübhəsiz, mağlar həmin dövrdə tək Tanrı Ahuraya inanırdılar. Deməli, yalnız bir ağlabatan ehtimal qalmış olur: Çox güman ki, Dara Asiyanın ədalət simvolu olan Qam Atanı gözdən salmaq üçün daha bir yalan uydurub.

**V yarpaq**

## Ay Tenqridə Qut bulanlar

Uyğur adı müxtəlif türk qəbilələrinin ittifaqını ifadə edir. Çin qaynaqlarında Hoei-ho, Vei-ho, Hui-ho, Hueu-hu, Vei-vu şəklində xatırlanır. 974-cü ilə aid bir Çin salnaməsində "uyğur" sözünün mənası "şahin kimi hücum edən" kimi izah olunur. Təbii ki, bu açılış düzgün olmayıb, sadəcə çinlilərin uyğurların xarakterlərinə uyğun olaraq verdikləri şərhdir. Uyğurlar ilk vaxtlar Sarı çayın şimalında yerləşən Qansu, Çingey və Şensi ərazilərindən başlayaraq Tarım çayının şimalınadək olan torpaqlarda yaşayırdılar. Miladdan əvvəl III yüzillikdə çinlilərin hücumuna məruz qaldıqlarından Selenqa çayı ətrafında yerləşirlər. Burada yaşayan uyğurlar Hun xaqanlığının, ardınca Tabqaç və Göktürk dövlətlərinin tərkibinə daxil olurlar.

Uyğurlar haqqında ilk yazılar m.ö 177-43-cü illərə aiddir. Çin əfsanələrində uyğurların hun xaqanının qızı ilə bir qurddan törədikləri qeyd olunur. Eyni zamanda ağacdan törəmələri haqqında əfsanə də mövcuddur. Ən məşhur mifləri "Törəyiş" və "Köç" əfsanələridir.

Tabqaç dövləti zamanı uyğurlar Kao-kö adlanırdılar. Orxon yazılarında ilk dəfə 717-ci il hadisələri ilə əlaqədar olaraq adları çəkilir. Uyğur ittifaqına müxtəlif tayfalar daxil idi. Göktürk xaqanlığının zəiflədiyi zamanlarda uyğurlar kiçik bir bəylik yaradırlar. Bu bəyliyin başçısı **erkin** adlanırdı. Bu dönəmdə bir sıra qəbilələr də uyğur adı altında birləşirlər. 630-cu ildə erkinlərdən **Pusa** Göktürk xaqanı **Kiəlinin** (Qara xaqan) oğlunun idarə etdiyi ordunu məğlub edir. I Göktürk xaqanlığı

dağıldıqdan sonra uyğurlar Dokuz oğuzları da özlərinə tabe edərək Tula çayı sahilində bəylik yaradırlar. Bu bəylikdə başçı **eltəbər** adlanırdı. Getdikcə güclənən bu bəylik Altay dağlarını aşaraq On okların ərazilərinə qədər genişlənir. Eltəbər **Tumitu**nun zamanında Tola ərazisi tutulur, cənubda Hoanq-hoya yürüşlər təşkil edilir. 646-cı ildə bu bəylik Çin tərəfindən tanındıqdan sonra Tumuti özünü xaqan elan edir. 648-ci ildə Tumuti çinlilər tərəfindən öldürüldükdən sonra yerinə oğlu Pojon keçir. Pojon xaqan On okların başçısı Ho-lunu məğlub etdikdən sonra 656-cı ildə Daşkəndə qədər irəliləyir. Fəqət Qutluq xaqanın Göktürkləri yenidən dirçəltməsindən sonra onların tərkibinə daxil olurlar. 688-ci ildən 741-ci llədək Uyğurlar Göktürklərin tabeçiliyində yaşayırlar.

Uzun müddət Göktürklərin hökmranlığında yaşayan Uyğurlar 745-ci ildə basmıl və qarluqlarla birləşərək Göktürk xaqanlığını süquta uğradırlar. Əvvəlcə basmılların başçısını xaqan elan edən uyğurlar az sonra istifadə etdikləri basmıl başçısını öldürərək özlərindən olan Qutluq Bilgə Kül xaqanı hakimiyyətə gətirirlər.

Beləliklə, əvvəllər bəylik şəklində formalaşan uyğur hakimiyyəti Göktürklərin süqutundan sonra xaqanlığa çevrilir. Xaqanlıq 9 uruğdan təşkil olunurdu. Xaqanın uruğu Yağlaqır adlanırdı. Sonralar dokuz oğuz boyu da uyğur ittifaqına qoşularaq On oğuz elini təşkil edirlər. Xaqanlığın idarəçiliyi 11 valiyə tapşırılırdı.

Dövlətin mərkəzi Orxon çayı kənarındakı Qarabalasağun şəhəri idi. Başçı xaqan, kağan və ya yabqu adlanırdı. Sonralar müqəddəslik anlamında "İduq Qut" ismi götürülür. Buna uyğun olaraq qış mərkəzi olan Hoca şəhəri də İduq Qut adlandırılır. Mənbələrdə uyğur xaqanlarının siyahısı aşağıdakı şəkildədir: Qutluq Bilgə Kül Kağan (745 - 747), Moyunçor Kağan (747 - 759), Bögü Kağan (759 - 779), Tun Bağa Tarxan (779 - 789), Ay Tenqride Qut Bolmış Külüg Bilgə Kağan (789 - 790), Qutluq Bilgə Kağan (790 - 795), Ay Tenqride Qut bolmış Alp

Qutluq Bilgə Kağan (795 - 805), Ay Tenqride Qut Bolmış Külüg Bilgə Kağan (805 - 808), Ay Tenqridə Qut Bolmış Alp Bilgə Kağan (808 - 821), Ay Tenqridə Ülüg Bolmış Küçlüg Bilgə Kağan (821-833), Ay Tenqridə Qut Bolmış Alp Külüg Bilgə Kağan (833-839), Ho-Sa Kağan (839-840).

**Haşiyə:** Əslində türklərin yaşadıqları ərazilərdə bir-birini əvəz edən xalqların ayrı-ayrı dövlət yaratmaları kimi qeyd olunması, bəlkə də düzgün deyildir. Yəni ola bilsin ki, müasir anlamda götürsək, siyasi qurumların bir-birini əvəz etmələri dövlətin dəyişilməsi anlamına gəlməz. Bu baxımdan vahid Türk xaqanlığının mövcudluğunu qəbul etməli, göktürklərin, ardınca uyğurların, qırğızların və sair türk xalqlarının dövləti idarə etmələri düşünülməlidir. Çünki ayrı-ayrı xaqanlıq hesab etdiyimiz uyğurlar, göktürklər, qırğızlar və bunlardan əvvəl və sonrakılarda vahid ərazi, dil, adət-ənənə olub və buna görə də bunları ayrı-ayrı götürmək, fikrimizcə, düzgün deyildir.

747-ci ildə Qutluq xaqanın ölməsindən sonra Moyunçor (747-759) xaqan hakimiyyətə gəlir. Moyunçor xaqan qırğızları, türkeşləri, qarluqları, basmılları, çikləri özünə tabe edir. 751-ci ildə Talas savaşında ərəblər türklərin köməyindən istifadə edərək çinliləri məğlub edirlər. Çinlilərin bu məğlubiyyəti nəticəsində Tarım hövzəsi uyğurların kontrolu altına düşür. Elə bu vaxtlar Çində komandan Anluşanın rəhbərliyi ilə Tanq sülaləsinə qarşı 200 min nəfərlik ordu üsyan qaldırır. Üsyançılar mərkəz Lo-yanq və Çanan şəhərlərini ələ keçirirlər. İmperator **Su-tsunq** Moyunçor xaqandan yardım istəyir və bu yardımdan sonra üsyançılar məğlub edilir. Xaqanın bu köməyinin əvəzi olaraq imperator 20 min top ipək və bir prenses hədiyyə edir.

759-cu ildə Moyunçorun ölümündən sonra xaqanlığa Bögü Kağan (759-779) gəlir. Bu dönəmdə tibetlilərin Çinə yürüş etməsi nəticəsində imperator Huai-en Bögü yabqudan yardım istəyir. 762-də uyğurlar Çinə yardım edərək tibetliləri imperatorluqdan çıxarırlar. Bögü xaqan Mani dini ilə burada tanış olur. Yeni dini qəbul etməyən xaqanın

məsləhətçilərindən Tun Bağa Tarxan sui-qəsd edərək Bögü xaqanı öldürtdürür. Bağa Tarxan Alp Qutluq Bilgə Kağan (779-789) adı ilə hökmdar olur. Qutluq Bilgə xaqan tibet və qarluq birləşmələrini ortadan qaldıraraq Turfana doğru yönəlir. Bunun nəticəsində burada yaşayan qırğızlar şimala doğru çəkilirlər.

"Ay Tenqridə Qut Bolmış Alp Külüg Bilgə Kağan"ın dönəmində Şərqi Türküstanın Kuça şəhəri ələ keçirilir və Maniheizm dininin uyğurlar arasınada yayılmasına səy göstərilir. 821-ci ildə hakimiyyətə gələn Kasar tigin (Ay Tenqridə Ülüg Bolmış Küçlüg Bilgə Kağan) çinlilərlə qohumluq əlaqələri yaradır. Çin mənbələrinə görə, Kasar tiginin öldürülməsindən sonra yerinə Hutele gəlir. Bu xaqanın zamanında iç vəziyyət gərginləşir, eyni zamanda qışın düşməsi ilə əlaqədar heyvanların qırılması uyğurların vəziyyətini ağırlaşdırır. Huteledən sonra Vu-Tu-Kunq və eyni ildə Vu-Çie xaqan olur. 840-cı ildə 100 min nəfərlik qırğız ordusu uyğurları məğlub edərək sonuncu uyğur xaqanı Vu-Çieni öldürürlər. Bununla da, Türk xaqanlığında uyğurların hökmranlığı sona çatır, hakimiyyət qırğızların əlinə keçir.

Türk tarixində uyğurlar ən mədəni xalqlardan hesab edilir. Xaqanlıqda bir sıra dinlərin mövcud olması və eyni zamanda zəngin mədəniyyətə malik olan Çin ilə qonşuluğun olması uyğur kültürünün hərtərəfliliyinə və rəngarəngliyinə səbəb olub. Uyğurlar kağızdan istifadə edirdilər və buna görə də xaqanlıqda çoxlu sayda çapxanalar fəaliyyət göstərirdi. Şərqi Türküstanda Qaraxoca, Qarabalasağun, Başbalıq, Qaraşar, Xotan, Yarkənd, Turfan, Kamal, Qulca, Urumçi, Ağsu, Suço, Kanço, Çərçən, Urumçi kimi şəhərlər salıblar. Şəhərlər divarlarla-surlarla əhatə olunurdu. Bu cür şəhərlər **"Balıq"** adlanırdı. Balıqlar yeddi qat xəndəklə, üç qat surla əhatə olunurdu. İç akropol **Ordu Qapağı** adlanırdı və xaqanın sarayı burada yerləşirdi. Şəhərlərdə teatrlar fəaliyyət göstərirdi. Əsas səhnə əsərləri "Fərhad və Şirin", "Tahir və Zöhrə", "Qərib və Sənəm" idi. Musiqidə qopuzdan istifadə edilir, evlilik, ovçuluq, fəsillərlə əlaqədar olaraq **"toy"** adlanan şənliklər

keçirilirdi. Heykəltaraşlıq, rəssamlıq, musiqi, ticarət, ipəkçilik, xalçaçılıq, çini qablar istehsalı inkişaf edirdi. Uyğur əlifbası eyni zamanda Çingiz və Teymur imperatorluqlarında da işlənirdi. Uyğurlar öz mədəniyyətlərini anladan minlərcə kitab çap ediblər ki, bunların qalıqları Şərqi Türküstanın xarabılıqlarından tapılıb. Eyni zamanda yunan, süryani, sanskrit dillərindən kitabların tərcüməsi uyğurların yüksək mədəniyyətə sahib olduqlarının simgəsidir. Xaqanlıqda pasport və viza anlayışları mövcud idi. Kirayə müqaviləsi bağlanırdı. Uyğurların dilləri Altay dil qrupunun Xaqaniyə ləhcəsidir. Yazıda əvvəlcə Orxon, sonra Çinin təsiri ilə Hue-Hu və Ərəb yazılarından istifadə edilirdi. Mahmud Kaşğarlı, Əhməd Yüknəki, Bilal Nazim kimi Uyğur bilginləri ərəb yazısından istifadə ediblər. Çingiz xaqanlığı dönəmində yüksək vəzifələrə, xüsusilə elçiliyə uyğurlar seçilirdi.

Məişətdə dəmir, gümüş, qızıl və kömürdən istifadə edilirdi. Qazıntılar zamanı dəmir əldə etmək üçün mədənlər, qızıl və gümüş tökmək üçün qazanlar, təndirlər, çölməklər tapılıb. Kuçar şəhəri yaxınlığında kömür mədəni əldə edilib. Mədənlərdə balta, kürək və müxtəlif silahlar düzəldilirdi. İpəkçilik Xotanda, xalçaçılıq isə Koçu və Kaşğarda daha çox inkişaf edirdi. Quçar, Xotan, Niye və Ağtərək şəhərlərində heykəltaraşlıqla məşğul olunurdu. Əvvəllər insan boyu ölçüsündə heykəllər düzəldilsə də, sonralar 20 metrə çatan heykəllər (xüsusilə Buddanın) düzəldilirdi. Uyğurlar dəmyə əkinçiliyi və sənətkarlıqla məşğul olurdular. Dənli bitkilərlə yanaşı zəfəran, tütün, boyaqotu əkirdilər. Bağçılıq və bostançılığın bir çox sahələri inkişafda idi. Suvarmada arx sistemindən və yeraltı quyulardan (kuduk adlanırdı) istifadə edilirdi. Otlaq ərazilərin az olması ilə əlaqədar olaraq maldarlıq aşağı səviyyədə idi...

Bütün türk xalqları kimi uyğurlar da Gök Tanrı inancında olsalar da, sonralar müxtəlif səbəblərdən buddizm, manilik və islam dini qəbul edilir. Hər üç dinin qəbulu uyğur mədəniyyətinin müxtəlif mərhələlərə

ayrılmasını şərtləndirir. Bu baxımdan uyğurlarda mədəniyyət müxtəlifliyini araşdırmağa çalışacağıq:

**Manilik və buddizm-** Türk xalqları tarixində xəzərlərin yəhudi dinini qəbul etmələri kimi, digər maraqlı bir fakt uyğur türklərinin maniliyi dövlət dini səviyyəsinə qaldırmalarıdır. Məlumdur ki, Mani dini III yüzillikdə həmədanlı Mani Pətik oğlu tərəfindən yaradılmış bir inancdır. Mani zərdüştlüyü islah etmək məqsədi ilə xristianlığın, buddizmin, brahmanizmin, taosizmin, əski Şumər-Babil folklorunun bir sıra dəyərlərini sintez edərək sinkretik bir din yaradır. Maniliyin sadaladığımız dinlərin ünsürlərini özündə əks etdirməsi bu dinin geniş bir coğrafiyaya yayılmasına səbəb olur. Belə ki, Mesopotomiya, İran ərazisində yaradılmış manilik tezliklə, Şimali Afrika, İspaniya, Fransa, Şimali İtaliya, Balkan yarımadasına, Çinə, Türküstan ərazilərinə, Şimali Hindistana qədər geniş ərazini əhatə etməyə başlayır. Məlumdur ki, manilik uzaq şərq dinləri kimi insanları dünyəvi həyatdan uzaqlaşdıraraq yalnız axirətə bağlayır. Bu baxımdan hətta ət yeməyi də qadağan edən maniliyin igid uyğurlar arasında yayılması heyrət doğurur. Mənbələrdə uyğurların maniliklə tanış olmaları Bögü xaqanın adı ilə əlaqələndirilir. Belə ki, 762-ci ildə Çinə yürüş təşkil edərkən xaqan burada Mani rahiblərinin təsiri altına düşərək bu dini qəbul etmək istəyir. Bu məqsədlə xaqanlığa qayıdarkən özü ilə bərabər 4 mani rahibini də gətirir. Tapılan kitabələrdə qeyd olunur ki, bu rahiblər "üç zaman"a (Mani dininin əsas anlayışlarındandır.) bələd idilər, yeddi kitabı (Maninin müəllifi olduğu kitablar) başa düşürdülər. Onların biliyi dəryalar qədər dərin olduğundan uyğurlara bu dinin prinsiplərini anlada bilirlər. Maniliyi Çinə 694-cü ildə missionerlərdən Fou-totun gətirir və maniliyi anladan "İki prinsip" adlı kitabı burada yaymağa çalışır. 732-ci ildə bütün dinlərə sərbəstlik veriləndən sonra manilik Çində sürətlə yayılmağa başlayır. 768-771-ci illərdə Çində uyğurlar kimi "İşıq Cənnəti" adı verilən Mani məbədlərinin tikilməsinə icazə verilir. Mərkəz Loyanq şəhəri uyğurların nəzarətində Mani dininin

mərkəzinə çevrilir. Türk xaqanlığında qırğızların hakimiyyətə gəlmələrindən sonra çinlilər bütün Mani məbədlərini dağıtmağa başlayırlar. Uyğurların Maniliyi mənimsəmələri bir tərəfdən Çin vasitəsilə olsa da, digər tərəfdən soğdlu tacirlərin fəaliyyətləri nəticəsində də baş verir. Ehtimal olunur ki, bəlkə də, xəzərlərin yəhudiliyi siyasi məqsədlə qəbul etmələri kimi, uyğur türkləri də soğdların köməyindən istifadə etmək üçün əsasən soğdlar arasında yayılan bu dini qəbul edirlər.

Yeni dinin mənimsənilməsindən sonra artıq uyğurların mədəniyyətində əsaslı dəyişikliklər baş verir. Ənənəvi türk əlifbasının əvəzinə Maninin yaratmış olduğu soğd əlifbasından, eyni zamanda Maninin ölümüylə başlanan yeni təqvimdən istifadə olunur. Koço, Yar, Solmı şəhərlərində maniçi monastrlar tikilir. Ümumiyyətlə, maniçi məbədlər quruluşuna görə Zərdüşt atəşgədələrinə bənzəyir. Məbədlər müxtəlif rəsm əsərləri və freskalarla bəzədilirdi. Maniliyin rəsm və musiqi sənətlərini yüksək qiymətləndirməsi Maninin nəqqaş olması ilə əlaqədardır. Rəsmdə əsasən mavi və qırmızı rənglərdən istifadə edilirdi. Freskalarda uyğur şahzadələrinin şəkilləri və heyvan təsvirləri (sədaqəti və xoşbəxtliyi təmsil edən fil ) verilirdi.

Turfandakı qazıntılarda Mani dininə aid müxtəlif mədəniyyət abidələri aşkar edilir. Koço, Yarkoto, Martuk və Tuyuk şəhərlərində buddist və maniçi məbədləin qalıqları üzə çıxarılır. Eyni zamanda qazıntılarda Mani dininə aid mətnlər toplusu da əldə edilir. Mətnlərdən biri Bögü xaqanın maniliyi qəbul etməsi ilə əlaqədar olan uyğur hərfləri ilə yazılmış dörd səhifəlik yazıdır. Eyni zamanda xalqa yeni dini öyrətmək üçün sual-cavab xarakterli mətnlər və monastrlarda dindarların vəzifə bölgüsünü müəyyənləşdirəcək bəlgələr əldə edilir. Sorçukda Kirin mağarasında uyğur şahzadələrinin rəsmlərinin həkk olunduğu freskalar mövcuddur. 757-ci ildən etibarən uyğur rəsm sənətində insan cizgilərinin dəqiq təsviri inkişaf tapır. Əvvəllər isə çəkilən rəsmlərin altında isim yazıldığında rəsmin kimə aid olması anlaşılırdı.

Turfandakı qazıntılarda ipək üzərində müxtəlif rəsmlərə də rast gəlinir. Uyğur-Buddist rəsm sənət nümunələri əsasən Bəzəklik məbədlərində həkk olunub. Hazırda bu mədəniyyət abidələri Berlin, Sankt-Peterburq, Tokio, Dehli muzeylərində sərgilənməkdədir.

Çin və Hindistanla yaxınlıq uyğurlar arasında Buddizm dininin yayılmasına rəvac verir. Uyğurlar Buddanı Burkan adlandırırdılar ki, uyğur ədəbiyyatının önəmli mərhələlərindən biri də "Burkançı ədəbiyyat" kimi tarixdə qeyd olunur. Uyğur başçılarından biri Buddizmdə Buddadan əvvəlki mövqeni ifadə edən Bodisathva anlayışına uyğun olaraq Pu-Sa adını götürüb. 832-ci ilə aid bir sənəddə deyilir: "Keçmişdə uyğurlar cahil olduqlarından şeytanı burkan olaraq tanıyırdılar, indi isə həqiqəti anladılar". Kumturada bir nirvana mağarasında Brahmi yazısı ilə yazılmış uyğur və Çin dilində kitabələr əldə edilib ki, bu mağaradakı freskalarda Buddanın ölüm anının təsviri mövcuddur.

Uyğurlarda okkultizmlə məşğul olan insanlar qam adlanırdı. Qamlar gələcəkdən xəbər vermək, xəstələri sağaltmaq qabiliyyətlərinə malik idilər. Ad qoyma ananın doğumdan sonra gördüyü ilk varlığa əsasən qoyulurdu. Buna görə də, xalq arasında Bayraq, Qızıl, Günəş və sair adlara rast gəlinirdi. Maniliyin qəbulundan sonra Hörmüz adı geniş yayılmağa başlayır.

Uyğur ədəbiyyatı həm türk, həm də soğd əlifbasının hakim olduğu dövrlərdə formalaşır. Yazılı ədəbiyyatda ilk nümunələr IV-V əsrlərə təsadüf edir. V yüzillikdə yazılmış **"Xuastanift"** poeması ən qədim nümunələrdən hesab olunur. Turfandakı qazıntılar zamanı əldə edilən şeirlərin 20-si buddizm, 7-si Mani, 6-sı isə İslam mühitində yazılıb. Şeirlərin VIII-XIII əsrlərdə yazıldığı ehtimal olunur. Şeirlər daha çox dini nəğmə xarakterlidir. Hələlik bizə məlum olan ilk uyğur şairi Aprinçur tigindir. Digər uyğur şairləri bunlardır: Aprinçur (2 şeir, mani mühiti), Kül Tarxan, Sınku Seli Tudun (bu şair türk ellərindən və

törələrindən bəhs edən məşhur Çin səyyahı Huen-Tsanqın "Səyahətnamə"sini X əsrin əvvəllərində uyğur dilinə çeviribdir. Hazırda bu əsər Paris Milli Kitabxanasına saxlanmaqdadır.) , Ki Ki (iki şeir, buddist mühit), Asığ Tudun, Çisuya Tudun (1 şeir), Kalım Keysi (buddist mühit, bir şeir), Çuçu ("Divani-luğət ət-türkdə" adı çəkilir.), Sılığ tigin, Küncük İduq Qut, Kamala Ananta Şiri, Bıratya Şiri (iki şeir). Uyğur şeirləri üçlük, dördlük (a a b b; a a a a; a b a b) formasında, 7-15 heca ölçüsündədir. Uyğur ədəbiyyatında ibtidai dram əsəri kimi tərcümə xarakteri daşıyan **"Maytrısimit"** əsəri hesab olunur. Uyğur dilinə çevrilən və uyğurlar arasında geniş yayılmış dini ədəbiyyatlar isə bunlardır:

**"Altun Yaruk"-** "Qızıl İşıq" mənasını ifadə edir, Başbalıqlı şair Sınku Seli Tudun tərəfindən Çin dilindən tərcümə edilib. X yüzilin birinci yarısında yazıldığı ehtimal olunur. Malov tərəfindən tapılan bu əsər 1913-16-cı illərdə Radlov və Malov tərəfindən çap olunur. Buddizm dininin mahiyyətini ifadə edən bu abidədə "Şahzadə və ac pələng" ( Aclıqdan ölən pələngi xilas etmək üçün özünü fəda edən şahzadə haqqındadır.) , Dantipali Beğ ( Dantipalı beğ keyikləri xilas edən keyik bəyini öldürdüyü üçün qorxunc alovlar onu məhv edir.), Çaştani Beğ ( Xalqına bəla gətirən şeytanların Çaştani beğ tərəfindən öldürülməsindən bəhs edilir, toxar dilindən tərcümə edilib) kimi hekayələr vardır. S.Himra 1945-ci ildə "Çaştani beğ" hekayesini, 1946-cı ildə uyğurca üç hekayəni çap etdirir.

**"İrk-bitik"-** 930-cu ildə göktürk əlifbası ilə yazılan bu kitab 65 fəsildən ibarətdir. Abidədə müxtəlif fallardan, ovsunlardan bəhs edilir. V.Tomsen və Stein təəfindən aşkar edilən "İrq-bitik" 1912-ci ildə yayımlandı.

**"Səkkiz Yükmək"-** Çin dilindən tərcümə edilmiş bu kitabda buddizm haqqında praktik bilgilər verilməkdədir. Toru Haneda 1915-ci ildə Yaponiyada bu əsəri çap etdirir.Əsərin ən mükəmməl nəşri Banq,

Qabain və R.R.Arat tərəfindən çap olunan "Tukische Turfantexe" adlı toplunun 6-cı kitabında çap olunur. (1929-1931)

**"Kalyanamkara və Papamkara"-** Xeyirxahlığı və pisliyi düşünən iki şahzadə haqqında hekayədir. Buddist mühitdə yazılmış bu əsərdə xeyirxah şahzadənin canlıların bir-birilərini öldürmələrinin qarşısını almaq üçün apardığı mücadilədən bəhs edilir. Uyğurca "Edgi Ögli Tigin İle Ayıg Ögli Tigin" adlanan bu əsər Qansudakı Budda mağarasından tapılıb. Əsər X əsrdə Çin dilindən təcümə edilib. P.Pelliot tapdığı bu əsəri 1914-cü ildə nəşr edir.

**"Kuanşi İm Pusar"-** "Ün eşidən yaradıcı" anlamındadır. Kuanşi İm adlı buddist bir bilgənin insanların çətin anlarında Xızır kimi yetişməsi və onlara nirvananın yolunu göstərməsi haqqındadır.Çin dilindən tərcümə edilən əsərin tərcüməçisi bəlli deyil. Ş.Tekin 1960-cı ildə Ərzurumda əsəri çap edir.

**"İnsadi Sudur"-** Əsər rahiblərin qarşılıqlı olaraq bir-birilərinə günahlarını anlatması mərasimini ehtiva edir.

**"Yitiken Sudur"-** Sehrlə əlaqəli olan bu mətn 1328-ci ildə çin dilindən tərcümə edilib

**"Kşanti Kılguluk Nom Bitig"-** Günahdan təmizlənmə ilə əlaqədar əsərdir

Uyğur türkləri tərəfindən tərcümə olunan digər bir ədəbiyyat "Hüen-Tsanqın səyahətnaməsidir. Çinli buddist rahib olan Küentsonun 630-645-ci illərdə Türküstana və Hindistana səfərindən, eyni zamanda onun Çindəki həyatından bəhs edən bu əsər Şınku Şeli Tutunq tərəfindən X əsrin I yarısında uyğur dilinə tərcümə olunub. Qabain 1935-38-ci illərdə bu səyahətnamədən uygur tərcüməsindən bəzi hissələrini yayımlayır.

Türk araşdırmaçı Özkan İzgi Mustafa Kamal Atatürkün də uyğurların təcümə etdiyi dini əsərlərə maraq göstərdiyini qeyd edir. Belə ki, 1934-

cü il 26 avqustda Atatürkün İsmət İnönüyə göndərdiyi teleqrafın sonunda “Namo İsmət” (“İsmətə hörmət”) kəlməsi yazılıb. Məlum olduğu kimi buddist dini əsərlər "Namo but, Namo dram, Namo sanq” (“Buddaya hörmət, şəriətə hörmət, camaata hörmət”) sözləri ilə tamamlanır.

X yüzillikdə Qaraxanlıların islamı dövlət dini etmələrindən sonra uyğurlar da yeni dini mənimsəməyə başlayırlar. Buddizm və Manilikdən fərqli olaraq İslam dininin uyğurların ilk inancları olan Gök Tanrı ilə bir  sıra cəhətlərdə uyğunluq təşkil etməsi yeni dinin sürətli yayılışına səbəb olur. Artıq bu dövrdə uyğur mədəniyyəti özünün kuliminasiya nöqtəsinə çataraq bəşəriyyətə dahi şəxsiyyətlər bəxş edir. İslam mədəniyyəti dövründə Yusuf Xas Hacip, Mahmud Kaşğarlı, Əhməd Yüknəki, Əhməd Seyid Kaşğarlı, Cəlaləddin Məhəmməd, Təbib Yarkəndli, Məhəmməd Mirzə, Heydər Dövlətli, Sedin Kaşğarlı, Mirzə Məhəmməd Çiraslı, Sədrəddin Kaşğarlı, Məhəmməd Yusif bin Kaşğarlı, Molla Məhəmməd Sadıq, Məhəmməd Sadıq Yarkəndli, Məhəmməd Sadıq Yenihisarlı, Cəlaləddin Katib Yarkəndli, Molla Məhəmməd Teymur Kaşğarlı, Şəddi Kaşğarlı, Abdulvəli Sərmənli, Mola Musa Ağsulu, Molla Musa Sayramlı, Bilal Nazim, Abdurrahim Nizarlı, Məhəmməd Baba Xoca Xotanlı, Məhəmməd bin Sədir Zeynəddin kimi tarixçi, ədib, hüquqşünas, kimyaçı, riyaziyyatçı, təbib, coğrafiyaşünas, astronom və şairlər yetişir. Bu müəlliflərin yazdıqları əsərlər hazırda Sankt-Peterburqdakı Milli Kitabxanada saxlanmaqdadır.

**VI yarpaq**

## Babək: Bəy kimi yaşanan ömür

Tarixin ziddiyyətli, mənbə olaraq qaranlıq, hadisə olaraq işıqlı bir dövrünü təşkil edən Babək hərəkatı, bu hərəkatı doğuran səbəblər, hərəkatın ideya qaynaqları, mənəvi yönü tədqiqatçılar arasında fikir ayrılıqlarının yaranmasına, olaylara subyektiv yanaşmalara səbəb olub. Orta əsrlər dönəmində ərəb tarixçilərinin tarixi yazarkən saraydan asılılıqları, öz düşüncə tərzlərinin obyektiv yanaşmaya imkan verməməsi, ən əsası düşmənin tarixi yazıldığı üçün mütləq şəkildə böhtanlardan və təhriflərdən istifadəyə haqq qazandırılması bu və ya digər şəkildə Babək hərəkatının üzərinə qalın örtük çəkib. Amma bütün bunlara baxmayaraq yazılanlar arasında yalanları bir kənara atıb, gerçəkliklərə işıq tutmaq az da olsa, mümkündür.

Bəlkə də, Babək dünyada yeganə insandır ki, onun doğuluşu da, ata-anasının kimliyi də, hətta öz gerçək adı da mənbələrdə yalan olaraq verilib. Doğrudur, müəyyən qədər Babək haqqında mənbələri araşdıran iranlı şərqşünas Səid Nəfisinin bu fikirlərinə haqq qazandırmaq olar: **"Böyük şəxsiyyətlərin ata-analarının kim olduğunu və dudmanlarının mənşəyini bilməyə bir o qədər də ehtiyac yoxdur".** Amma bir tarix ki, doğuluşdan təhrif olunursa, bu artıq həm tarixə, həm də ki qələmə xəyanətdir.

Ərəb mənbələrinin (İbn ən-Nədim, "Kitab əl-Fehrist" və digərləri) anlatdığına görə, Babəkin atası Abdullah Ərdəbil yaxınlığındakı Bilalabad kəndində yaşayarkən güzəranını yağ satmaqla keçirir və bir gün kəndləri gəzərkən tay göz bir qadına vurulur və onunla zina etdiyi üçün xalq arasında rüsvay edilir, daha sonra isə həmin qadınla evlənir. Bu evlilikdən isə Babək dünyaya gəlir. Daha sonra ərəb qaynaqlarında qeyd olunur ki, Abdullah bir gün Savalan dağı ətrafında hücuma məruz qalaraq öldürüldükdən sonra, anası Bərumənd başqalarının uşaqlarına süd verməklə qazandığı muzdla Babəki on yaşına qədər

böyüdür, daha sonra isə Babək çobanlıq edərək bu müddətdə tənbur çalmağı öyrənir, daha sonra oradan ayrılaraq Təbrizə gələrək burada Məhəmməd ibn Rəvvad adlı şəxsin yanında çalışdıqdan sonra 18 yaşında geri qayıdır. Daha sonra bir gün Bilalabad kəndinə gələrək, Bəruməndin evində qonaq qalan Xürrəmi icmasının rəhbəri Cavidan Babəkin fərasətli olduğunu görərək onu özü ilə aparır. Xürrəmi icmasının digər bir rəhbəri Əbu İmranla savaşda ağır yaralandıqdan sonra Cavidan öldüyü üçün, bəlkə də həmin dövrdə Şərqin ən ağıllı qadını olan Cavidanın arvadı Kəldaniyyənin sayəsində həm xürrəmi icması parçalanmaqdan və dağılmaqdan xilas olur, həm də ki Babək Xürrəmi icmasının güclü liderinə çevrilir. Xalqa Cavidanın ruhunun Babəkə keçdiyini və onun Məzdək dininin yenidən dirçəldəcəyini müjdəsini verən qadın Xürrəmi adəti ilə Babəklə evlənir. Bununla da Babək Xürrəmi icmasının başçısı olur və Babək adını da bu zaman götürür.

Ərəb mənbələrinin Babəkin icma başçılığına qədər olan həyatı haqqında anlatdıqları reallıqdan uzaq olsa da, Babəkin atasının Xürrəmi icmasından olduğu söyləməyə haqlı əsaslar ortaya çıxır. Çünki Cavidanın Bilalabada gələrkən kəndin böyüyünün onu yaxşı qarşılamadıqdan sonra, Babəkin anasının evinə gəlməsi bu fikrin müəyyən qədər haqlılıq payının olduğunu göstərir. Ayrıca İslam dinində olmayan bu ailənin uşağının adının heç də ərəb mənbələrinin anlatdığı kimi Həsən yox, türk ismi olan Əsən olduğu haqda da tədqiqatçılar arasında fikirlər mövcuddur. Məhz bu məqamda Babəkin ailəsinin də bağlı olduğu Xürrəmi icması haqqında məlumatlara nəzər yetirək.

Məlumdur ki, orta əsr ərəb tarixşünaslığı ortodoks İslamdan kənarda olan bütün məzhəbləri heres elan edərək onların kökünün Sasanilər dönəmində ortaya çıxan Məzdəkilər hərəkatına bağlayırdı. Tarixdə isə Məzdəkilər bütün var-dövlətin insanlar arasında ortaq bölüşdürülməsi ilə yanaşı, qadınların da ümumi olması fikri ilə xatırlanır. Yəni

məzdəkilər bir növ ərəb tarixşünaslığında zinakarlar, rəzil insanlar olaraq xatırlanır. Məhz bu ənənəni qoruyan saray tarixçiləri Xürrəmiliyi də Məzdəkiliyin davamı kimi görmüş, böhtan və qarayaxmalar onların da üzərinə atılmışdır. Xürrəmilər hərəkatının adının Məzdəkin Xürrəmə adlı bir qadını ilə əlaqələndirilməsi də buradan qaynaqlanır. Tarixçi Məhəmməd Övfi əsərində yazır ki, Babək icma başçısı olduqdan sonra oğru, dinsiz, əxlaqca pozğun adamlar onun başına yığıldılar. Göründüyü kimi, bütün bunlar Xürrəmilərə qarşı olan nifrətdən yaranırdı və hətta Xürrəmilərin ildə bir dəfə qeyd etdikləri Novruz bayramı qadınların ildə bir dəfə kişili qadınlı bir yerə yığışaraq zinakarlıq etdikləri kimi qələmə verilirdi. Akademik Ziya Bünyadov haqlı olaraq yazırdı: **"İyirmi ildən artıq xilafətə qarşı kəskin və cəsur azadlıq mübarizəsi aparmış bir xalqı şən və qayğısız ömür sürən başıpozuq bir kütlə kimi qələmə vermək mümkün deyil".**

Babəkin böyük lider olacağı haqqında ərəb mənbələrində maraqlı bir rəvayət var. Tarixçi Məhəmməd ibn İshaq yazır: "Bir dəfə Babək evə gec gəlir və bundan narahat olan anası onu axtarmağa gedir. Çox axtardıqdan sonra anası onu otardığı inəklərin arasında tamamilə çılpaq vəziyyətdə yatmış halda tapır. Günorta olduğundan ana oğluna diqqətlə fikir verdikdə onun bədənindəki tük yerlərindən qan çıxdığını aydın görür. Uşaq oyanıb ayağa durduqdan sonra qan rəngini dəyişərək, görünməz olur. Ana başa düşür ki, **oğlu dünyaya böyük işlər görməkdən ötrü gəlib və onun taleyində çox qanlar axacaq"**. Məhz belə də olur.

**Xürrəmilər kimlər idi?**

Öncə onu qeyd etmək lazımdır ki, Xürrəmilər hərəkatını əski din və inanc tərəfdarlarının İslama qarşı mübarizəsi kimi qələmə vermək bu hərəkatı aşağılamaq, onun dəyərini heçə endirmək deməkdir. Xürrəmilər hərəkatının əsas hədəfi bilavasitə İslam dini olmayıb, bu dinin daşıyıcısı olan işğalçı Ərəb dövləti idi. Yəni Xürrəmilər daha

böyük ideal-Azadlıq uğrunda mübarizə aparırdılar. Onların yurdunu işğal edən qəsbkarlar İslam dinində olduğu üçün Xürrəmilərin başqa bir inancın daşıyıcısı olmaları qanunauyğun hal idi. Daha çox qəbul edilən fikrə görə, Xürrəmi sözü hərəkatın ilk başladığı yer olan Xürrəm adlı yaşayış məntəqəsinin adından götürülüb. Eyni zamanda hər bir şeyi mübah sayan, ancaq şadyanalıq keçirməyi xoşladıqları üçün şad-xürrəm adı ilə əlaqədar olduğu qeyd olunur. Təbii ki, bu fikir kökündən yanlışdır, belə bir versiya yuxarıda qeyd etdiyimiz səbəblərdən yaranıb. Xürrəmi sözünü Kərbəla döyüşünün qəhrəmanlarından Hürrün adı ilə bağlı olması, həmçinin əksinə oxuduqda (Xürrəm-Mərrüx, Mərrix) Mərrix-Mars planetinin adı ilə əlaqədar olması barədə də fikirlər vardır. Hətta Babəkin müsəlman olması ilə bağlı ərəb mənbələrində bir sıra fikirlər olsa da, bunlar reallıqdan uzaqdır. Babəkiliyi heteredoks islama bağlayanlar sadəcə onun mübarizə apardığı xilafətin ortodoks olması ilə əsaslandırırlar. Çünki Babək üsyanına qədər hakimiyyətə baş qaldıran hərəkatlar məhz heres məzhəblərin davamçıları olmuşlar. Xürrəmi inancının zərdüştiliklə əlaqələndirilməsi də doğru deyil, çünki IX əsrdə Azərbaycanda əski dinimizin artıq sosial dayağı qalmamışdı. Xristianlıq isə Alban hökmdarı Mömin III Vaçaqanın bütün səylərinə baxmayaraq regionda nüfuz qazana bilmədi. Yeganə doğru variant güneyli tədqiqatçı Saleh İldırımın konsepsiyasıdır: Babəkilər əski türk gələnəklərinə bağlı olan şamançı idilər. S.İldırım yazır: "Xürrəmilərin inanclarına gəlincə Cavidanın ruhu Babəkdə zuhur edir. Simvolik olaraq iki mənəvi qüvvəyə-ruha, ağ və qara, işıqlıq və qaranlıq ruhuna inanırlar.  Başqa dinləri rədd ya təhqir etmirlər. Bütün dinlərin tərəfdarları öz dini mərasimlərində azaddırlar". Xürrəmilər Şirvin adlı peyğəmbərə inanc bəsləyir, reinkarnasiyaya-ruhun yenidən canlanmasına inanırdılar. Şirvinlik inancında Tanrı cinsiyyətsizdir, yəni nə erkəkdir, nə də qadın. O tamdır, bütündür. Bu inanca uyğun olaraq Babək zamanında qadın-kişi bərabərliyi mövcud idi. Ailənin mirası qız və oğlan övlad arasında bərabər olaraq paylaşılırdı. Bu isə İslamın

şərtləri ilə zidd idi. Asif Ata Şirvinlik barədə belə söyləyib: **"Babək Şirvinin qulu deyildi, o Şirvinə itaət eləmirdi. Şirvindən qorxmurdu, Babəkin üzərində Şirvin hökmranlığı durmurdu Şirvin Babəkin qəlbində, ağlında, əməlində yaşayırdı".**

Xürrəmilər icmasının xəzər türkləri ilə də bağlılığı mövcuddur. Babəkə qədər Xürrəmi icmasına iki rəhbərin başçılıq etməsi xəzərlərdən qalma ənənə idi. Digər tərəfdən xəzərlərlə xürrəmilərin digər dinlərə qarşı tolerant münasibətləri xürrəmiliyin xəzərlərin inancı ilə bağlılığını göstərir. İbn Fədlan yazır ki, xəzərlərdə 7 qazı var idi: 2-si yəhudilər, 2-si xristianlar, 2-si müsəlmanlar və 1-i də kafirlər üçündür. Yəni xəzərlərin dinə tolerant münasibəti həmin dövr üçün unikal bir hadisə idi.

**"Babək" adı-** Xürrəmilər tarixində ən mühüm məsələlərdən biri Cavidandan sonra rəhbərliyə keçən Həsənin və ya Əsənin özünə Babək adını götürməsidir. Bir sıra şərqşünaslar bu adı farsmənşəli Papək adı ilə izah etməyə çalışsalar da, bu fikir iflasa uğramış, ümumiyyətlə xürrəmi icmasına liderlik edənlərin adlarının türkcə olduğu anlaşılmışdır: "Cavidan" ismindəki "Çav" türkcə "şan-şöhrət", "İd" "göndərmək", "an"-mənsubiyyət şəkilçisidir. Ümumilikdə, sözün tam açılışı "əbədi şöhrətə layiq görülmüş" mənasındadır. İmran, türk şəxs adı olan Əmranın ərəbləşmiş formasıdır. "Əm" türkcədə "bacarıqlı", "ran" isə "ərən" sözünün şəkildəyişməsidir. "Babək" sözü isə iki hissədən təşkil olunub: Birinci hissə "Bay", ikinci hissə isə "Bək-Bak" sözündəndir. Əslində, tarixi anlamına görə hər ikisi eyni mənanı ifadə edir. "Bək-Bak-Bağ" sözü ulu türkün qədim yurdu olan Midiyada Tanrıya verilən "Bağ" sözündəndir. Hökmdar Baybağ da əcdadlarının inanclarına uyğun olaraq bu adı özünə götürüb. Çünki tarixən türk xaqanları qüdrətli olduqlarını göstərmək məqsədilə içərisində "Bağ" sözü keçən ləqəblər seçiblər. Məsələn, Midiya sarı (hökmdarı) Ərbağ (yunancası Arbak), Göytürk xaqanı Bağa İşbara (581-587), Cur Bağa (587-588) xaqan, Türkeş xaqanı Bay Bağanın adını qeyd etmək olar.

Adın əvvəlindəki "Bay" sözü də "Bağ" sözünün müxtəlif variantlarından (Bayat sözündəki "Bay" da bu qəbildəndir.) biridir. Sonralar "Bağ" sözü Tanrı anlamını ifadə etməklə yanaşı, yüksək rütbə mənasını ifadə edən "bəg-bək-bəy" formalarına düşüb.

**Babək qiyamçı yox, hökmdar idi!**

Tarixən imperiyalar müstəmləkəçilik siyasəti həyata keçirdiklərindən onlara qarşı əsarətdə olan xalqlar bir sıra qiyamlar qaldırıblar. Bu qiyamlar imperiyanın gücünə münasibətdə maksimum 4-5 il davam edib və sonucda məğlub olub. Fəqət 500 minə yaxın ərəbi öldürmüş, ən cəsur sərkərdələrini məhv etmiş Babək adi bir qiyamçı deyil, məhz hökmdardır. Bunu sübut etmək üçün bir sıra amilləri nəzərinizə çatdırırıq:

- Bayrağın olması - Həm də tarixdə azadlıq rəmzi olaraq ilk dəfə səmalara qaldırılmış Günəş rəmzi olan qırmızı bayraq
- Dövlətə məxsus hərbi şuranın mövcudluğu, nizami qoşunun və ona rəhbərlik edən cəsur sərkərdələrin varlığı
- Xristian dövlətləri ilə qurulan münasibətlər - Babəkin iqamətgahı ilə Qərb sarayları sıx əlaqədə idi və Avropa feodalları, onların övladları bu iqamətgahın fəxri qonaqları olublar
- Rəhbərlik edəcək geniş bir ərazinin olması
- Vahid idealogiyanın olması və s.

Dövlətin yaranması yolunda hökmdar Baybək dövrün qüdrətli imperiyaları ilə əlaqə yaradıb və onlarla adi bir qiyamçı qismində deyil, böyük bir hökmdar kimi münasibətdə olub. Onun Bizans imperatoru Feofilə göndərdiyi məktubunda bütün ərəb ordusunun yalnız onunla mübarizə apardığını bildirərək bu fürsətdən lazımınca istifadə edə biləcəyini bildirir. Burada bizə maraqlı olan cəhət Babəkin özünün də qeyd etdiyi kimi bütün ərəb ordusunun onunla mübarizə aparmasıdır.

Demək, bu zaman vəziyyət elə yerə çatıb ki, Ərəb imperatorluğu əsas rəqibi olan Bizans imperiyası ilə münasibətləri donduraraq bütövlükdə Babəkin üzərinə düşüb. Bu isə artıq o deməkdir ki, Babək hərəkatı artıq qiyam formasından çıxaraq müstəqil dövlət yaradılması mərhələsinə keçib. Məhz bu məqsədlə xürrəmilərin məhv etməyin yolu xilafət sarayının yeganə mübahisə obyekti idi. Nəhayət çarə tapıldı. Ölüm anında Məmun varisi Mötəsimə bunları vəsiyyət etdi: **"Yadda saxla ki, Türk türkü çalar. Puluna, malına xəsislik etmə, bacardıqca, türkə qarşı türk çıxart. Nə qədər ki, xürrəmilər var, xilafətdə rahatlıq olmayacaq".**

Bu bir həqiqətdir ki, Babək üzərinə göndərilən ərəb sərkərdələri qələbə çala bilməyərək ,vəziyyəti qaçaraq xilas olmaqda görüblər. Hətta ərəb sərkərdəsi Əbu Musa "Biz onlarla vuruşa bilmərik, biz ancaq müsəlmanları qorxutmağa qadirik" deyərək hərəkatın qarşısı alınmayacaq bir şəklə çatdığını ifadə edib. Əlbəttə ki, məntiqli düşünsək, görərik ki, xürrəmilər hərəkatının əvvəlində (Cavidan və Əbu İmranın zamanında) məqsəd feodal zülmünün aradan qaldırılması idisə, artıq Babəkin zamanında bu amal müstəqil dövlət yaratmaq olub. Nəhayət, Babəkə qarşı çıxacaq bir türk tapılır. Bu Orta Asiya türklərindən Afşin Heydər ibn Kavus olur. Afşin Babəki məğlub etsə də, xilafətdə ona qarşı olan qısqanclıq Babəkdən üç il sonra onun da öldürülməsinə səbəb olur. Afşin də Türk idi. Babəki əsir aldığı üçün qiymətli xələtlərdən, qızıl taclardan tutmuş nə qədər mülk əldə etdi, amma axırı həbsxanada zəlil gündə qalaraq acından ölür. Tarixə isə xürrəmiləri məğlub edən Afşin deyil, məhz Babək keçir.

**Babəki kimlər kimə satdı?**

Qeyd etmək lazımdır ki, Babək hərəkatının uğurlu alınmasının bir səbəbi də yerli feodalların xürrəmilərə dəstək verməsi idi. Lakin hərəkatın sonlarına yaxın feodalların öz mənafelərini güdməsi və Babəkə sonadək dəstək olmamaları bu azadlıq hərəkatının, Qaradağ

mərkəzli bir dövlətin varlığına son qoyur. Mənbələrin məlumatına görə, Bəzz qalası uğrunda gedən vuruşmada 100 mindən çox ərəb əsgəri, 80 minə yaxın xürrəmi həlak olur. 837-ci ilin avqustun 26-da Bəzz qalasının işğalından sonra Babək kiçik bir dəstə ilə qaladan ayrılaraq meşəlik bir yerdə gizlənir. Babəkin yerini öyrənən Afşin xəlifənin ona aman məktubunu və Babəkin oğlunun yazdığı bir məktubu göndərir. Məktubda Babəkin oğlu atasında xəlifənin əfvini qəbul etməsini istəyirdi. Babək oğlunun məktubunu gətirəni öldürtdükdən sonra xəlifənin məktubunu oxumadan ikinci elçiyə deyir: "Oğlumun yanına get və bu sözləri çatdır: "Bir gün hökmdar kimi yaşamaq qırx il qul olmaqdan daha yaxşıdır". Bir müddət gizləndikdən sonra Bizansa getmək istəyən Babək Arrana gəlir və burada Alban feodallarından Səhl ibn Sumbatın yanında qalır. Babəkə xəyanət edən Sumbat onu ova aparır və əvvəlcədən danışıldığı kimi Afşinin adamları onu mühasirəyə alır. Bu barədə **Əhməd ibn Əsəm "Fəthlər kitabı"**nda yazır: "Babək onları görəndə artıq mühasirədə idi. Onlar qışqırdılar: "Atından en! Babək soruşdu: "Siz kimsiniz?" Biri dedi ki, "mən Buzbarayam, digəri də Əbu Səidəm"-dedi. Babək, "Aydındır!" deyib atından endi. Sonra o, Səhl ibn Sumbata baxıb, onu söydü və dedi: "Sən məni yəhudilərə bir quruşa satdın! Əgər pul belə sənə lazım idisə, mən iki qatını verərdim". Babəkin bu sözləri türk tarixinə acı bir xatirə kimi düşdü. Bir türk başbəyi yəhudi-ərəb birləşməsi sonucunda əsir alınır. 838-ci il martın 14-ü gününü Məsudi belə təsvir edir: "Babəkə və qardaşına şahlara layiq, mirvarilərlə işlənmiş, qiymətli daş-qaşlarla bəzənmiş libaslar geyindirirlər. Babəki Hindistan şahının Məmuna hədiyyə etdiyi nəhəng boz filin, Abdullanı isə inəyin üstünə mindirirlər. Samirəyə uzanan yolun hər iki tərəfində bayram libası geyinmiş, qara bayraqları dalğalanan süvari və piyada qvardiyaları düzülmüşdü. Babək yol boyu düzülmüş bu ərəb döyüşçülərinə baxaraq, dodağının altında hey deyinirdi: **"Gör nə qədər bədbəxtəm ki, bu itlərin hamısını gəbərdə bilmədim".**

Babək edam olunur. Ölüm anında üzünün rənginin saralması qorxaqlıq kimi görsənməsin deyə bədənin qanını üzünə sürtür. Babək tarixə bu hərəkəti ilə düşür, xəlifə Mötəsimin isə tarixə nə cür düşdüyünü Nizam əl-Mülk Siyasətnamə əsərində yazır: "Bir gün Mötəsim içki məclisindən durub otaqların birinə getdi. Bir müddət orada qaldıqdan sonra gəlib şərab içdi. Sonra yenə də durub başqa bir otağa getdi. Yenə gəlib şərab içdi və üçüncü otağa getdi. Sonra hamama gedib qüsl etdi və iki rükət namaz qıldıqdan sonra məclisə gəlib Qazi Yəhyadan soruşdu: "Bilirsənmi, mən bu namazı nə üçün qıldım?" Dedi: "Yox, bilmirəm". Dedi: "Əziz və uca Allahın bu gün mənə mərhəmət etdiyi nemətə qarşı qılınan namazdır. Bu üç saatda mən üç qızın qızlığını aldım. Bu qızların üçü də mənim üç düşmənimin qızları idi: biri Rum padşahının, digəri Babəkin və üçüncüsü atəşpərəst Mazyarın qızı".

**Görəsən, əyyaş, zinakar, zındıq kim idi? Babək, yoxsa Mötəsim???**

**VII yarpaq**

## Bilgə Tonyukuk

Qərb türkoloqları onu türklərin Bismarkı kimi tanıyırlar. Lakin zaman amilini nəzərə aldıqda əslində Bismark üçün "almanların Tonyukuku" ifadəsi daha düzgün sayılmalıdır. Adətən, şərq tarixində hökmdardan sonra gələn ikinci səlahiyyət sahibləri tarixə xüsusi olaraq düşmürlər. Fəqət dörd xaqana vəzirlik edən Bilgə Tonyukuk Orxon abidələrindən də aydın olduğu kimi həm hökmdarın, həm də ki türk budununun sevgisini qazanmış bir şəxsiyyətdir.

Qəribədir ki, sonralar türk elinin xilaskarlarından olan Tonyukuk düşmən Çin dövlətində doğulub və həmin vaxt Türk budunu Çinin əsarəti altında idi. Dünyagörüşü belə bir şəraitdə formalaşan və Çində hərb sənətinə dərindən yiyələnən Tonyukuk bir gün Göktürklərin azadlığı üçün savaşacağına ümid bəsləyir. Kür Şad hərəkatı tam olaraq

qələbə ilə nəticələnməsə də, bu inqilab sonrakı nəsillərdə hürriyyət duyğusunun güclənməsinə səbəb olur. Elə buna görədir ki, bağımsızlığın əldə edilməsi çox uzun çəkmir. Qurdbaşlı bayraq İltəriş xaqan və Bilgə Tonyukukun birgə fəaliyyəti nəticəsində yenidən Ötükəndə dalğalanmağa başlayır. Dövlətlə budun arasında körpü rolunu oynayan Tonyukukun planı əsasında çin, kitan, oğuz ittifaqı 682-ci ildə "İnəklər gölü" savaşında darmadağın edilir və Tanrı yenidən türklərə kağan qılır.

Bu zamandan etibarən 25 yaşlı Tonyukuk dövlət müşavirliyi (ayquçi) vəzifəsini həyata keçirməyə başlayır. Vəzirliklə yanaşı o ədliyyə, maliyyə, ordu və diplomatiya məsələlərinə də rəhbərlik edir. Qutluğun ölümündən sonra oğulları Bilgə 8 yaşında, Gültigin isə 7 yaşında olduğu üçün hakimiyyətə qardaşı Qapağan (692-716) xaqan gəlir və yeni xaqanın da ən yaxın köməkçisi Tonyukuk olur. 693-698-ci illərdə Çinə yürüşlər təşkil edilir və bu hücumların sonucunda 698-ci ildə Çində yaşayan türklər vətənlərinə geri qayıda bilirlər. Qapağan xaqandan sonra hökmdarlığa oğlu İnal-Bögü xaqan gəlir və tezliklə türklər zəifləməyə başlayırlar. Bütün bunların səbəbkarının yeni xaqanın olmasını bilən Bilgə və Gültigin onu öldürürlər. Tonyukuk qızı Pofuyu Bilgə xaqana ərə verdiyi üçün həm də Bilgənin qayınatası idi və uzaqgörənliyi ilə yanaşı, bu amil də onun yenidən vəzifəsində qalmasına səbəb olur.

32 yaşlı Bilgə xaqan (716-734) dövləti yenidən dirçəltmək üçün ordunun başına 31 yaşındakı qardaşı Gültigini gətirir. Bilgənin zamanında göktürklər yenidən əski qalibiyyətli dönəmlərini yaşayırlar və Bilgə Tonyukukun məsləhətləri sayəsində 720-ci ildə çinlilər darmadağın edilir, Kançu, Yüançu, Lianqçu əraziləri ələ keçirilir.

Tonyukuk ayquçı vəzifəsinin ona vermiş olduğu səlahiyyətdən istifadə edərək Bilgə xaqanı iki yanlış qərardan çəkindirir. Belə ki, Bilgə xaqan Çində olduğu kimi Türk elində də şəhərləri divarlarla əhatə etmək

qərarına gəlir, lakin Tonyukuk buna etiraz edərək bildirir ki, göktürklərin sayı çinlilərin yüzdə biri qədər deyil və biz sulu və otlu bozqırlarda yaşamağa öyrəşmişik və buna görə də daima təbiətən savaşçı olmuşuq və qalibiyyətlərimizin də səbəbi məhz bu yaşam tərzimizdədir. Güclü olduğumuz zaman qoşun toplayaraq hücuma keçər, zəif olduğumuzda bozqırlara çəkilərək mücadilə apararıq. Əgər qala və divarların içərisində əhatə olunsaq Tanq ordusu bizi mühasirəyə alaraq, asanca dövlətimizi zəbt edər.

Bilgə xaqanın digər bir qərarı dövlətdə buddizm və taosizm dinlərinin yayılması və bu dinlərə aid məbədlərin inşası ilə bağlı idi ki, uzaqgörən Tonyukuk bu dəfə də xaqanı yanlış qərar verməkdən çəkindirir: "Hər ikisi insandakı hakimiyyət və iqtidar duyğusunu zəiflədir. Qüvvətin və döyüşkənliyin yolu bu deyildir. Türk millətini yaşatmaq istəyiriksə, nə bu təlimlərə, nə də ki məbədlərə dövlətimizdə yer verməməliyik". Təbii ki, Tonyukuk bu fikrində haqlı idi. Çünki bulqarların xristianlığı, xəzərlərin yəhudiliyi qəbul etdikdən sonra milliliklərini itirmələri tarixdən bəllidir.

Tonyukukun uzaq görən siyasi addımlarının nəticəsi olaraq Bilgə xaqanın zamanında dövlətin ərazisi Çinin Şan-Tunq ovalığından Karaşara qədər, şimalda Bayırku ərazisindən Amudərya çayınadək uzanır. 711-ci ildə Tonyukuk yenisey qırğızlarını məğlub etdikdən sonra türkeşlərin üzərinə yürüş təşkil etmək üçün kəşfiyyat göndərir. Tonyukukun dahiyanə planı əsasında Çinin müttəfiqi basmıllar məğlub edilir və Şan-Tan savaşında çinlilər darmadağın edilərək Beşbalıq ərazisi ələ keçirilir.

Belə bir şəraitdə artıq Çin sarayında qızğın mübahisələr gedir, getdikcə qarşısıalınmaz olan Türk ordusunun qabağını kəsmək üçün müxtəlif təkliflər edilir, lakin imperator başa düşür ki, nə qədər ki, Türk elinin başçıları həyatdadır hücumların qarşısını almaq mümkün olmayacaq.

Təsadüfi deyil ki, Çin saraylarında Göktürklərlə bağlı müzakirələrin birində imperator Huanqsunki belə sonuca gəlir: "Göktürklərin nə zaman nə edəcəklərini heç kəs bilməz. Bilgə xaqan millətini sevən qeyrətli bir insandır. Türklər də çox məmnundurlar. Gültigin hərb sənətinin dahisidir, ona qarşı çıxacaq, onu məğlub edəcək qüvvə yoxdur. Tonyukuk isə çox ağıllı və uzaqgörən bir dövlət xadimidir. Bu üç "barbar" nə qədər ki, bir yerdədir, onlarla bacarmaq olmayacaq".

Mənbələrdə Tonyukuk haqqında son məlumatların 725-ci ilə aid olması bildirilir. 46 il müddətində Türk dövlətinə rəhbərlik etmiş dövlət xadimi Tonyukuk 726-cı ildə vəfat edir və onun xatirəsi Bilgə xaqan tərəfindən Orhon yaxınlığındakı Bayın-çokto ərazisində əbədiləşdirilir. Çinlilər Tonyukukun ölümünə o qədər sevinirlər ki, hətta imperatorum əmriylə 40 gün bayram şənlikləri keçirilir.

Böylə Bağa Apa Tarxan ünvanını daşıyan Tonyukukun öz sağlığında 720-ci ildə bengü daş (əbədi daş) tikərək orada türk tarixinin mühüm hadisələrini qeyd etməsi bildirilir. Məhz bu daş Tonyukukun Türk tarixinin ilk salnaməçilərindən olmasını göstərir. Xatirə daşı dörd cəbhəli iki daşdan ibarətdir. Birinci daşın hündürlüyü 243 sm (35 sətir), 27 sətirdən ibarət olan ikinci daşınkı isə 217 sm-dir. Digər bengü daşlardan fərqli olaraq Tonyukuk abidəsindəki yazılar soldan sağa doğru istiqamətlənib.

Tonyukuk bengü daşını 1897-ci ildə Klements aşkarlayıb, 1898-ci ildə isə fotosurəti çıxarılıb. Yazıları ilk dəfə oxuyan isə Orxon-Yenisey yazıları üzrə ilk tədqiqatçılardan Radlov olub.

**VIII yarpaq**

## Tuna bizdən utanır, biz Tunadan

Bulqar adı tarixdə ilk dəfə V əsrin II yarısından etibarən işlədilir. Mənbələrdə 482-ci ildə Bizans imperatoru Zenonun şərqi qotlarla savaş üçün Qara dənizin şimalında yaşayan bulqarlardan kömək istəməsi qeyd olunur. Məlumdur ki, 453-cü ildə Atillanın ölümündən sonra hun tayfaları Avropa ərazilərinə yayılmağa başlayır. Atillanın ikinci oğlu Dengizikin ölümündən sonra (469) onun kiçik qardaşı İrnək özünün başçılıq etdiyi hunlarla birgə Orta Avropanı tərk edərək Qara dəniz sahillərinə gəlirlər və buradakı oğur (bunların tərkibinə Saraqur (Sarı və ağ Oğur), Bittiqur (Beş-Oğur), Ultingur (Altı-Oğur), Kutri-qur-Kuturqur ("Tukurqur"-Doqquz-Oğur), Unqur-Hunuqur-Onuqur (On-Oğur), Utiqur-Uturqur (Otuz-Oğur) boyları aiddir.) adlanan türk tayfaları ilə qarışdıqdan sonra "bulqar" (türkcə "qarışmaq" deməkdir.) adlanmağa başlayırlar. Tarixdə kimmerlərin (qamərlərin) bulqarların əcdadı olması fikri də mövcuddur. Prokopius kimmerləri bulqarların əcdadı kimi qeyd edir. İran və Xəzər rəvayətlərində bulqarların ataları kimi Kimaridən bəhs edilir. "Mücməül-tavarix" əsərində Yafəsin yeddinci oğlu Kimarinin bulqarların əcdadı olduğu göstərilir. Eyni zamanda Macar mifologiyalarında vaxtilə Kimmer hökmdarının Kutirqur və Utirqur adlı iki oğlunun olması qeyd olunur. Digər bir türk tayfası xəzərlər isə öz nəsillərini bu cür qeyd edirlər: Nuh-Yafəs-Kimmer-Turqarma.

558-ci ildən sonra bulqarlar bir müddət avarların hakimiyyəti altında yaşayırlar. 567-ci ildə avarlar göktürklərə məğlub olandan sonra Orta Avropaya və indiki Cənubi Rusiya ərazilərinə köç edirlər.Avarların bu köçü nəticəsində bulqarların bir qismi də onlara qoşularaq ərazini tərk edir, digər qismi isə göktürklərin tabeçiliyinə keçir. Bizansın yardımı ilə bulqarlar göktürklərin tabeçiliyindən çıxırlar və müstəqil dövlət yaradırlar. İlk hökmdarları Asiya Hun xaqanlarının sülaləsindən gələn

Qurd (Kubrat) xan olur. Kubratın zamanında dövlətin sərhədi Kuban çayından Tunayadək uzanırdı. Dövlətdə əsas yeri on-oğur türkləri tuturdu. Bizans mənbələrində (VI əsr) bulqarların yaşadığı ərazilər "Patria Onoguria" adlanırdı ki, bu zaman şimalı Qafqaz əraziləri nəzərdə tutulurdu. 665-ci ildə Qurd xanın ölümündən sonra Böyük Bulqar dövləti xəzərlərin hücumlarına davam gətirməyərək parçalanır. Bu hadisədən sonra əsasının otuz-oğurların təşkil etdiyi bir dəstə şimala doğru çəkilsə də, Kubratın oğullarından Bat Bayan macarlar və on-oğurlarla birgə ərazidə qalırlar. Bu günkü balkarlar yurdu (Şimali Qafqazı) tərk etməyənlərdir. Digər bir dəstə Bat Bayanın kiçik qardaşı Asparuxun (679-702, adın açılışı təmiz türkcədir. "Aspar" türklərdə tituldur, "ux" isə "oğul,varis" deməkdir. Ad V əsrdə Alban feodalı olan Asprakın ismi ilə eynidir.) başçılığı ilə Tuna (Dunay) çayı ərazilərinə gedərək orada məskən salırlar və Dobrucanın cənubunda Tuna-Bulqar dövlətini yaradırlar. Asparuxun başçısı olduğu bulqarlar iç bulqarlar kimi tanınır.

**Bizansla münasibət-**Tuna Bulqarlarının qonşu Bizansla münasibətləri ziddiyyətli xarakter daşıyır. Bəzən xəzər türkləri kimi Bizansın yardımına çatan bulqarlar bəzi xanların dövründə şiddətli savaşlar aparırlar. Belə ki, 717-ci ildə bulqarlar Konstantinopolu mühasirə edən ərəb ordularına müqavimət göstərən Bizansa yardım edir. II Yustinian Tervel xanın (702-718) yardımı ilə iki dəfə taxta çıxır. 716-cı ildə Bizansla ticarət müqaviləsi imzalanır. Lakin bulqarların güclənməsindən ehtiyat edən imperator V Konstantinin (741-775) zamanında Bizans xanlığa qarşı yürüşlər təşkil edir. İmperator I Nikefor 811-ci ildə xanlığın mərkəzi Pereyaslava qoşun çıxarır, lakin məğlub olaraq özü də döyüş meydanında öldürülür. Ardınca bulqarlar imperator II Mixaili də məğlub edirlər. Bizansın yürüşlərinə cavab olaraq Kürüm xan cənubi Macarıstanı və Tansilvaniyanı əraziyə qatır, 809-cu ildə Sofiyanı, ardınca Niş və Belqrad qalalarını işğal edərək 814-cü ildə Konstantinopolu mühasirəyə alır. Lakin mühasirə zamanı Atilla

kimi ağız və burun qanaxmasından vəfat edir.(13 aprel 814). Kürümün oğlu Omurtaq (814-831) Bizansla 30 il müddətə sülh müqaviləsi imzalayır.

Tuna bulqarlarının ən parlaq dövrləri Omurtaq xanın zamanına təsadüf edir. Belə ki, Bizansla sülh bağlandıqdan sonra Omurtaq xan iç duruma daha diqqətli yanaşmağa başlayır. Bu dövrdə yeni şəhərlər salınır, möhtəşəm saraylar, abidələr tikilir, su yolları çəkilir. Roma dövrünə aid olan Kara çayı ətrafındakı duz mədənləri yenidən işlək vəziyyətə salınır. Arxeoloq  G.Feherin Pereslav şəhərinin Madara qəsəbəsindən aşkar etdiyi 40 kv.metrlik sahəni əhatə edən qaya üzərindəki Kürüm xana aid atlı barelyef Omurtaqın zamanında hazırlanıb.

Omurtaq Avropanın digər bir güclü dövləti olan Frank imperiyası ilə savaş apararaq Tuna-Sava-Drava hövzələrini ələ keçirir.

Lakin digər türk toplumlarından uzaqlıq və eyni zamanda slavyanların say çoxluğu tədricən türklərdə milliliyin itirilməsi ilə nəticələnir. Artıq bulqarlarla yanaşı slavlar da dövlət idarəetməsində iştirak etməyə başlayırlar. Bulqarların slavlarla evlənmələri bu prosesi daha da sürətləndirir. I Boris xanın zamanında məsihiliyin qəbul edilməsi artıq slavlaşmanın kuliminasiya nöqtəsinə gətirib çıxarır.I Boris xan 864-865-ci ildə Bizansın təsiri ilə xristianlığı rəsmi dövlət dini elan edir. 869-870-ci ildə Konstantinopol kilsələr yığıncağında Bulqar kilsəsi rəsmən tanınır. Bunula da, bulqarların Tanqra (Bir Tanrı) inancı zəifləməyə başlayır. Əsl adı Boqaris olan xan Boris adını götürür və “xan” titulu “knyaz”la əvəz olunur.Boris xanlıqda Bizans apostolları olan Kiril və Mefodinin baxışlarını yaymağa çalışır. Artıq xristianlıq qəbul edildikdən sonra türk adlarının slavyan adları ilə əvəzlənməsi başlanılır. Knyaz Boris yaşlandıqdan sonra rahib həyatına qapılaraq hakimiyyəti oğlu Vladimirə tapşırır. Vladimir tenqrilik inancında olduğundan atasının qəbul etdiyi bir sıra qərarları ləğv edir. Lakin artıq məsihilik əhalinin böyük bir qismi tərəfindən qəbul edilmişdi. Bütün

türkçülük duyğularını tamamilə itirən Boris bundan qəzəblənərək oğlunun əvvəlcə gözlərini çıxarır, sonra isə öldürür. Ardınca Boris idarəetmənin əsasını təşkil edən Xalq Məclisini çağıraraq kiçik oğlu Simonu knyaz elan edir.

Bütün bunlara baxmayaraq, xristianlığın qəbulu Bizansla münasibətləri tamamilə yaxşılaşdıra bilmir. Doğrudur, məsihiliyin qəbulundan sonra Bizans hədiyyə olaraq Çağra ovalığını bulqarlara versə də, sonralar imperator Vasili 14 min bulqar əsgərini əsir alaraq gözlərini çıxartdırır. Tuna-bulqarları 1018-1187-ci illərdə Bizansın hakimiyyəti altında olsalar da, 1373-1878-ci illərdə digər bir türk ulusu olan Osmanlıların tabeçiliyində yaşayırlar.

Tuna-Bulqar dövlətini "Xan" adlanan hökmdar idarə edirdi və eyni zamanda Xalq Məclisi fəaliyyət göstərirdi. Xanlıqda 12 heyvanlı türk təqvimi işlədilirdi. I Boris xana qədər türkçülük ənənələrini yaşadan bulqar hökmdarları bunlardır : Tervel (701-718), Sevar (724-740), Qurumuş (740-756), Vinek (761-764), Telets (761-765), Sabin (765-767), Toktu (767-772), Paqan (772), Teleriq (772-777), Kardam (777-803), Kürüm (803-814), Omurtaq (814-831), Balamir (831-856,xristianlığı qəbul edən qardaşını öldürür.), Presiyan (836-853).

Bulqar-Türk dövlətinin süqutundan əsrlər keçsə də,bir qism bulqar türçülüklərini itirmədilər. Məhz buna görədir ki, sonralar da bulqar türklərinə qarşı çirkin planlar hazırlandı. 1878-1879-cu illərin Rus-Osmanlı savaşında və 1912-1913-cü illərin Balkan müharibələrində 1,7 milyon Bolqarıstan türkü ölkədən qovuldu. Berlin konfransından sonra bulqar türklərinin dil və təhsillə bağlı hüquqları bərqərar edilsə də, bu hal 1921-23-cü illərədək davam etdi. Sosialist rejimin dağılmasından sonra bulqar türkləri yenidən hüquq və azadlıqları uğrunda mübarizəyə başlayırlar. Hazırda Bolqarıstanın 8 milyonluq əhalisinin 1.5 milyonu türkdür. Onların "Zaman-Bulqariya", "Bultürk" kimi qəzetləri fəaliyyət göstərir. Tarixin unutdura bilmədiyi bir həqiqət

Sofiya şəhərində Kürüm xana qoyulmuş heykəldir. Heykəlin altında isə türk tarixinin ən şərəfli dövrlərindən birini ehtiva edən bu kəlmələr yazılıbdır : "Bolqar xalqı onları Bizans ağalığından xilas etdiyinə görə Kürüm xana minnətdardır".

**IX yarpaq**

## İdil suyu axar durur

Böyük Bulqar dövləti parçalandıqdan sonra 463-cü ildə bulqarların bir qismi İdil (Volqa) çayı sahilində məskunlaşır. Buradakı bulqarların əsas hissəsini otuz-oğurlar təşkil etsə də, onların tərkibinə xəzərlər, sabarlar, uzlar və hunların qalıqları da daxil idi. Əvvəllər qrup halında yaşayan bulqarlarda hər qrupun bir hökmdarı olurdu, lakin IX əsrdən bulqarlar bir dövlət ətrafında birləşməyə başladılar. Bu qruplar bunlardır : Bulqar, Suvar, Barzula, İskil.

Bulqar dövləti 965-ci ilədək Xəzər xaqanlığından asılı vəziyyətə idi və vergi verirdi. Xəzər xaqanlığının devrilməsindən sonra müstəqilləşən bulqarlar 985-ci ildə Kiyev-Rus dövlətinin hücumuna məruz qalır, lakin ruslar tezliklə ərazini tərk edirlər. 1006-cı ildə bulqarlarla ruslar arasında ticarət müqaviləsi imzalanır.

Rusların bulqarlara qarşı mənfi münasibətinə baxmayaraq 1024-cü ildə Suzdal knyazlığında aclıq baş verərkən bulqarlar ruslara yardım göstərirlər. Yeri gəlmişkən qeyd edək ki, bulqarlar bərəkətli torpaqlarda məskunlaşdıqlarından oturaq həyat tərzi sürürdülər, əkinçilik (ağ darı, buğda və arpa əkirdilər), heyvandarlıq, zərgərlik, dəriçilik və kürkçülüklə məşğul olurdular. Xəzər və Aral dənizləri ətrafı, Xarəzm, İran, Misir, Türküstan və hətta Şimal Buzlu okean əraziləri ilə ticarət edirdilər. Ticarətlərinin əsasını müxtəlif kürk və dəri, silahlar, bal və fındıq təşkil edirdi. "Bulqari" adlanan dəri və çəkmələr

daha çox məşhur idi. Bulqarların kürk istehsalı bu ticarətlə məşğul olan digər xalq olan ruslarla münaqişələrə səbəb olurdu. Məhz bu səbəbdən XI-XIII əsrlərdə ruslarla savaşlar aparılır.

**İdil-Bulqar şəhərləri bunlardır:** Suvar, Osal, Tetiş, Cuke-tav, Züye, Kaşan, Kermencük, Kazan. Paytaxt Bulqar şəhəri IX-XII əsrlərdə Şərqi Avropanın ən mühüm ticarət mərkəzlərindən idi. Bu mərkəz indiki Kazan şəhərindən 115 km cənubda yerləşirdi. Şəhərin ən məşhur sarayları "Ağ saray" və "Qara saray" adlanan tikililərdir.

İdil-bulqarları qərbdə burtaslarla və ruslarla, şərqdə başqurdlarla həmsərhəd olublar. İdil çayının adının Hun xaqanı Atillanın ismindən götürüldüyü qeyd olunur. Bulqarların nəsli hesab edilən çuvaşlar "Adıl" adlandırırlar. Digər türk xalqları tərəfindən Atil, Etil, İtil və İdil kimi tələffüz olunur. Valday yaylasından başlayan İdil çayı Şupaşkar, Qorki, Kazan, Kuybişev, Volqoqrad və Astarxandan keçərək Xəzər dənizinə tökülür.

İdil suyu axar durur

Qaya dibini oyar durur

Bütün balıqlar baxa durur

Gölü bilə daşırırlar.

( "Divani-lüğət it-türk"dən)

Volqa bulqarları haqqında əsas məlumatları İbn Fədlan "Səfərnamə" əsərində verib. "Səfərnamə"də qeyd edilir ki, Bulqar xanı Şelkey oğlu Almış islami bilgilər əldə etmək üçün xəzər türklərindən Baştonun

rəhbərliyi ilə xəlifə əl-Müqtədirə elçi göndərir.(920) 922-ci ilin mayın 12-də İbn Fədlanın başçılığı ilə Xilafətdən islam alimlər və inşaatçılar Bulqar şəhərinə ayaq basırlar. Saraydakı görüşdə Almış xan xəlifənin şərəfinə 3 dəfə bal şərabı içir. Fədlan Almış xanın islama səmimiyyətlə inandığını və onun "Allahım, bulqar xanı Yaltavarı islah et" duasını etdiyini qeyd edir. İslamdan əvvəlki bir sıra adətlər saxlanılsa da, yeni dinin ritualları ciddi şəkildə yerinə yetirilirdi. Hətta sübh namazını vaxtında qılmaq üçün gecələr oyaq qalınırdı.

İbn Fədlan bu səyahəti əsnasına bulqarlarla yanaşı oğuzlar, xəzərlər, başqurdlar, slavlar haqqında dəyərli məlumatlar verir. Özünə Cəfər adını götürən Almış 944-də oğlu Əhmədi həccə göndərir və eyni zamanda xəlifəyə dəyərli hədiyyələr və bayraq ərmağan edir.

Beləliklə, İdil-Bulqar dövləti islamı dövlət dini edən ilk türk dövləti olur. Almış xan isə İslamı qəbul edən ilk türk hökmdarlarından biri kimi tarixə keçir.

Xanlıqda eltəbər, buyruq, tudun kimi vəzifələr mövcud olub. Almış Cəfər xandan sonrakı bulqar başçılar bunlardır : "Mikayıl, Talib ibn Əhməd, Mömin ibn Əhməd, Mömin ibn Əl-Həsən.

**Bulqar türklərində din-** İstər Tuna, istərsə də, İdil bulqarlarında yeni dinin qəbulundan əvvəlki dinləri eyni idi. Bulqar totemizmində əsas yeri qartal və qurd tuturdu. Madara qəsəbəsindən tapılmış yazılarda Tanqra sözü bulqarların Tenqri inancından xəbər verir. Bulqarlar Tanqranı səmavi hesab edirdilər və başqa xalqlar kimi Tanqranın insan olduğunu düşünmür, eyni zamanda hökmdarı Tanrı kimi səciyyələndirmirdilər. Xan sadəcə olaraq onların üzərində hakim olması üçün seçildiyindən digər insanlardan fərqləndirilirdi. Çünki xanın da hakimiyyətinin fani olduğunu, bir gün öləcəyini və öldükdən sonra onun yerinə başqasının gələcəyini bilirdilər. Madara qəsəbəsindəki yunanca olan yazının birində "Tanrı tərəfindən göndərilən, Tanrıya bənzər Balamir xan" ifadəsi qeyd olunub. Arxeoloq

Geza Feher tərəfindən Presiyan xana aid Filippedə tapılmış yazılı kitabədə deyilir : "Bir kimsə həqiqəti axtararsa, Tanrı onu görər. Bir kimsə yalan söylərsə, Tanrı onu görür. Bulqar türkləri xristianlara çox yaxşılıq etdilər. Xristianlar bunları unutdular. Fəqət Tanrı görür".

1224-də monqollar Kalka savaşında rusları məğlub etdikdən sonra bulqarların tələsinə düşərək məğlub olurlar. 1236-da Batı xan bu məğlubiyyətin əvəzini çıxaraq bulqarları darmadağın edir. Əmir Teymurun 1391-1395-ci illərdə Qızıl Orduya qarşı apardığı savaşlarda bulqarlar da məğlub edilirlər. 1399-da bulqarlar ruslara yenildikdən sonra Kama çayının şimalına köçərək Kazan çayı ətrafında məskunlaşırlar. 1437-ci ildə yaradılan Kazan xanlığının əsasını da məhz həmin bulqar türkləri təşkil edir.

Bir-birini əvəzləyən dağıdıcı yürüşlərə tab gətirməyən Bulqar dövləti 1552-1584-cü illərdə çar Rusiyasının hücumlarına məruz qalır və şəhərləri darmadağın edilərək varlığına son qoyulur. Beləliklə, yeddi əsr müddətində öz mövcudluğunu qoruyub saxlayan Bulqar dövləti rusların dağıdıcı yürüşlərindən sonra süqut edir və Çar Rusiyasının hakimiyyəti altına düşür. Lakin Tuna bulqarlarından fərqli olaraq onlar öz milliliklərini bu günədək qoruyub saxlaya bilirlər.

1904-cü ildə çap edilmiş S. N. Yujakovun ensiklopediyasında Çar Rusiyası dönəmində Rusiya ərazisində 1.300.000 Kazan tatarlarının, yəni bulqarların yaşadığı qeyd edilir. 1920-ci ildə Bulqar adı dəyişdirilərək Tatarıstan, bulqar dili isə tatar dili ilə əvəz olunur. 1929-cu ildə Stalin rejimi bulqarların ərəb əlifbasından istifadəsini və IX əsrdən XX əsrədək olan bütün bulqar ədəbiyyatını qadağan edir. 1920-ci ildə Tatar kommunistləri Mirsultan Qaliyev ilə Q.İbrahimovun cəhdləri nəticəsində "Tataristan cumhuriyyəti" yaradılır. SSRİ dönəmində bütün Bulqar partiyaları, yayım mərkəzləri, qəzet və jurnalları, bayramları, tarixi, ədəbiyyatı qadağan edilir. 1923-cü ildə Volqa Müsəlman Bulqar Məclisi ləğv olunur və məclisin binası ilə

kitabxanası əllərindən alınır. Yerli oğuz dili qadağan edilərək rus və qıpçaq dilləri rəsmiləşdirilir.

**X yarpaq**

## Kür Şad: İlk və son qəhrəman

...Tanrı dağları qəmə batmışdı. Çünki bəşəriyyətin ilk və sonuncu qəhrəmanının ölümünü seyr edirdi. Bir az sonra düşmən çinlinin qılıncı havaya qalxacaq və Kür Şad dünyada insana verilən sonuncu nemət olan ölüm səadətinə qovuşacaqdır.

552-il il idi. Aşina soyundan olan **Bumın** xaqan juan-juanları məğlub edərək Göktürk xaqanlığının əsasını qoyur. Özünü El-Xaqan adlandıran Bumın **Ötükən**i dövlətə paytaxt seçir və ölkənin qərb topaqlarının idarəçiliyini qardaşı **İstəmi**yə tapşırır. Bumının vəfatından sonra hakimiyyətə oğlu **Kolo** gəlir, fəqət bir il sonra onun ölümündən sonra digər bir oğlu **Muğan** imperator mövqeyinə yiyələnir.

Qərb torpaqlarının hakimi olan İstəmi Altayın qərbini, İssıkgöl və Tanrı dağlarınadək olan əraziləri, həmçinin Xarəzm, Daşkənd vilayətlərini ələ keçirərək Bizans, Sasani və Eftalitlərə meydan oxumağa başlayır.

572-ci ildə cəsur xaqan Muğanın ölümündən sonra (bu dövrdə Göktürk xaqanlığının ərazisi 10,5 milyon kv.km idi.) qardaşı **Tapo** hakimiyyətə gəlir. Tapo sahib olduğu Şərq xaqanlığını iki yerə bölərək Şərqə hakimliyi İşbaraya, Qərbə hakimliyi isə qardaşı Xotana tapşırır. Qərb xaqanlığında İstəminin ölümündən sonra hakimiyyətə Muğanın oğlu **Tardu** gəlir. Fəqət Tardu əsas hakimiyyət olan Şərq xaqanı olmaq istəyirdi, lakin onun anası türk olmadığından imperator olmağa layiq görülmür. Ona görə də, Taponun ölümündən sonra hakimiyyət Tarduya yox, yuxarıda adını çəkdiyimiz **İşbara**ya verilir. Buna görə də, Tardu düşmən çinlilərlə əlbir olaraq İşbaraya qarşı qiyam qaldırır və az

sonra özünü müstəqil elan edərək Qərbi Göytürk xaqanlığının əsasını qoyur və bununla da, imperatorluq parçalanmış olur. Dövlətin zəifləməsi ilə bərabər aciz qalan İşbara tədricən çinlilərin təsiri altına düşməyə başlayır. Ondan sonrakı xaqanlar Yəhu, Tülan, Kiminin dövründə də vəziyyət olduğu kimi qalır. Kür Şadın babası **Şipi**nin dövründə 609-cu ildə Göktürklər bir qədər qüvvətlənərək Qərbdə Tibetə, Şərqdə Amura qədər olan ərazilərə sahiblənməyə başladılar. Şipinin ölümündən (619) sonra oğlu Çuluq hakimiyyətə gəlir və fəlakət bununla başlamış olur.

Belə ki, **Çuluq** (Çuğra) xaqan çinli arvadı **İçinq**in istəyini (İçinq Göytürklərin gücündən istifadə edərək Çində hakimiyyətə öz sülaləsini gətirməyə çalışırdı.) yerinə yetirmədiyindən həmin qadın tərəfindən zəhərləndirilərək öldürülür. İmperatorluğun başına Çuluğun qardaşı **Qara Kiəli** (621-630) keçir.

İradəsiz şəxsiyyət olan Qara xaqan türk adətinə uyğun olaraq qardaşının arvadı İçinq ilə evlənir və bunun nəticəsində imperatorluğu çinli qadın idarə etməyə başlayır. Qara xaqanın dövründə Ötükəndə çinlilər yüksək mövqelər tutmağa başlayır və çinlilərin günü-gündən artan qüdrətinin qarşısında türklər qıtlıqdan əziyyət çəkməyə başlayırlar. Eyni zamanda 627-ci ildə uyğurlar, sırtarduş bayurku, 9 oğuz türkləri imperatorluğa qarşı qiyam qaldırırlar. Çinə edilən bir sıra yürüşlər də faydasız olur. Bu fürsətin bir daha ələ düşməyəcəyini bilən çinlilər 630-cu ildə Şərq xaqanlığına hücum edərək Qara xaqan başda olmaqla 100 minə yaxın türkü əsir alırlar. Qara Xaqan əsirliyinin 4-cü ilində çəkdiyi vicdan əzabı nəticəsində dünyasını dəyişir. (634). Çinlilər onun yerinə türklərin qəbul etmədiyi **Sirpa** xaqanı hakimiyyətə gətirirlər. Qara xaqanın ölümündən sonra bir çox türk bəyləri əsirliklərini özlərinə sığışdırmayaraq intihar edirlər.

Göktürk dövlətini **Xaqan** adlanan imperator idarə edirdi. Bəzən imperiya daxilində 2 və ya 4 xaqan birdən hökmdarlıq edə bilirdi. Fəqət

xaqanlardan biri əsas hökmdar sayılırdı, digərləri ondan asılı vəziyyətdə idilər. Xaqandan sonra ikinci böyük rütbə **yabqu** və **şad**lar hesab olunurdular. Xaqanın hökmdar olmayan uşaqları **tigin** ləqəbini daşıyırdılar. Digər yüksək rütbəli məmurlar tarxan, buysuk, şadapıt adlanırdılar və hamısına **bəy** deyə müraciət olunurdu. Bu bölgülər çox vaxt irsi xarakter daşıyırdı. Xaqan öləndən sonra onun yerinə qardaşı, oğlu və ya əmisi keçirdi.

**Kür Şad-**Çuluq xaqanın kiçik oğlu olan bu tigin əmisi **Kiəli** xaqan olduqdan sonra **Şad** rütbəsinə layiq görülür. Ögey anası olan İçinqin türk elinin başına gətirdiyi fəlakət onun bir neçə dəfə əmisi ilə münasibətlərinin kəskinləşməsinə səbəb olmuşdu. Kür Şadın döyüşlərdə göstərdiyi igidliklər onun nüfuzunun artmasına bais olmuş, təkcə Göktürk elində deyil, düşmən Çin imperiyasında da şöhrətindən danışılmağa başlanılmışdı. Əsarət illərində digər türk bəylərinin bir qismi intihar etsə də, Kür Şad xalq üçün yaşamanın daha əhəmiyyətli olacağını düşünürdü. Onun cəsarətinə bələd olan çinlilər imperatorluğun saray mühafizəsinin qorunmasına rəhbərlik edən bir vəzifəyə qoymuşdular. Kür Şad Çin ordusunda xidmət etməyə başlasa da, bir gün bu qılıncla çinliləri məhv edəcəyi anı gözləyirdi. Qara xaqanın ölümü, əsir türklərin vəziyyətinin ağırlaşması Kür Şada təcili planlar qurmağa məcbur edirdi.

Bu dövrdə Çinə Tanq sülaləsinin ikinci imperatoru **Li Şih Min** (Tay-Tsunq, 627-649) hökmdarlıq edirdi. Onun zamanında 50 milyonluq əhalisi olan Çin qüdrətli bir imperiya vəziyyətində idi. Kür Şad (çincə **Kie-Şe**) sarayda yüksək bir mövqe tutduğundan Çin ordusu və imperator haqqında gizli bilgilərə sahib idi.

Çin imperatoru Tay-Tsunq bəzi gecələr təkbaşına paytaxt **Çanan** şəhərini dolaşırdı. Bunu bilən Kür Şad 39 yoldaşı ilə birlikdə gizli plan quraraq imperatoru əsir almağı qərarlaşdırırlar. Plana görə, əgər azadlıq mübarizəsi qələbə ilə nəticələnərsə, Kür Şad siyasətdən

çəkilərək əsla xaqan olmayacaq, onun qardaşı **Tulu**nun oğlu hökmdar elan ediləcəkdir. Çünki onsuz da könlündən xaqanlıq keçməyən (Əslində bu mövqe üçün ondan layiqlisi yox idi.) Kür Şadın fikrincə, mübarizə tamamilə milli xarakter daşımalıdır və heç bir türkün qəlbində buna zərrə qədər də şübhə olmamalıdır. Plan yalnız 39 nəfər igid türkə bildirilmişdi, çünki çox adamın bilməsi qiyamın çinlilər tərəfindən sezilə biləcəyinə səbəb olardı.

Nəhayət, 639-cu ilin, ümumiyyətlə bəşər tarixinin ilk və son gününün qəhrəmanlıq saatı yaxınlaşdı. 40 nəfər cəsur türk axşamın düşməsini gözləyirdi. Fəqət tale yazılmışdı. Heç gözlənilmədən güclü leysan yağmağa başlayır və bunun nəticəsində imperator sarayı tərk etmir. Hərəkatı təxirə salmağın risk olduğunu düşünən Kür Şad (Çünki plan aşkar olsaydı, minlərlə türk qılıncdan keçiriləcəkdi.) inanılmaz bir addım ataraq 40 nəfərlik bir dəstəylə 100 min nəfərlik qoşunla qorunan Çin sarayına hücum etməyi əmr edir. Məqsəd silah gücünə imperatoru əsir alaraq Ötükənə doğru irəliləmək idi. Yüzlərlə Çin əsgəri 40 əsilzadənin sərrast oxları və qılncları ilə öldürüldü. Fəqət Çin ordusunun çoxluğunu nəzərə alan Kür Şad saray axuruna hücum edərək imperatorluğun atlarını ələ keçirərək vətənə doğru irəliləməyi əmr edir.Atlara minən dəstə paytaxtı tərk etsələr də, Çin ordusu onları təqib etməkdə idi.

...Qarşıda **Vey** çayı görünürdü. Onu keçdikləri an azadlığa qovuşacaqdılar. Fəqət axşamdan yağan yağmur çayın körpüsünü dağıtmışdı. Sonadək mübarizə aparmaqdan başqa çarə qalmamışdı. Vey çayının sahilində sağ qalan dəstə üzvlərinin hamısı şəhid olmuş, yalnız Kür Şad qalmışdı. O, ulu babaları Meteni, Bumını, İstəmini düşünərək bir yandan da Bozqurd andını təkrarlayırdı: “Göy girsin, Qızıl çıxsın. Tanrı türkü qorusun!” Nəhayət,düşmən çinlinin qılıncı havaya qalxır və Tanrı dağlarının acı naləsi eşidilir.

Həqiqətən, Kür Şad bəşər tarixinin ilk və son qəhrəmanıdır. Belə ki, o mücadiləsində heç bir zaman şəxsi mənfəət güdməyib, digər qəhrəmanlar kimi nə ölkələr zəbt edib, nə yüksək rütbələrə can atıb, nə də ki, xalqa zənginlik, var-dövlət gətirib. Onun yalnız bir idealı var idi: Ötükəndə qurdbaşlı bayrağı dalğalandırsın. Kür Şadın bu mücadiləsi nəticəsində çinlilər əsir türkləri sərhəd bölgələrə sıxışdırdılar və türk tarixində yeganə əsarət dövrü olan 50 ilə yaxın müddətdən sonra İkinci Göytürk dövləti quruldu.

**XI yarpaq**

## Kurqanlardan gələn işıq

**"Spitamen İskəndərlə döyüşən xalq sərkərdəsidir" Vasili Yan**

Sitatı Vasili Yandan əbəs yerə gətirmədik. Çünki "Kurqanlardan gələn işıq" tarixi romanı ilə oxucularında Spitamenə qarşı sevgi və qibtə yaranmasının səbəbkarıdır. Bir çoxları kimi Spitamenin kimliyinə biz də ilk dəfə olaraq həmin əsərdə rast gəldik. Roman 1932-ci ildə qələmə alınsa da, 1959-cu ildə təkmilləşdirilərək yenidən çap olunur və müxtəlif dünya dillərinə tərcümə edilir. Vasili Yan Azərbaycan oxucusuna "Çingiz xan", "Batı", "Finikiya gəmisi" kitabları ilə tanınmasına baxmayaraq, fikrimizcə, "Kurqanlardan gələn işıq" romanı onu oxucuların gözündə daha da yüksəldib. Ümumilikdə, əsər Makedoniyalı Aleksandrın Şərqə yürüşünü əhatə edir və bununla əlaqədar bir sıra şərq xalqlarının, xüsusilə iskitlərlə soğdların həyatla mübarizəsindən, bozqırlara olan sevgisindən və igid Spitamendən bəhs edir.

Türk xalqlarının daima qəhrəmanlara ehtiyacı vardır. Xalqı əsarət zəncirindən qıraraq, yatmış azadlıq duyğularını oyadaraq Vətən uğrunda savaşa istiqamətləndirəcək sərkərdələr ətrafında sıx birləşmək türk boyları üçün xarakterik xüsusiyyətlərdəndir. Təsadüfi deyil ki,

hazırda Azərbaycan və digər türk dövlətlərində bu cür sərkərdələrin və mənəvi liderlərin olmaması türk xalqlarının əvvəlki əzəmət və vüqarlarını itirməsinə səbəb olub.

Bu baxımdan özbək türklərində  Sirak, Tomiris və Spitamen sonsuz sevgi və sayğı ilə anılmaqdadır. Çünki bu üç şəxs müxtəlif dövrlərin üç imperatoru ilə qarşı-qarşıya gəliblər, onlardan biri farsları aldadaraq Vətənini xilas edib (Sirak), digəri fars hökmdarını qan tuluğuna salaraq öldürüb, sonuncusu isə qədim dünyanın əvəzedilməz imperatoruna qarşı sonadək mübarizə aparıb. Məhz buna görə də, "Kurqanlardan gələn işıq"  Spitamenin  tanıtdırılması üçün qiymətli mənbədir.

Böyük İskəndərin Türküstana  səfəri miladdan öncə 329-327-ci illəri əhatə edir. Hadisələrin təsviri miladi II əsrdə yaşamış Flavi Arrianın **"İskəndərin hərbi yürüşləri"** əsərində geniş şəkildə qeyd edilir. Miladdan öncə 334-cü ildən etibarən Şərqə yürüş planını həyata keçirən İskəndər Kiçik Asiya, Suriya, Finikiya, Misir və İranı zəbt edərək 329-cu ilin baharında Hindquş dağlarını aşaraq Türküstana doğru irəliləyir.

İskəndər bu ərazilərə yürüş etdiyi dövrdə artıq Türküstanda VI-IV yüzilliklərdə Baktriana (Baqodəran), Margiana, Xarəzm, Soqdiana, Parfiya kimi dövlətlər mövcud idi və Türküstanda Saqa mədəniyyəti hökm sürürdü. Məhz bunun nəticəsində Türküstanda Əhəmənilərə qarşı geniş azadlıq hərəkat baş qaldırır. Bütün bu amillər Türküstan xalqlarının yeni düşmənə asanlıqla tabe olmayacaqlarını və hətta bir sıra hallarda onları məğlub edəcəklərini göstərir. Belə də olur...

Böyük Aleksandrın qoşunu Amudərya çayını keçərək Marakanda (Səmərqənd) boyunca hərəkət edir və qızğın döyüşdən sonra şəhəri mühasirəyə alır. Orada qarnizon saxladıqdan sonra Fərqanə vadisinə doğru irəliləyir. Hisar dağ silsiləsinin cənub yamacında yerləşən Soğd qalasını ələ keçirmək üçün yunanlar hücuma keçirlər. Fəqət qala müdafiəçiləri ölənədək mübarizə aparırlar və Aleksandra bildirirlər ki, "əgər Aleksandr bizim qalanı keçmək istəyirsə, qoy, əvvəlcə özü üçün

cəsur sərkərdələr əldə etsin". Xalqın çağırışı Aleksandrın qüruruna toxunur və sərkərdələrinə kim birinci olaraq qalaya qalxarsa, onu mükafatlandıracağını bildirir. Beləliklə, cəngavərlərin bir qrupu böyük çətinliklə şaquli uçuruma doğru qalxırlar və arxadan müdafiəçilərə hücum edirlər. Bununla da, qala təslim olur və çoxlu sayda insan əsir düşür. Əsirlər arasında Spitamenin silahdaşı Aksiartın Roksana adlı valehedici qızı da vardı. Roksanaya aşiq olan Aleksandr digər əsirlər kimi onu incitmir və hətta onunla evlənir. Bu evlilikdən sonra Aleksandr yerli aristokratiya üzərində nüfuz qazanır və bununla da soğdluların üsyanı yatırılır. Fəqət cəsur Spitamen və tərəfdarları sonadək mübarizəni davam etdirirlər. Vasili Yan Spitamenin atasının soğd, anasının isə iskit tayfalarından olan toxar kimi qeyd edir. Lakin onun cəldliklə ata minişinə, cəsarətinə, daima azad təbiətə malik olmasına görə onun daha çox iskitlərə bənzəməsini xüsusilə vurğulayır. Təsadüfi deyil ki, iki yüz illik fars imperiyasını çökdürən "qoşabuynuzlu" düşmənin qarşısını məhz iskitlər alır. Bu barədə Arian yazır: "İskəndər gördü ki, iskitlər çaydan çəkinmirlər və hətta oradan ox da atırlar (çay enli deyildi), həm də barbar adətincə lovğalanaraq qışqırıqla onu hirsləndirirdilər ki, iskitlərlə o, pəncələşməyi bacarmaz, o, iskitlərlə Asiya barbarları arasında necə fərq olduğunu bilməlidir....İskitlər ona rahatlıq vermirdilər; İskəndər çayın o tayına keçməyə çalışırdı, şeypurlar çalındı, İskəndər özü qabağa düşdü, qoşunu yerbəyer etdi, oxatanları və sapandçıları ön cərgəyə sahilə çıxartdı, onlara ox-yayla və daşla iskitlərin qarşısını saxlamaq tapşırığı verildi ki, bütün atlı qoşun sahilə çıxa bilsin… Lakin iskitlər öz atlı dəstələrilə onları qarşıladı, mühasirəyə aldı və çoxlarını məğlubiyyətə uğratdı"

II əsrdə yaşamış Arrian sələflərindən fərqli olaraq İskəndəri mifoloji qəhrəman çərçivəsində araşdırmayıb, arxiv sənədlərini, gündəlikləri tədqiq edərək hadisələri daha real şəkildə əks etdirib. Bu baxımdan onun Spitameni iskit adlandırması təsadüfi deyildir. Məhz bu noqteyi-

nəzərdən Arrianın qənaəti daha çox gerçəklə çuğlaşır: "İskit sərkərdəsi Spitamen əlavə olaraq, "iskit atlılarından 600 nəfər də götürüb, hücuma keçmək istəyən makedoniyalılarla vuruşmaq qərarına gəldi. İskit çölü yaxınlığındakı düzənlikdə gözlədi, hücuma keçmədi, amma özü də düşmənin hücumunu gözləmək istəmədi, onun atlıları piyada qoşunun ətrafında ancaq çapdı və ona ox atdılar. Çətinlik çəkmədən əylənmiş Farnux döyüşçülərini sıxışdırıb aradan çıxartdılar... Çox adam oxla yaralandı, ölənlər də oldu; nəticə etibarilə qoşun Politimet çayına tərəf meşəliyə çəkildi ki, onları barbarların oxu tutmasın, bu isə piyada qoşununa daha çox kömək elədi ".

Artıq igid Spitamenin sayəsində iskitlər qələbəyə xeyli yaxınlaşırlar. Fəqət sərkərdəliyi ilə yanaşı hərbi hiylə işlətməyi bacaran İskəndər atası müdrik Filippin kəlamını xatırlayır: "Hücumla alına bilməyən qala divarlarını qızıl yüklənmiş eşşək asanlıqla aşıb keçə bilər". Belə də olur. Xarəzmli və Baktriyalı əyanlar üsyançılara xəyanət edərək İskəndərin tərəfinə keçirlər. Digərlərindən fərqli olaraq Arrian bu olayı işıqlandıraraq, İskit başçılarının İskəndərlə müqavilə bağlayaraq xalqa xəyanət etmələrini xüsusilə qeyd edir: "Tezliklə olmuş hadisə ilə əlaqədar İskit hökmdarlığından İskəndərin hüzuruna nümayəndə gəldi ki, bütünlükdə iskit xalqı yox, quldur və soyğunçulardan ibarət bir dəstə bu işi etmişdir. İskəndər nə əmr etsə, hökmdar yerinə yetirməyə hazırdır. İskəndər nəzakətlə cavab verib dedi: ona inanmağına inanır, ancaq ona belə gəlir ki, düşmən üzərinə hücumu dayandırmasa yaxşıdır, məhz indiki halda bu, yersiz olardı"

Beləliklə, qızıl yüklü eşşəklər soğd və iskit əyanlarının vətənlərini satmasına səbəb olur, bundan fərqli olaraq Spitamen və azad iskit xalqı sonadək mübarizəni davam etdirirlər. Miladdan öncə 328-ci ilin payızında İskəndərlə Spitamen arasınada həlledici döyüş baş verir və Spitamen məğlub olaraq səhraya doğru geri çəkilir. Tarixçi Quint Curtius Spitamenin öldürülməsini onun qadını ilə əlaqələndirir və bu barədə yazır: "Spitamen öz arvadını ehtirasla sevirdi, onu özü ilə hər

yerə aparırdı. Ziyafətlərin birində qadın ərinin məst olduğunu və yuxuya qərq olduğunu görüb paltarları altında gizlətdiyi qılıncını çıxardaraq Spitamenin başını kəsir və əynindəki qanlı paltarını dəyişməyərək Makedoniya düşərgəsinə gedir və kəlləni İskəndərə verir".

Doğrudur, bu mübarizənin sonunda Spitamen həlak olsa da, Vasili Yan qəhrəmanının azadlıq uğrunda apardığı savaşını diqqətə alaraq oxucuları üçün onu "yaşadır" və "zəncirlənmiş adamların dostu", "yoxsul, lakin, azad" Spitamenin mübarizəsinin bitmədiyini qeyd edir: "Ölənin yerinə xalqımızın azadlığı uğrunda bizə yeni-yeni mübarizlər qoşulacaqdır. İndi həm yunanlar, həm də satqın soğd əyanları əlbir olub məni axtarırlar və onlar buradan cəhənnəm olmayınca mən gərək elə bir yerə gedim ki, orada məni tanımasınlar..."

**XII yarpaq**

## Şərqin ən sevgili sultanı Səlahəddin Əyyubi

Bu gün Tikrit şəhərinin adı çəkildikdə ilk ağla gələn mərhum diktator Səddam Hüseyn olsa da, ondan fərqli olaraq 9 əsr bundan əvvəl burada doğulan Səlahəddin Əyyubi nəinki acgözlüklə islam torpaqlarına göz dikən Avropa səlibçilərinə qarşı mübarizə apardı, həmçinin müqəddəs Qüdsü də azad edərək, onları geri qayıtmağa məcbur etdi. Bu baxımdan Səlahəddin Əyyubi kimdir sualına ikili cavab mümkündür: Qərb üçün Dantenin cəhənnəmində yerləşən xristian düşməni bir kafir, şərq üçün isə Qüdsü xaçpərəstlərdən azad edən bir dahi.

Hazırda türk tarixinin ən az öyrənilmiş bölmələrindən birinin də Əyyub oğulları dövləti olduğunu desək, şübhəsiz yanılmarıq. Bu baxımdan hazırda Türkiyə Cumhuriyyətində bir sıra şəxsiyyətlərimizi "oğurlamış" kürdlər Zərdüşt və Manidən sonra Səlahəddini də "kürdləşdirmə prosesi"nə əl atıblar.

**Haşiyə1-** Eks-prezident Əbülfəz Elçibəy xatirələrində qeyd edir ki, Misirdə tərcüməçi işləyərkən Qahirə universitetinin tarix fakültəsində oxuyan bir tələbə onun azərbaycanlı olduğunu bildikdə, "Siz Səlahəddin Əyyubinin vətənindənsiniz" deyə müraciət edir. Səhərisi gün həmin tələbə Səlahəddin haqqında olan bir mənbə gətirərək, Səlahəddinə verilmiş sualın yer aldığı vərəqi göstərir: -Deyirlər ki, siz kürdsünüz. Bu doğrudurmu? –Sultan: Xeyr! Biz Azərbaycandanıq. Əmim Şirkuh deyirdi ki, biz əz-Zib (ərəbcə Qurd) tayfasındanıq.

Göründüyü kimi, Səlahəddinin milli mənsubiyyət problemi hələ onun sağlığındaca başlayıb. Bu baxımdan Əyyubilərin nəsil şəcərəsinə nəzər salmağa çalışacağıq.

Sultanlığın banisi hesab edilən Əyyub bin Sadi bin Mərvan İrəvanın Dvin bölgəsinin kəndlərinin birində doğulub. Onun nəsli Dvinlə yanaşı Xoy, Urmiya, Zəngəzur, Naxçıvan, Kərkük və Göyçə kimi digər türk torpaqlarında yaşamış Gök Börü, Qara Börü, Boz Börü-yəni Qurdlar tayfası ilə bağlıdır. Əyyub ilk əvvəl Şəddadilərin, sonra isə İraq səlcuqlularının qoşun valisi Bəhruzun yanında xidmət göstərir. Bacarığına və xidmətinə görə Tikrit şəhəri Əyyuba iqta olaraq verilir. Bir müddətdən sonra Mosul atabəyi İmadəddin Zənginin xidmətinə daxil olur, Şamın tutulmasında xidmət göstərdiyinə görə, Bəəlbəkə vali təyin olunur. Zənginin ölümündən sonra Əyyub Börililərin xidmətində çalışır və Şam valiliyinə qədər yüksəlir. İmadəddinin oğlu Nurəddin Zənginin xidmətində dayanan Əyyubun qardaşı Şirkuh isə Humusu iqta olaraq alır. Nurəddin Zəngi Şirkuhu Fatimilərlə savaşa göndərdiyində gənclik illərini Şam və Bəəlbəkdə keçirən Səlahəddin (əsl adı Yusif) də ona qoşulur. Müharibədə Fatimi vəziri Şaver edam edildiyinə görə hakimiyyətə Şirkuh gəlir, bir həftə sonra onun ölümündən sonra isə 26 mart 1169-da Səlahəddin vəzirliyə, ardınca hökmdarlığa yiyələnir. Beləliklə, Səlahəddin (1138- 4 Mart 1193) 1171-ci ildə Misir hakimi, 1175-də isə sultan mövqeyinə yiyələnir. Bununla da,

Misir-Suriya ərazisində yeni bir müsəlman-türk dövləti olan Əyyubilərin (1174-1524) əsası qoyulur.

**Haşiyə2-** Tarixdə bir sıra xalqlar mövcuddur ki, dövlətçilik ənənələri olmadığından "dövlət" və "sərkərdə" arayışına çıxaraq qonşu xalqların tarixindən nə isə yağmalamağa çalışır. Vaxtilə türk bilgini Bahaəddin Ögəl acı təəssüflə qeyd edirdi ki, türk tarixi və mədəniyyəti yağmaya uğramış bir mal kimidir, hər önünə gələn ondan bir parça qopararaq özlərinə calayırlar. Təbii ki, bu işdə tarix sahiblərinin də etinasızlığı önəmli rol oynamaqdadır. Çünki Sovet dövründə Midiya (Maday) tarixinə sahib çıxmamağımız nəticəsində hazırda kürdlər özlərini madayların (medlərin) varisi adlandırırlar. Ona görə də bu gün türk xalqları Səlahəddinə sahib çıxmalı, onun milli kimliyinin dünyaya tanıtdırılması üçün ciddi addımlar atmalıdır. Bu baxımdan onun türklüyünü isbatlayan bir sıra amilləri nəzərinizə çatdırırıq:

- Dövrün şairlərindən Sənaülmülk Hələbin alınmasından sonra yazdığı mədhiyyəsinin bir beytində qeyd edir: "Ərəb xalqı tüklərin dövləti ilə ucaldı. Əhli-səlib Əyyubun oğlu tərəfindən pərişan edildi".
- İbn Xəlliqan "Vəfayat əl-ayan" ("Görkəmli adamların ölüm tarixi") adlı əsərində qeyd edir: " Şirkuh demişdir ki, bizim nəsəbimiz Gök Böridir".
- Dövlətin əhalisi əsasən ərəblərdən ibarət olsa da, ordu və idarəçi zümrə türklərdən təşkil olunurdu.
- Hakim ailənin isimləri qədim türk adlarıdır. Səlahəddinin qardaşlarının adları Turanşah, Tuğtəkin və Börü olub.
- Türk hakimiyyətinin simvollarından olan mehtərliyə xüsusi önəm verilirdi. Səlahəddin sarayın seçilmiş cariyələrindən birini saray məmurlarından olan mehtərbaşıya ərə verib.

- Dövlət idarəçiliyi Qaraxanlı, Qəznəli və Səlcuq oğulları ilə eynilik təşkil edirdi. Ali hakimiyyət sultana məxsus idi, onun yanında məşvərət qrupu və divan fəaliyyət göstərirdi. Eyni zamanda haciblik, silahdarlıq, əmiraxurluq, davadarlık, taşdarlıq, çavuşluq kimi saray idarəçiliyi bölgüləri vardı. Ordunun əsas təməlini tavaşi adlanan türk məmlükləri təşkil edirdi. Qoşun hissələri aid olduğu sərkərdələrin adına uyğun olaraq əl-nuriyyə, əl-əsədiyyə, əl-nəcmiyyə, əl-salahiyyə kimi adlandırılırdı. Bayraqları açıq sarı rəngdə idi və üzərində türk gələnəklərinə uyğun olaraq qartal şəkli vardı.

Göründüyü kimi, bu və ya digər əlamətlər Əyyub oğulları dövlətinin türklərə məxsusluğunu göstərsə də, sultanlığın yerləşdiyi coğrafi mövqe onun ərəb dövləti olması fikrinin də yaranmasına səbəb olub. Təbii ki, Qüdsü xaçpərəstlərdən azad etdiyinə görə, Səlahəddinə sevgi o dərəcədə artıb ki, bütün müsəlmanlar onu sahiblənməyə çalışıblar. Amma tarix istəyə yox, faktlara görə yazılır.

Səlahəddin gənc vaxtlarından dini tədris aldığından islam dininin yayılmasına xüsusi önəm verirdi. Onun dövründə Şam mədrəsələrində 600-ə yaxın fəqih dərs deyirdi. Əyyub oğulları sünni məzhəbli olduqlarından sultan Fatimilər dövlətindən qalma şiə ünsürlərini qadağan edir. Sarayında alimlərin yığıncağını keçirən Səlahəddin haqqında müasirləri yüksək fikirdə olublar. İmadəddin əl-Katib yazır: "Sultan ilə söhbət edən hər hansı bir şəxs hökmdarla deyil, bir dostu ilə danışdığını zənn edər. Anlayışlı, dininə bağlı, pak, xətaları əfv edən, hirslənməyən bir şəxsdir. Donuq surətli olmaz, həmişə təbəssümlü görünərdi. Bir şey istəyəni əliboş qaytarmazdı. Hər kəsə incə davranar, kimsəyə kobud hərəkətlər etməzdi. Söz verdiyi zaman yerinə yetirirdi". Digər bir mütəfəkkir Əbdüllətif əl-Bağdadi yazır: "Səlahəddin Əyyubini heybətli insan olaraq gördüm. Sözləri qəlblərə təsir ediciydi. Yanına ilk gəldiyim gün məclisinin alimlərlə dolu olduğunu gördüm. Hərəsi müxtəlif elmlərdən danışırdı. Sultanın yaxınları onu özlərinə

örnək götürür, yaxşılıqda yarışırdılar. Müsəlman da, kafir də sultanı çox sevirdi. Onun ölümüylə insanlar həqiqi bir atanı itirdilər. Ölümünə kədərlənməyən bir insan olmadı". Yaxın adamlarına qarşı həddindən artıq mülayim olan Səlahəddinin su istədiyi zaman xidmətçisinin əvvəl çox isti, sonra çox soyuq gətirməsinə qəzəblənməyərək "istədiyimiz kimi su da içə bilməyəcəyik" deyə sakit qarşılaması da qeyd olunur.

Hər şeydən öncə Səlahəddin tarixə vətəninə bağlı sərkərdə kimi düşüb. 1174-1186-cı illərdə Suriya, Şimali Mesopotomiya, Fələstin və Misirdəki bütün müsəlman torpaqlarını öz bayrağı ətrafında birləşdirir. 1183-də Hələbi, ardınca Əlcəzairi ələ keçirir. 1187-ci ilin sentyabrında Beytullah, Asariyə, Zeytundağı zəbt edərək Qüdsə yaxınlaşır.

**Haşiyə3-** İslami qaynaqların verdiyi məlumata görə, hicri 2-ci il, rəcəb ayının 15-də, bazar ertəsi günü, Bəni Salim ibn Ovf məscidində peyğəmbər günorta namazının ikinci rükətindən sonra vəhy mələyinin dediyinə əsasən qibləni Beytül-müqəddəsdən Kəbəyə tərəf çevirir. O zamandan bu məscid Zül-qibləteyn-iki qibləli adlandırılır. Təbii ki, Allahın əmrindən savayı Həzrəti Məhəmmədin qibləni dəyişdirməsi siyasi durumdan da irəli gəlirdi. Lakin qiblənin dəyişdirilməsi Beytül-müqəddəsə olan sevgini müsəlmanların qəlbindən çıxara bilmir. Həmçinin merac hadisəsinin və Həzrəti İsanın yaşamının bu şəhərlə bağlılığı müsəlmanların müqəddəs hesab etmələrinin digər səbəbləridir. İlk dəfə olaraq Xəlifə Ömərin zamanında Qüds müsəlmanların əlinə keçir. Abbasilərin zəifləməsindən sonra Tulun oğullarının, Fatimilərin, Cərrahilərin hakimiyyəti altına düşür. 1099-cu ildə isə xaçlılar şəhəri tutaraq Qüds krallığının əsasını qoyurlar. Bununla da, 88 il müddətində Qüds xaçlıların hökmranlığında qalır.

Bahaüddin bin Şəddad Qüdsün işğalda olduğu müddətdə Səlahəddinin çəkmiş olduğu üzüntünü bu cür anladır: "O, Qüdsə görə, o qədər qəmli idi ki, onun bu qəm və kədərinə dağlar da tab gətirə bilməzdi. O, uşağını itirmiş ana tək çaşqınlıq vəziyyətində idi. Atını bir

yerdən digərinə çaparaq müsəlmanları Qüdsü azad etmək üçün cihada dəvət edirdi. Daima üzüntüdən göz yaşı axıdır, üzüntüdən gözünün nəmi qurumurdu. Akkaya baxdığı zaman isə özünə hakim ola bilmir, xalqına edilən zülm və işgəncələri yada salmaq istəmirdi. Boğazından yemək keçməzdi. Həmişə deyərdi : Qüds və Əqsa məscidi xaçlıların əlində olduğu bir vaxtda mən necə gülüb , əylənə bilərəm, necə istədiyim kimi rahat gülüb, yata bilərəm".

Səlahəddin onun kədərli halından gileylənən din xadiminə "Allahın elçisinin meraca yüksəldiyi məscid xaçlı tapdağı altında ikən mən necə gülüm" deyə cavab verməsi də qeyd olunur.

Nəhayət, fateh 1187-ci il oktyabrın ikisində islam-türk ordusu vasitəsilə Hittin savaşında Qüdsü xaçpərəstlərdən azad edir. Səlahəddinin hərb yoldaşı, tarixçi İmadəddin yazır: "Xaçlıların şərqə gəlmələrindən bu yana müsəlmanlar hələ bu cür qələbə qazanmamışdılar. Digər hökmdarların edə bilmədiyini Allah sultana nəsib etdi".

Qüdsün merac qəndili günü, üstəlik müqəddəs cümə günündə xaçlılardan azad edilməsi, həqiqətən, bu zəfərdə Allahın sultana yardım etməsinin göstərcəsidir. Fəthin ardınca Əqsa məscidinə girən sultan xaçlıların hörmətsizlik etdiyi məscidi özü təmizləyərək, gül yağı ilə yuyur. İlk cümə namazında fəthlə ilgili xütbə oxuyan Zəkiyiddin Əli əl-Kuraşi deyir: "Allah qulları arasında sizi seçməmiş olsaydı, bu fəziləti qazanmazdınız. Necə xoşbəxtsiniz ki, Rəsulullahın möcüzəsi olan Bədr hadisələri, Həzrəti Siddiqin idealları, Həzrəti Ömərin fəthləri, Həzrəti Xalidin hücumları sizinlə yenidən gerçəkləşdi. Allahın rəsulu Məhəmməd sizi ən gözəl təriflərlə öydü. Ona yaxınlaşmaq üçün tökdüyünüz qanları qəbul etdi. Sizə xoşbəxt insanların qərargahı olan cənnəti bəxş elədi".

Səlahəddin vəhşi xaçlılardan fərqli olaraq şəhərdə səlibçilərə qarşı heç bir qətliam törətmir, Qüdsdə qalmaq istəyən qeyri-müsəlmanlara cizyə vermək şərtilə icazə verir. Cizyə verməyib, Qüdsdə qalmaq

istəməyənlər isə 40 gün müddətində ərazini tərk etməli idilər. 7 min əsir 30 min dinara, 3 minə yaxın insan isə təmənnasız azad edilir. Elmə yüksək qiymət verən Səlahəddin sünniliyin dörd məzhəbini əhatə edən mədrəsələr inşa etdirir, əski məscidləri, o cümlədən səlibçilərin saraya çevirdikləri Əqsa məscidini yenidən məscidə çevirir. Əqsanın mehrabını və digər yerlərini mərmər və mozaiklərlə bəzəyir, Qahirə qalasını yenidən inşa etdirir. Qüdsün fəthindən sonra Səlahəddin 1188-də Lazkiye, Cəbələ və Bəsrəni, 1189-cu ilin yanvarında Safed, Kevkeb, Kerek və Şevbek kimi əraziləri azad edir.

Qüdsün azad edilməsi Avropada elə təşviş yaradır ki, hətta papa III Urban şoka düşərək həyatla vidalaşır. Ardınca papa VIII Qriqorinin tələbi ilə Avropanın qüdrətli dövlətləri yenidən xaçlı yürüşünə hazılaşırlar. "Krallar savaşı" adlanan III xaçlı yürüşünün öndərliyində Alman kralı Fridrix Barbarossa, Fransa kralı I Filipp Avqust və İngiltərə kralı Aslanürəkli I Riçard dayanırdı. 1190-cı ildə Fridrixin Kilikiyada Tarsus çayında çimərkən boğulmasından sonra alman xaçlıları geri qayıdır. Qüds fatehi ilə döyüşmək üçün səbrsizlənən Riçard gərəkərsə, müharibə üçün Londonu da sata biləcəyini qeyd edirdi. 1191-ci ilin iyulunda 638 gün davam edən savaşdan sonra Akkanı işğal edən xaçlı qoşunları aralarında qadın və uşaqların da olduğu üç min müsəlmanın boynunu vurdurur və bu işğaldan sonra sonra Fransa kralı geri qayıdır. Meydanda tək qalan Riçard isə Yaffaya daxil olur. Səlahəddinin kəskin müqavimətindən sonra Riçard məğlub olaraq əsir düşsə də, Səlahəddin onu azad edir və bu hərəkəti ilə bütün Avropanı heyrətdə qoyur. 1192-ci il sentyabrın ikisində tərəflər arasında anlaşma imzalanır və Riçard geri qayıdır. Anlaşmaya görə Qüds müsəlmanların əlində qalır, xristianlara həcc üçün Qüdsü ziyarət etmələrinə icazə verilir. Tirdən Yaffaya qədər sahil zolağı səlibçilərə verilir. Riçard Səlahəddinlə savaşında sultanın insaniyyətliyinə heyran olduğunu gizlədə bilməyərək "insanlığı Səlahəddindən öyrəndim"

deyə bildirir. Hətta savaşda xəstələndiyində Səlahəddinin öz həkimini müalicə üçün yanına göndərdiyini heyrətlə qeyd edir.

1193-cü ilin fevralında Səlahəddin xəstələnir və 14 gündən sonra martın 4-də 56 yaşında Şamda vəfat edir. Ölüm yatağında ikən Səlahəddin əmr verir ki, mizrağa kəfən keçirib xalqa göstərərək desinlər: "Ey əhali, şərqin hakimi sultan Səlahəddin ölmək üzrədir. Axirətə ancaq bu bez parçasını apara biləcəkdir. Ona görə də Allaha qulluq etməkdə etinasızlıq göstərməyin". Dövlətin xəzinəsi aşıb-daşsa da, heç vaxt onu mənimsəmədi, bütün ömrü boyu vətəninə xidmət edəcək bir əsgər olduğunu unutmadı. Öldüyü vaxt cibindən bir qızıl, bir-iki gümüş pul çıxır ki, bu pullar məzarının düzəldilməsinə də çatmırdı. Sultan Şamda Mədrəsətül-əziziyyədə dəfn edilir.

Hələ sağlığında ikən Səlahəddin səltənəti oğulları və qardaşı Adil arasında bölüşdürür. Mesopotamiyanı Adilə, Şamı Efdala, Misiri Əzizə, Hələbi isə Zahirə verir. Yəmən qardaşı Turanşahın varisi Tuğtiginin ixtiyarında qalır. Humus əmisi Şirkuhun nəvəsi Mücahidə verilir.

Səlahəddin nəinki şərq dünyasında həmçinin Avropada tanınırdı. XIII-XIV əsrlərdə latınca Səlahəddindən bəhs edən əsərlər yazılır. Ölümündən neçə illər keçsə də, xaçlı düşüncəsi ona olan nifrəti əsrlərcə saxlayır. 1920-ci ildə fransız generalı Qaro Meyselun savaşında Şama gələrək Səlahəddinin qəbrini təpiklədikdən sonra Hittin savaşının qisası kimi nifrətlə bu sözləri deyir: " Ey, Səlahəddin. Xaçlı səfəri indi başa çatdı. Budur biz qayıtdıq".

Bu gün qərbdə Səlahəddinə qarşı ilginin artmasının səbəbi hazırda eyni istiqamətlə davam edən xaç yürüşləridir. Zülm və qan içində boğulan şərqin türklərə, xüsusilə Səlahəddinə ehtiyacları vardır. Bu gün qərbin qabaqcıl bilginləri bütün xaç yürüşləri kimi hazırkı xaç yürüşünün də hər iki qütb üçün fəlakətlər törədəcəyinin fərqindədirlər. Bu baxımdan Səlahəddinin hakimiyyəti, insaniyyətliyi, mənəviyyatı insanlığa ibrət dərsi olmalıdır. Qərb feodallarının əyyaşlıq içərisində süründüyü bir

zamanda Səlahəddinin sadə bir həyat tərzi keçirməsi, dinə, mənəviyyata üstünlük verməsi onlar üçün dərkolunmaz idi. Bu baxımdan Səlahəddin yenidən doğulmalıdır.

**XIII yarpaq**

## "Tanrı uludur" və ya türkcə azanın tarixi

Türkiyə Cumhuriyyəti tarixində 1932-1950-ci illər islam dinində görünməmiş bir yeniliyi ehtiva edir. Çünki bu 18 illik müddətdə ölkə ərazisindəki bütün məscidlərdə türkcə azan oxunulurdu. On üç əsr ərzində islamın yayıldığı bütün ərazilərdə "Allahu Əkbər"lə başlanan azan Türkiyədə "Tanrı uludur" sözləri ilə əvəzlənmişdi.

Osmanlı imperatorluğundan qalma bir sıra adətləri (papaq və geyim inqilabı,türbələrin bağlanması,bir sıra titulların ləğvi və s.) ləğv edən Mustafa Kamal islam dinində bir sıra islahatlar həyata keçirtdi. Ən önəmli islahat müqəddəs Quranın türkcəyə tərcüməsi idi. Artıq kəndlisindən ziyalısına qədər hər kəs İlahi Oxunu başa düşəcəkdi. Quranın tərcüməsi ilə yanaşı məscidlərdə oxunulan kütləvi duaların mətninin və azanın da türkcəyə çevrilməsi məsələsi ortaya çıxdı.

1931-ci ilin dekabrında Atatürk içərisində dövrün tanınmış hafizlərindən olan Hafiz Burhan, Sadettin Kaynak, Hafiz Nurinin də olduğu 9 nəfərdən ibarət bir qrupla Dolmabahçe sarayında azan və xütbələrin türkcə tərcüməsi məsələlərini müzakirə edir. Müxtəlif mətnlər içərisindən aşağıdakı tərcümə daha düzgün hesab edilərək qəbul edilir:

**"Tanrı uludur;**

**Şüphesiz bilirim, bildiririm:**

**Tanrıdan başka yoktur tapacak,**

**Şüphesiz bilirim, bildiririm**

**Tanrının elçisidir Muhammed**

**Haydin namaza, haydin felaha**

**Namaz uykudan hayırlıdır."**

Atatürk ilk olaraq türkcə azanı Süleymaniyyə məscidinin baş imamı Hafiz Kamaldan dinləmiş və təqdir edərək bu qərarı vermişdi. Tərcümə edilmiş Quran ilk dəfə 22 yanvar 1932-ci ildə Yerebatan camesində Hafiz Yaşar Okur tərəfindən oxunuldu. Yanvarın 30-da isə Hafiz Rifat Fatih məscidində ilk dəfə olaraq türkcə azanı səsləndirdi. Həmin il fevralın 3-nə düşən Qədr gecəsində Ayasofiya məscidində də türkcə Quran oxunuldu, təkbir deyildi. İyulun 18-də Diyanət İşləri Rəyasəti 636 saylı qərarla azan və iqamənin türkcə oxunulması barədə qərar qəbul etdi və tərcümə mətni Evkaf müdirliklərinə göndərildi. 4 fevral 1933-cü ildə müftiliklərə azanın türkcə oxunulması və bu qaydalara riayət etməyənlərin cəzalandırılması barədə göstəriş verildi.

Azanın türkcə verilməsindən böyük sevinc duyan Ziya Gökalp hisslərini bu şəkildə ifadə etmişdi:

**Bir ölkə ki,camesində türkcə azan oxunur,**

**Köylü anlar mənasını namazdakı duanın**

**Bir ölkə ki,məktəbində türkcə Quran oxunur,**

**Kiçik,böyük hər kəs bilir,buyruğunu Xudanın.**

**Ey Türk oğlu,iştə budur sənin Vətənin!**

Lakin bir qism araşdırmaçılara görə, türkcə azanın oxunulmasına hələ XIX əsrin sonlarında bir sıra müəzzinlər tərəfindən başlanılıb. Belə ki, 1885-ci ildə İstanbulda səfərdə olan Macar xalq ədəbiyyatşünası İqnaz Kunoş həmin ildə yazdığı kitabında qeyd edir: "...Müəzzinlər qiblə

tərəfə dönüb, əllərini üzlərinə örtüb həzin-həzin azan oxumağa başladılar: Yoxdur tapacaq, çalabdır ancaq". Burada maraqlı olan cəhət əski türkcədə "Tanrı" anlayışını ifadə edən "Çələb" sözünün işlənməsidir.

Atatürkün zamanında azanın əsli qəti şəkildə yasaqlanmamışdı. İkinci prezident İsmət İnönünün dövründə 1941-ci il iyunun 6-da verilmiş qanunla yalnız türkcə azanın oxunulması qərara alındı. 4055 saylı qanuna əsasən Türk Cəza Qanununun 526-cı maddəsinə əlavələr olundu. Əlavələrə görə, ərəbcə azan və iqamə oxuyanlara 3 aya qədər həbs, 10 lirədən 200 lirəyə qədər maddi cəza tətbiq ediləcəkdi.

1950-ci il 14 may seçkilərində qələbə çalan Demokrat Partiyasının ilk qərarlarından biri də ərəbcə azanın yenidən oxunulmasına icazə verilməsi oldu. İyunun 13-də saat 15:00-da Demokrat Partiyası keçirtdiyi qapalı iclasda azanın yenidən ərəbcə oxunmasının gərəkli olduğu qərarına gəldi. Ayın 16-da keçirilən məclisdə çıxış edən Demokrat Partiyasından Seyhan Sinan Tekelioğlu azanla əlaqədar bunları qeyd etdi: "Heç şübhəsiz Atatürk sağ olsaydı da, Böyük Məclisin düşündüyü kimi düşünəcəkdi... "Allahu Əkbər" ilə "Tanrı uludur" kəlmələri eyni mənaya gəlmir.Qədim dövrün kitablarını oxusaq,bir çox tanrıların olduğunu görərik: yağmur tanrısı,yer tanrısı və sair.Bu baxımdan "Tanrı uludur" deyərkən bunlardan hansı uludur?"

1950-ci ilin 16 iyununda toplanan TBMM 5665 saylı qanunla ölkə ərazisində azanın yenidən orijinal variantında oxunulmasına icazə verdi. Müxalifəti təmsil edən CHP partiyası adından çıxış edən Cemal Reşit Eyüboğlu bu qərara qarşı çıxmayacaqlarını bəyan etdi. Qanun iyunun 17-də (Ramazan ayının 1-də) "Rəsmi qəzet"də öz əksini tapdıqdan sonra həyata keçirilməyə başladı.

Beləliklə,18 illik türkcə azan bir daha oxunulmayaraq,islam və türk tarixinin maraqlı səhifəsinə çevrildi.

Maraqlı olan cəhət Atatürkün əsrlərcə islami ideologiya ilə yoğrulmuş Osmanlı imperiyasının yenicə süqutundan sonra birdən-birə radikal islahatlara əl ataraq islamı reform etmək istəməsidir. Səbəb nə idi? Bəlkə, Atatürk onu təkgözlü dəccala bənzədən Said Kürdi kimilərin dediyi kimi,ateist idimi, yoxsa...

Atatürkə görə, türk xalqı öz dinini tam şəkildə anlaya bilmir, Quranın və edilən duaların nə anlama gəldiyini başa düşmür. Əgər başa düşsə idi, dua kimi insanlar bəzi qısa ayələrdən istifadə etməzdilər. Yəni adicə, Ləhəb surəsinin (qarğış xarakterli ayələrdən ibarətdir.) nə anlama gəldiyini bilsə, heç zaman bu surəni dua kimi oxumaz. Ona görə də, xurafatçılığa son vermək üçün Atatürk bu addımı ataraq Quranın, o cümlədən onun təfsirinin və Buxarinin hədislərinin tərcüməsinə qərar verdi. Artıq Ziya Gökalpın da dediyi kimi, kiçiyindən böyüyünə, kəndlisindən ziyalısına qədər hər kəs İslamı anlayacaqdı.

Azanın türkcəyə tərcüməsi heç də birmənalı qarşılanmadı. Fevralın 1-də Bursada 100 nəfər türkcə azana qarşı etiraz etdi. Fevralın 4-də Afyonda olarkən hadisəni eşidən Atatürk Bursaya doğru hərəkət edərək səhərisi gün oraya çatdı. Eyni zamanda daxili işlər naziri Şükrü Kaya, Ədalət bakanı Yusuf Kamal Tengirşek də Bursaya gələrək hadisəni araşdırmağa başladılar. Olaydan sonra Anadolu ajansına verdiyi müsahibədə Atatürk bunları söylədi: "Bursaya gəldim.Hadisə haqqında yetkililərdən məlumat aldım. Olay əslində əhəmiyyət daşımamaqdadır. Hər halda cahil mürtəcelər Cumhuriyyət ədliyyəsinin pəncəsindən qurtula bilməyəcəklər. Hadisəyə xüsusi diqqət yetirməyimizin səbəbi dini siyasətə və ya hər hansı təhrikəyə vasitə etməyə əsla icazə verməyəcəyimizin bir daha anlaşılmasıdır. Məsələnin əsas mahiyyəti din deyil, əslində dildir. Qəti olaraq bilinməlidir ki, türk millətinin milli dili, mentaliteti bütün həyatına hakim olacaqdır".

Bu hadisədən sonra həbs edilən Bursa müftisi Nurəddin əfəndi, Ulucamenin xətibi Hafiz Tevfik əfəndi, fabrikator Qaffarzadə Mehmet əfəndi və digərləri (cəmi 24 nəfər) 13-14 fevralda verilən qərarla səhərisi günü Bursa Ağır Cəza Məhkəməsinə təhvil verildi. Daha sonra Çoruma aparıldılar və mayın 1-də qərar açıqlandı: 4 nəfər azad edildi, 5 nəfərə 2 il, 7 nəfərə 1 il, qalan 7 nəfərə isə 5 ay həbs verildi. Bursa olayının ardınca İzmirdə və digər yerlərdə ərəbcə azan oxuyanlar həbs edildi.

Lakin bu cür cəza tədbirləri ərəbcə azan sevgisini insanlar qəlbindən çıxara bilmədi. Təsadüfi deyil ki, 1950-ci il Ramazan ayının 1-ci günündə ilk dəfə yenidən ərəbcə azan oxunarkən insanlar sevinclərindən ağlamış, qurbanlar kəsərək şadlıq keçirmişlər. Amma türkcə azan qanunla qadağan edilməmişdi, fəqət indiki dövrdə də qadağan olunmamasına baxmayaraq məscidlərin heç birində türkcə oxunulmur. 1960-cı ilin iyulunda keçirilən Türk Dil Qurumunun qurultayında bir sıra elm xadimləri tərəfindən yenidən türkcə azan oxunulması məsələsi qaldırılsa da, bu təklif qəbul edilmədi.

Milli tariximizdə də anadilli ibadət və Quranın tərcüməsi məsələsi ötən əsrin əvvəllərinə dayanmaqdadır. 1917-ci ildə "Açıq söz" qəzetində Rusiyada təhsil alan və içərilərində azərbaycanlıların da olduğu bir qrup tələbənin müraciəti çap edilmişdi. Müraciətdə Quranın tərcüməsi və ana dilində ibadətin məqbulluğu din xadimlərindən tələb olunurdu. Onlara görə, bütün millətləri Tanrı yaradıb və hər kəs Allahla öz ana dilində əlaqə yaratmalıdır. Bunu qadağan etmək Yaradana qarşı çıxmaqdır.

Atatürkün müasiri olan M.Ə.Rəsulzadə də anadilli ibadətin tərəfdarlarından olub. Cumhuriyyətin qurucularından olan M.Ə.Rəsulzadə bu məsələ ilə bağlı fikrini belə ifadə edib: "Dinin əsasları ərəb olmayanlar üçün yabançı qalmamalıdır. Əvvəla Quran, sonra da ayin və dualar türkcəyə tərcümə edilməlidir ki, ruha və qəlbə

lazım gələn hərarət və nuru bəxş edə bilsin. Yoxsa ayini-diniyyə quru bir hərf və cansız bir kəlmədən ibarət olub qalar ki, faydasız olan hər şey əbəsdir".

Mərhum Əbülfəz Elçibəy də türkcə ibadətin qızğın tərəfdarlarından olubdur: "Quran klassik ərəb dilinin nümunəsidir. Onu hər adam anlaya bilməz. Mustafa Kamal Atatürk də təklif etmişdi ki, azan türkcə verilsin, namaz türkcə qılınsın, dualar türkcə oxunsun ki, mahiyyət başa düşülsün. Quran onu başa düşən insanın beynini, fikrini inkişaf etdirir. Dili bilməyənlər isə onu mənasını başa düşmədən əzbərləyirlər. Məhəmməd Hadinin şeiri var, məğzi belədir ki, Quranı boş-boşuna əzbərləməkdən bir şey çıxmaz, mənasını bilmək lazımdır".

O zamankı dövrün tarixi reallıqlarına nəzər salsaq,Atatürkün dini islahatlarının gərəkli olduğunu görərik. Çünki bu islahatlar sayəsində Türkiyə digər islam dövlətlərini bir neçə yüzil qabaqladı. Milli adətləri saxlamaqla avropalaşma Türkiyənin xurafatlarla zəngin şəriət dövlətinə çevirmədi. Osmanlı dövründən fərqli olaraq islam dini elmi yanaşmalarla mənimsənilməyə başlanıldı və bu gün bu islahatların nəticəsi dini anlama baxımından öz əhəmiyyətini göstərməkdədir.

### XIV yarpaq

## Tarixin fenomeni: Xəzər xaqanlığı

Qara dənizlə Xəzər dənizi arasındakı düzənlik ərazilərdə yaşamış xəzərlər Oğuz türklərinin bir qolu hesab edilir, dilləri Oğuz dil qupuna aiddir. Sabar türklərinin davamı olan xəzərlərin xaqanlığı Aşina soyuna mənsub olan ailə tərəfindən yaradılıb. Erkən orta əsrlərin üç güclü dövlətindən biri olan Xəzər xaqanlığı haqqında həm xristian, həm də islam mənbələrində qismən bilgilər qalıb. Əldə etdiyimiz məlumatlar əsasında xaqanlığın tarixini bir sıra aspektlərdə nəzərdən keçirəcəyik.

**Xaqanlığın yaradılması**-Xəzərlər 630-cu ilədək Göktürk xaqanlığının tabeçiliyində fəaliyyət göstəriblər. 627-628-ci illərdə Göktürklər Bizans imperatoru Heraklın istəyinə müvafiq olaraq xəzərləri Sasanilərə qarşı çıxarır və xəzərlər Tiflisi ələ keçirirlər. Xəzər-Bizans ittifaqı Göktürk imperatorluğu dağıldıqdan sonra da davam edir. Belə ki, Sasanilərin məğlubiyyətindən sonra Bizansa qarşı yeni rəqib qismində çıxış edən Ərəb imperiyasına qarşı xəzərlər ən qüdrətli müttəfiq olur. Bu ittifaqı güclәndimək məqsədilə Bizans tərəfi nigah diplomatiyasından da istifadə edir. Belə ki, imperator II Yustinian (685-695 və 705-711, xaqanın bacısı Teodora xatunla evlənmişdi) və V Konstantin (741-775) Xəzər şahzadələri ilə evlənirlər. Konstantinin şahzadə Çiçəkdən (Sonralar Bizansda geniş yayılan xəzər geyim moda stili olan "çiçakion" bu şahzadənin adı ilə bağlıdır) doğulan oğlu Leon tarixdə "Xəzər Leon" (775-780-ci illərdə hökdar oldu) ləqəbi ilə tanınır. Bizans imperatoru və tarixçisi VII Konstantin (901-959) "De Cerimoniis"-"Törələr kitabı" adlı əsərində Qərbi Roma imperatorluğuna göndəriləcək məktub üçün iki sikkəlik qızıl damğa yetdiyi halda, Xəzər xaqanlığına göndəriləcək məktub üçün 3 qızıl damğanın gərəkli olduğunu qeyd edir. Xəzərlərin Bizansı müttəfiq seçməsi ərəb-xəzər münaqişəsinin yaranmasını reallaşdırır. Ərəblərin xəzərlərə qarşı ilk böyük savaşı xəlifə Osmanın zamanında, 652-ci ildə baş verir və Bələncərə qədər soxulan ərəblər məğlub edilərək geri qayıdırlar. 718-ci ildə ərəblər Konstantinopola hücum edərkən Bizans Xəzər və Bulqar türklərindən yardım istəyir və bu köməkdən sonra ərəblər ordunu xəzərlərin üzərinə yönəldirlər. 722-ci ildə Ərməniyyə valisi əl-Carrahül-Hikəmi savaşda önəmli qələbə çalır. 730-cu ildə Xəzər xaqanının oğlu Barcil Ərdəbilə qədər irəliləyərək ərəbləri məğlub edir və vali Hikəmi öldürülür. Ərəblərin Xəzər ölkəsində ən böyük qələbəsini Azərbaycan və Ərməniyyənin valisi Mərvan ibn Məhəmməd 737-ci ildə əldə edir. Mərvan 150 minlik ordu ilə İtil şəhərinə yürüş edir və ardınca ərəblər qoşunun bir hissəsini Dəryal keçidi, digərini Dərbənd yolu ilə keçirdərək Səməndər şəhərinə hücum edirlər. Xaqan İtilin qarşı tərəfinə keçərək tarxanlardan ibarət 40

minlik qoşun ilə mübarizə aparmağa çalışsa da, məğlub edilir və Mərvan 20 min ailəni əsir alaraq Dərbəndə tərəf sürgün edir. Məcbur qalan xaqan sülh sazişi bağlayır. Sülhün şərtlərinə uyğun olaraq Mərvan xaqanın İtilə qayıtmasına icazə verir, eyni zamanda xaqanlıqda islam dinini yaymaq üçün iki hüquqşünası (Sabit əl-Əsədi və Abdurrahman Hulanü) orada saxlayır. 765-ci ildə xəzərlər 30 il əvvəlki məğlubiyyətin qisasını alaraq 100 minlik ordu ilə Azərbaycan və Ərməniyyəyə girərək 100 minlik müsəlmanı əsir alırlar.

Bir sıra tarixçilərə görə, xəzərlərin ərəblərə qarşı mübarizəsi və İslamı kütləvi şəkildə qəbul etməmələri Şərqi Avropa tarixinin dəyişilməsində müəyyən rol oynadı. Belə ki, əgər onlar İslamı qəbul etsə idi, bu gün Rusiyanın və Şərqi Avropanın əksər xalqları müsəlman olacaqdı. Xəzərlərlə ərəblər arasında da nigah diplomatiyası mövcud olub. Belə ki, Harun Rəşidin vəziri Yəhya Bərməki Xəzər şahzadəsi ilə evlənib. Fəqət qohumluq amili də iki dövlət arasındakı düşmən münasibəti aradan qaldıra bilmədi. Eyni zamanda xəzərlərlə Sasanilər də vaxtilə qohumluq əlaqələri qurublar. IV Hörmüzdün anası (578-596) xaqan qızı idi və buna görə də şahın ləqəbi tarixdə "Türkzadə" kimi qalıb. Alpan hökmdarı Cavanşir də bu cür "siyasi izdivacda" olub.

665-ci illərdə Qara dənizin şimalında yerləşən Bulqar xaqanlığının parçalanması nəticəsində Dneprə qədər uzanan düzənliklər xəzərlərin əlinə keçir. VII-VIII əsrlərdə xəzərlər Krım və Azak ərazilərində daha da güclənirlər. Krımda yaşayan qotlar bu dövrdə xəzərlərə tabe idilər. Qotlara xəzər xaqanı tərəfindən təyin olunan vali başçılıq edirdi. Bu cür valilər **tuyun** adlanırdı. 787-də xəzərlər qotların müstəqilliklərinə birdəfəlik son qoyurlar. Bu dövrdə xəzərlər Don çayı sahilində yaşayan bozqır qövmlərinin yürüşlərinin qarşısını almaq üçün Sarhil qalasının tikirlər. İndiki Kiyev şəhəri xəzər xaqanlığına tabe olan 3 qardaş tərəfindən salınır.

**İdarəçilik**-Dövlətin başında türk törəsinə uyğun olaraq Xaqan dayanırdı. Lakin o, bütövlükdə dövlətin bütün işlərinə qarışmırdı. Simvolik xarakter daşıyan xaqan bütün idarəçiliyi naibi olan Xaqanbəyin səlahiyətinə daxil etmişdi. Lakin xaqan köməkçisini dəyişdirmək funksiyasını özündə saxlayırdı. Xaqanbəyin səlahiyyətlərinə bunlar daxil idi: ordunu idarə etməklə müharibə və ya sülh məsələləri, əyalətlərlə bağlı məsələlər, məhkəmə, daxili işlər və s. Simvolik xaqanın hakimiyyət müddəti 40 ili keçə bilməzdi. Əgər xaqan 40 il hakimiyyətdən sonra vəfat etməzdisə, onun artıq dövləti idarə edə bilmədiyini düşünüb özləri öldürürdü. Xaqan ordudan qaçanları cəzalandırırdı. Əgər xaqanbəy məğlub olardısa, onun gözü qarşısında ailəsi və mülkü paylaşılırdı. Xaqanbəy eyni zamanda tarxan və yabqu da adlanırdı. Eyni zamanda idarəçilikdə şad, bəy, eltəbər, tudun kimi vəzifələr mövcud olub. Xəzər idarəçiliyi barədə ibn Fədlan yazır: "Xəzərlərin hökmdarına Xaqan deyilir. Gəzinti üçün ancaq dörd ayda bir dışarı çıxır. Buna Böyük Xaqan, vəkilinə isə Xaqanbəy deyirdilər". Təqribən 460-960-cı illərdə mövcud olmuş Xəzər xaqanlığının mərkəzi 468-723-cü illərdə Bələncər, 723-965-cil illərdə İtil (Astarxan) şəhəri olub. Dövlətin sərhədləri şərqdə Göktürk xaqanlığı, qərbdə Dunay çayı, cənubda Araz çayı, şimalda Kiyev və Moskvaya qədər uzanırdı. Tarixdə isimləri qalan xəzər xaqanları bunlardır: Bulan (620-630), Ubaca, Hizkiya,I Menaşe, Hanuka, İshaq, Sabulon, II Menaşe, Nişi, I Harun, Menahem, Benyamin, II Harun, Yusif (931-965,onun xaqanbəy olması ehtimalı da vardır).

**İç vəziyyət**- İbn Fədlan (922) xəzərlərin bal, un, mum, kürk ticarəti ilə, Gerdizi (1048) arıçılıq və bal mumu ilə, Məsudi (944) gəmiçiliklə məşğul olduqlarını, İstəxri (930-933) tacirlərdən gömrük haqqı olaraq onda bir vergisi aldıqlarını qeyd edirlər. Xəzərlərin mühüm şəhərləri bunlardır: dörd min bağçası olan Səməndər, Tmutorokan, Sarıqşın. Paytaxtın xaqan oturan qərb hissəsi **Xanbalıq** adlanırdı. VII-IX əsrlər şərqi Avropa tarixində "Xəzər barışı" ("Pax Khazarica") adını alıb.

Çünki məhz xəzərlərin güclü müdafiəsi nəticəsində ərəblər və ya digərləri bu ərazilərə daxil ola bilməyiblər. Müdafiəni gücləndirmək məqsədi ilə xəzərlər bizanslı ustaların köməyi nəticəsində 835-ci ildə Şarkel (Ağ qala-ağ daşlardan tikildiyi üçün) qalasını tikirlər. Məsudinin verdiyi məlumata görə, Xəzər xaqanlığının paytaxtı İtildə 7 hakim var idi. Bunlardan ikisi müsəlmanların, ikisi xristianların, ikisi yəhudilərin, biri isə şamançıların haqlarını qoruyurdu. Ona görə də, ölkə ərazisində heç bir dini ayrıseçkilik salınmırdı. Şəhərlərdə məscidlər, kilsələr, sinaqoqlar yanaşı şəkildə yerləşirdi. İtil şəhəri cənubi-şərqi Avropa ilə Asiya arasındakı ticarət mərkəzlərindən idi.

**Dini inanc-**Bütün türk boyları kimi xəzərlərin də dini dünyagörüşlərinin əsasını qam-şaman inancı, əcdadlara və təbiət qüvvələrinə inam təşkil edir. Bir Tenqriyə inanılan xaqanlıqda 732-800-cü illərdə İslam, 800-965-ci illərdə isə Yəhudilik dövlət dininə çevrilir. Dövlətdə xaqandan başqa digər elita nümayəndələri dinlərini dəyişə bilərdilər. X əsrdə İtildə 10 məscid fəaliyyət göstərirdi. Müsəlmanların sayı 10 minə çatırdı ki, bunların da çoxu ticarətlə məşğul olanlar idi. Onlar əsasən Dağıstanda və Aşağı İtildə, xristianlar isə Bizans sınırında və Krımda yaşayırdılar. Siciliyada yaşamış coğrafiyaşünas İdrisi (XII əsr) xaqanlıqda bütün dinlərin fəaliyyət göstərdiyini, dini azadlığın qorunduğunu qeyd edir. Bizans imperatoru I Roman Lekapenin (919-944) yəhudilərə etdiyi zülmdən sonra onlar demokratik ənənələrin qorunduğu Xəzər xaqanlığına köç edirlər və bu köç ərazidəki musəvilərin nüfuzunun artmasına səbəb olur. İbn Rüşdə görə, xəzər xaqanı musəvi olsa da, xalq əski inancını qoruyub saxlayırdı. Xəzər türklərinin musəviliyi qəbul etmələri tarixdə **"Xəzər polemikası"** adı altında xatırlanır. Bu polemikada Xəzər xaqanının dəvəti ilə ibrahimi dinlərin nümayəndələri iştirak edərək, hansı dinin daha məqsədəuyğun və doğru olduğu müzakirə edilir. Beləliklə, xaqan müzakirədə iştirak etmək üçün xristian dininin dayağı olan Bizansa nüfuzlu bir din xadimini göndərmək üçün müraciət edir. İmperator III

Mixail müşaviri Fotinin məsləhəti ilə Kirill (Konstantin Solunski) və Mefodini xaqanlığa göndərir. Apostol Kirill 861-862-ci illərdə İtilə gəlir. Məşhur "Xəzər sözlüyü"ndə ("Lexicon Cospi", ilk müəllifi polyak İones Daubmanus olub. Xəzərlər haqqında olan dağınıq məlumatlar XVII əsrdə toplanılmağa başlanılıb.) musəviliyin xaqanlığın rəsmi dini olması barədə bir sıra rəvayətlər mövcuddur. İslami qaynaqlardan verilən rəvayətə görə, bir gün xaqan yuxu görür və bu yuxunun yozumu üçün müxtəlif din xadimlərinə müraciət olunur. Yuxunu daha düzgün şəkildə yozan müsəlman **Fərabi ibn Qor**un izahından sonra xaqan İslamı qəbul edir. Lakin mənbələrdə bu polemikada xaqanın yəhudiliyi qəbul etməsi daha çox qeyd edilir. Çünki yəhudi ravvinin də dediyi kimi, yəhudi dininin arxasında nə yaşıl yelkənli gəmiləri olan ərəb xəlifəsi, nə də əlində qızılı xaç tutub ordularının başında dayanan Bizans imperatoru dayanır. Lakin ravvinin bu məntiqli cavabına Kirill daha tutarlı sual verərək xaqanı fikrindən döndərir. Belə ki, Kirill bildirir ki, yəhudilərin Allah tərəfindən cəzalandırılması və sürgün edilmələrini onların özləri də ilahi cəza hesab edirlər. Və deməli, yəhudilər xəzərləri öz tərəflərinə çəkməklə onları da bu cazaya məhkum olunmalarına və ərazilərindən didərgin düşmələrinə şərait yaradırlar. Ona görə də, xaqan Xristianlığı qəbul edir və xəzərlər xaç suyuna çəkilirlər.

Doğrudur, rəvayətlərdən anlaşıldığı kimi, xaqan Xristianlığa və İslama daha çox meyl etsə də, sonucda Yəhudiliyi qəbul edir. Ravvinin sözündən də göründüyü kimi, əgər Xristianlıq qəbul edilsə, Bizansın, İslam qəbul edilsə, Ərəb imperiyasından asılı vəziyyətə düşüləcəkdi. Bu məqsədlə ən optimal variant kimi musəvilik qəbul edilir.

Bütün bunlara baxmayaraq, ibrahimi dinlərdən heç biri xalqı tenqrilik inancından uzaqlaşdıra bilmir. Musəvilik sadəcə, elita təbəqəsi tərəfindən qəbul edilir. Yəhudi şairi Halovi (1085-1141) ərəbcə yazdığı "Kitab al-Khazaro" əsərində yəhudilərin seçilmiş bir xalq olduğunu və gələcəkdə bütün xalqların musəviliyi qəbul edəcəklərini bildirir. Və

buna misal kimi xəzər türklərinin atdığı addımı göstərir və əsərində xəzərlərə geniş yer verir. 1170-1185-ci illərdə Şərqi Avropada və Anadoluda səyahətdə olan alman yəhudisi, səyyah Rastibonlu Reb Petaşya, "Sibub Ha'olam" ("Dünya üzərində səyahət") adlı əsərində Krımın cənubunda yaşayan xəzərlərlə rastlaşdığını qeyd edir və onların Karay məzhəbini tənqid edir. Xaqanlıqda İslam dini ticarət məqsədilə buraya gələn müsəlmanlar və Xarəzm türklərindən ibarət müsəlman muzdlu əsgərlərin vasitəsilə yayılır. İbn Fədlana görə, paytaxtdakı müsəlmanlara Xız boyundan biri başçılıq edirdi. Əl-Məsudiyə görə, xəzərlər xəlifə Harun Rəşidin zamanında musəviliyin "Karay" məzhəbinə daxil olublar.

Xəzərlər özlərindən sonra yalnız bir yazılı tarix saxlayıblar ki, bu da iki mənbə əsasında çatıb. Mənbələrdən biri XVI əsrdə Misirdə (Keniset-el-Şami) tapılan və 1577-ci ildə İstanbulda çap edilən ("Correspondence Kha-zare") yazışmadır. Bu yazışma xaqanbəy Yusif Harun oğlu ilə Əndəlüslü musəvi dövlət xadimi və mütəfəkkiri Hasday bin İshak ilə əlaqədardır. Belə ki, Hasday Əndəlüsdə ikən İrandan gələn tacirlərdən müstəqil bir yəhudi xaqanlığının mövcudluğunu eşidir. Əvvəlcə buna inanmayan Hasdaya bunun doğru olduğunu, hətta xaqanlarının adının Yusif (Josef) olduğunu söyləyirlər. Əmin olduqdan sonra Hasday Yusifə məktub yazaraq (960-cı ildə) onların Fələstindən gəlib-gəlmədiklərini öyrənməyə çalışır. Çünki yəhudi xalqının qollarının çoxu məhv olduğundan Hasday, bəlkə də onların həmin qollardan biri olduğunu düşünür. Beləliklə, Hasdayla Yusifin katibləri arasında yazışmalar başlayır.

Yusif Harun oğlunun məktubunda xəzər xaqanlarının nəsil şəcərəsindən, xəzərlərin məişətindən və onların yəhudi dinini qəbul etməsindən, xaqanlıqda yaşayan bir sıra boylar haqqında məlumatdan bəhs edilir.

Məlum olduğu kimi, Yəhudi inancına görə Nuhun oğlu Samın nəvələrindən Yəhudanın 12 oğlu olub və 12 qəbilə də məhz onlarla əlaqədardır. Ona görə də, Hasdayı xəzərlərin bu qəbilələrdən hansı olduğu maraqlandırırdı. Lakin Yusif yabqu məktubunda nəslinin Nuhun üçüncü oğlu Yafəsin nəvəsi və türklərin atası hesab edilən Turqarma ilə əlaqələndirir. Eyni zamanda məktublarda xəzər polemikası və Bulan xaqanın xaqanlıqdan bütpərəst və cadugərləri qovmasından bəhs edilir.

Xəzərlər ölünu suya atırdılar, sonradan isə yandırmağa başladılar. Xaqan ölərkən 20 otaqlı bir ev tikilirdi ki ,hər otaqda da bir qəbir qazılırdı. Xaqanın dəfnindən sonra onu dəfn edənlər də öldürülürdülər və digər otaqlardakı qəbirlərdə basdırırdılar. Beləliklə, xaqanın qəbri tanınmırdı. Bu adət hun türklərində də mövcud olub. Xaqanın qəbri tamamı qızılla işlənmiş qumaşla örtülür, sonra çayın suyu qəbir olan otağa boşaldılır. Bunu ona görə edirdilər ki, artıq xaqanın cəsədinə heç bir insan, şeytan, qurd və böcək məhv edə bilməyəcəkdi. Məhz bu adət nəticəsində heç bir Xəzər xaqanının qəbri tapılmayıb.

Xaqanlıqda türk, ərəb, ibrani və kirill əlifbasından istifadə edilirdi. Fars tarixçisi Fəxrəddin Mübarəkşah (XIII əsr) qeyd edir ki, Xəzər əlifbası 22 hərflidir, soldan sağa yazılır, hərflər isə birləşmir.

**Xəzərlər və Azərbaycan-**Xəzərlərin Albaniya ərazilərinə gəlməsi bir neçə mərhələdə baş verib. Mənbələrdə 193-213-cü illərdə Çola keçidindən keçərək Albaniyaya gəldikləri qeyd edilir. Sasanlı I Xosrov hakimiyyəti müddətində 50.000 Xəzər türkünü və 3.000 türk başçısını öz ailə və qohumları ilə Azərbaycana yerləşdirir. 623-cü ildə xəzərlər bizanslılarla birgə Naxçıvanı və Tiflisi ələ keçirirlər, Qazakadakı məşhur atəşgədəni dağıdırlar. Qəbələni özlərinə strateji mərkəz seçən xəzərlərin bir hissəsi məğlub olandan sonra Albaniya ərazisində qalır. Xəzər-Albaniya münasibətləri Cavanşirin zamanında yenidən

kəskinləşir, lakin Cavanşirin nigah diplomatiyasından istifadəsi tərəflərin razılığa gəlməsi ilə nəticələnir.

Doğrudur, xəzərlərin Azərbaycan ərazilərinə yürüşləri qənimət əldə etmək olsa da, sonralar dil və adət-ənənə birliyi onların bu ərazilərdə qalmalarına səbəb olur. Elə bu səbəbdəndir ki, hazırda ölkəmizin müxtəlif ərazilərində xəzərlərlə bağlı toponimlər qalmaqdadır: Lerikdə Xəzəryaylaq, Ordubadda Xəzəryurd, Qarabağ və Füzuli ərazilərində Xəzərdağ, Xəzər dənizi (Kaspi terminindəki "kas" sözü "xəz, xaz" sözünün variantlarındandır.), Biləcəri (Bələncər şəhəri ilə əlaqədardır). Xəzərlər bir neçə bölüklərə (abaz, bizal, kabar, kulas, itil, qaraçor, tarna və s.) bölünür ki, bunlarla əlaqədar toponimlər də mövcuddur : Kəbirli, Abaslı, Qaraçorlu, Bozalqanlı, Xulaşlı, Tarnahut.

Xəzərlərin Azərbaycan tarixində oynadığı ən önəmli rol onların xürrəmilər hərəkatının baş verməsində göstərdikləri təsirdir. Xürrəmilərin inancı xəzərlərin qam-şaman inancı ilə əlaqədardır, o cümlədən hərəkatın başında iki rəhbərin (Cavidan və Əmran) dayanması da məhz Xəzər adətdən irəli gəlir.

**Ruslarla münasibət-** Varyaq-normanlardan ibarət olan bir qrup Rus (Ross, Rhos-Rodh-qədim isveç dilində "gəmiçi" deməkdir, onlar daha çox kürk və bal ticarəti ilə məşğul olurdular) adlanırdı. Rusların başçısı olan Rurik IX əsrin ikinci yarısında mərkəzi Novqorod olmaqla Xəzər xaqanlığının idarəçiliyi formasında kiçik bir dövlət yaradır. 862-ci ildə Rurik Sambataya gələrək Xəzər xaqanından tabelik statusu aldıqdan sonra fəal ticarətə atılırlar. Hələ 839-da qurulan ilk Rus birliyinin başçısı "chacanus" (kakanus, xaqan) adlanırdı. 988-ci ildə Xristianlğı qəbul edən Vladimir və Yaroslav (1036-1050) da xaqan titulu daşıyırdılar. İtildə rus məhəlləsi olduğu kimi Kiyevdə də xəzər məhəlləsi mövcud olub. İbn Rüşdə görə, Novqorodda xaqan əyləşir ki, o, orduya özünü təmsil etmək üçün bir nəfər təyin edir. Halbuki, bu adət varyaqlarda heç vaxt mövcud olmayıb və bu xəzərlərin idarəetmə sisteminə uyğun

idi. Artıq ticarətdən varlanan ruslar ağalarına tabe olmayaraq xaqanlığa qarşı çıxırlar. 866-cı ildə ruslar Kiyevi ələ keçirirlər, ardınca 913-919-943-cü illərdə dağıdıcı yürüşlər edirlər. 965-ci ildə Svyatoslav xaqanlığa hücum edərək şəhərləri yandırır. 987-ci ildə isə Vladimir vaxtilə xəzərlərlə bizanslıların birgə sahib olduğu Keson limanını ələ keçirir. Bizans isə buna etiraz etmir. Artıq Bizansın ruslarla yaxınlaşması xəzərlərin məğlubiyyətindən xəbər verirdi.

**Xaqanlığın süqutu-** X əsrin ortalarından başlayaraq xaqanlıq nüfuzunu itirməyə başlayır. Bu bir sıra amillərlə bağlıdır:

- Ticarətin inkişafı nəticəsində muzdlu ordunun yaranması və bunun nəticəsində milliliyin itirilməsi
- Din və dil birliyinin olmaması
- Güclənən slavların dağıdıcı yürüşləri və s.

Xaqanlığın süqutundan sonra dağınıq düşən xəzərlər bir sıra adalara yayıldılar, Azak və Krımda kiçik dövlətlər qurdular. Krımdakı xəzər birliklərinə "Çun" adlı hökmdar başçılıq edirdi. 1016-cı ildə ruslar Bizansın yardımı ilə bu əraziləri də tutdular. Aşağı İtil və Terekdəki Xəzər dövlətləri isə səlcuqların və qıpçaqların əlinə keçdi. Qızıl Ordu xaqanı Sürbidey noyon 1299-da İtildəki xəzərlərin müstəqilliklərinə son qoydu. Xaqanlıq dağıdıldıqdan sonra xəzərlərin adı mənbələrdə bir neçə dəfə də xatırlanır. X yüzillikdə macar tayfalarından birinin başçısı dağınıq xəzərlərə ərazilərində məskən salmağı təklif edir. 1117-ci ildə Kiyevdə xəzərlərdən ibarət bir qrup Vladimir Monomaxın sarayına gəlir. 1309-cu ildə Presburqda katoliklərə xəzərlərlə ailə həyatı qurmağı qadağan edən qanun verilir və 1346-da bu qanun papa tərəfindən qəbul edilir.

Qeyd etdik ki, xaqanlıq dağıldıqdan sonra xəzərlər Avropaya dağılışırlar. Hazırda Litvada 250-yə yaxın Karay türkü yaşayır. Krımda Çufutqalada, İstanbulun Karaköy (əslinin Karayköy olduğu

düşünülür.) və Hasköy ərazisində də sadə həyat tərzi sürürlər. Hasköydəki karaylar (karaimlər) hər şənbə günü kenesaya (ibadətxanaya) gedərək ibadət edirlər (qadın və kişilər ayrı-ayrı). Türk Karaim Vəqfi adlı təşkilatları mövcuddur. Hər hansı bir liderlik mövqeyi mövcud deyildir. Yaradıcıya "Tenqri", nadir hallarda isə "Alla" deyirlər ki, hər iki ad türklərlə əlaqədardır. Anadolu türkcəsiylə yanaşı Karay türkcəsinin Trakay-Qalits şivəsindən istifadə edirlər.Krımdakı karaylarla əlaqələri mövcuddur. Ümumiyyətlə, hazırda karayların sayı dünyada 30.000-ə qədərdir ki, Türkiyədə 1985-ci ildə 150, 1995-də 90, hazırda isə 80-90 arası saydadırlar. Atatürk 1934-cü ildə Türk Dil Qurultayına karay türklərini də dəvət etmişdi. Vaxtilə Hitlerin Almaniya, Avstriya, Polşa, Macarıstan, Çexoslavakiya və digər ərazilərdə törətdiyi soyqırımda ölən yəhudilərin əslində yəhudiləşmiş xəzərlər olması ehtimalı da vardır. Azərbaycandakı dağ yəhudilərinin də xəzər türklərinin nəsli olduğu fikri mövcuddur və onların koloniyaları VII-X yüzilliklərə aid edilir.

**XV yarpaq**

## Xorasanın baltası: Müslimiyyə hərəkatları

Rəvayətə görə, Əməvilər Xorasan və Türküstanı işğal etdikdən sonra tutduqları əsirlərlə birlikdə üç nəfər türk başçısını zəncirə vuraraq xəlifənin hüzuruna aparmaq üçün yola çıxırlar. Bu üç liderdən biri Osman adlı Oğuz bəyi idi və xalq onu Müslim ləqəbi ilə tanıyırdı. Osmanın atası çinlilərlə aparılan savaşdan məğlub olub geri dönərkən Ceyhun çayında boğulur və buna görə də onun ailəsi yaşadıqları yeri tərk edərək Mərv şəhəri yaxınlığındakı Mahvan kəndinə yerləşirlər və Osman (Müslim) buranın başçısına çevrilir. Əməvilər buraya hücum təşkil edərkən Osman onlarla savaşa girir, fəqət məğlub olaraq Mahvan xalqı ilə birlikdə əsir düşür. Osmanın istəklisi bütün qızıllarını və

pulunu verərək Osmanı Əməvilərin əsirliyindən xilas edir və onlar birlikdə Azərbaycana gələrək İsa ibn Makal adlı qohumlarının yanında gizlənirlər. Burada onlar evlənirlər. Az sonra Osman qadınını Azərbaycanın Kayık kəndindəki qohumlarının yanına verir və türk eli olan Xorasandakı vəziyyəti öyrənmək üçün oraya gedir, fəqət Əməvi valisi Yezid ibn Məhləp tərəfindən tutularaq edam edilir. Osmanın keçən bu zamanda hamilə qadınından övladı dünyaya gəlir və adını Əbdurrəhman qoyurlar.

Xorasan qədimdən türklərin toplu halda yaşadığı ərazilərdən olub və İslam tarixində önəmli yerlərdən birinə sahibdir. Ərəb orduları tərəfindən buranın işğalı 661-ci ildə Xəlifə Müaviyənin dönəmində baş verir. İşğaldan sonra Xorasana 50 min ərəb ailəsi köçürülür.

Türklərin yaşadığı Xorasan İslamın qalası idi. VIII əsrdə yaşamış sufi alim Sufyan əs-Səfri yazır: "Xorasanda azan oxumaq, Məkkədə ibadət etməkdən daha üstün və fəzilətlidir". Bəsrəli Cahiz də Xorasanı daha çox türklərə bağlayır. Orta əsr mənbələrində xorasanlılar deyildikdə təkcə türklər nəzərdə tutulurdu. Çünki burada yaşayan farslar, ərəblər, soğdlar və yəhudilər öz adları ilə tanındıqları halda onlardan daha çox sayda olan türklər elə xorasanlılar kimi (yerli xalq olduqları üçün) adlanırdılar. Tarixçi Təbəri Xorasan valisi Nasrın zamanında buradakı müsəlmanların sayının qeyri-müsəlmanların yarısı qədər də olmadığını qeyd edir. Təsadüfi deyil ki, Əməvilərə qarşı VIII əsrin ortalarında başlayacaq üsyanların ideoloji və siyasi mərkəzi də məhz Xorasan olur.

Türk-islam tarixində "Xorasanın baltası", "xəlifələri yıxıb, xəlifələri taxta çıxaran" ləqəbi ilə tanınan Əbdürrəhman Əbu Müslim Xorasanlı 722-ci ildə Azərbaycanın Kayık kəndində dünyaya göz açır. Gənc yaşlarından öz igidliyi ilə ün qazanan Əbdurrəhman anasından atasının qatillərinin kimliyini öyrənir və bir zaman qisasını almaq məqsəd ilə Oğuz dastanları ruhunda böyüyür. Anasının ölümündən sonra atalığı ilə vidalaşan Əbdurrəhman atasının yurdu Xorasana gedir

və burada əxilərin himayəçiliyində yaşayır. Burada usta yanında çalışan Əbdurrəhman Xorasandan Məkkəyə gedən hacıların qafiləsinə qoşulur və atasının qatillərinin yurduna gəlir. Və burada o Abbas oğularından Muhəmməd ibn Əlinin rəğbətini qazanaraq onun himayədarlığına keçir.

Bu dövrdə Peyğəmbərin (s) əmisi Həzrəti Abbasın soyundan olan Muhəmməd ibn Əli hakimiyyətin əslində Abbasın nəslinə aid olmasına irəli sürərək gizli şəkildə fəaliyyətə başlayır və onun ölümündən sonra oğlu İbrahim daha aktiv şəkildə çıxışlara başlayır. Bunun üçün o Xorasanda önəmli nüfuza sahib olan türk Əbu Müslimi öz ətrafına çəkə bilir. Əbu Müslim Xorasana gedərək oranı Əməvilərdən təmizləyir və Reyə yönəlir. 747-ci il iyunun 15-də Əbu Müslim xilafətin yaşıl bayrağının müqabilində İbrahimin göndərdiyi qara bayrağı qaldırır. Bu zaman yəmənilər, bəni-Rabia və digər əməvilərə düşmən qəbilələr Müslimin tərəfinə keçirlər. Xorasan valisi Nəsr ibn Səyyar məğlub edilir Rey, Mərv, Herat, Rud, Nəsa, Nihavənd, Nişapur şəhərləri ələ keçirilir. Bu dövrdə hakimiyyətdə olan Əməvi xəlifəsi II Mərvan İbrahimi həbs etdirir, buna görə də İbrahim öndərliyə qardaşı Əbül-Abbası təyin edir. Beləliklə, xorasanlılar 749-cu il 28 noyabrda Kufə məscidində Əbul-Abbasa biət edərək onu xəlifə elan edirlər. II Mərvanın öldürülməsindən sonra Əndəlüs (İspaniya) istisna olmaqla bütün xilafətdə onun hakimiyyəti tanınır və Əbul-Abbas əs-Saffah ləqəbini alır.

**Talas savaşı-** Türk-İslam tarixinin ən mühüm savaşlarından biri çinlilərlə aparılan Talas döyüşüdür və fikrimizcə, əgər bu savaşda çinlilər qalib gəlsə idi, bu gün Türküstan elləri müsəlman olmayacaqdı və Türküstanda türk-islam xaqanlıqları yaranmayacaqdı. 750-ci ildə Çin imperatoru koreyalı generalın öndərliyi ilə Daşkəndə hücum edərək türk hökmdarını əsir götürür. Buna görə də hökmdarın oğlu İslam ordusunun komandanı Əbu Müslimdən yardım istəyir və Əbu Müslim də bu əraziləri xilafətə qatmaq məqsdilə sərkərdəsi Ziyad ibn

Salihin başçılığı ilə qoşun göndərir. Döyüş 5 gün davam edir. Ərəb ordusu əsasən ərəblərdən, soğdlulardan və türklərdən, Çin ordusu isə çinlilərdən və türklərdən təşkil olunur. Döyüşün həlledici anında qarluq türklərinin islam ordusu tərəfə keçməsi Çinin məğlubiyyətə uğramasına səbəbiyyət verir. Qarluq türklərinin çinlilləri buraxaraq Əbu Müslimin və islam ordusunda özünəməxsus yeri olan türklərin tərəfinə keçməsi Əbu Müslim Xorasanlının öz həmyerliləri arasında nə qədər sevildiyini göstərir.

Talas savaşından sonra xilafətdə önəmli nüfuz sahibi olan Əbu Müslim 754-cü ildə həccə gedir və qayıtdığı zaman əs-Səffahın vəfat etdiyini və yerinə oğlu Mənsurun gəldiyinin görür və yeni xəlifyə biət edir. Elə bu zaman Şam valisi Abdullah ibn Əlinin özünə xəlifə elan etməsi və İraqa doğru yürüşə hazırlaşması xəbəri gəlir. Buna görə də xəlifə Müslimin öndərliyində İraq və Xorasandakı qoşunlarını Abdullahın üzərinə göndərir. Nusaybin ətrafında 5 ay davam edən döyüşlərdən sonra Əbu Müslim qələbə çalır və Şam valisinin bütün xəzinəsini ələ keçirir. Elə bu vaxt xəlifə ilə Müslim arasında ciddi anlaşılmazlıqlar yaranır. Belə ki, Müslim ələ keçirdiyi xəzinəni xəlifəyə göndərmək istəmir və eyni zamanda xəlifənin ona verdiyi Şam valiliyini qəbul etmir və Xorasana getmək qərarına gəlir. Bundan hiddətlənən Mənsur müxtəlif hiylə ilə onu İraqa çağırır və 13 fevral 755-ci ildə onu boğdutdurur, cəsədini Dəclə çayına atdırır. Bununla da, Abbas oğulları hakimiyyəti onlara bəxş edən türk Əbu Müslimə xəyanət edirlər.

Fəqət Əbu Müslimin öldürülməsi xilafət daxilində, xüsusən Xorasanda mühüm çıxışların başlanmasına səbəb olur və ideoloji və siyasi mahiyyət qazanan bu çxışılar tarixdə Müslimiyyə hərəkatları kimi qeyd olunur. İlk olaraq Nişapurdan Simbad adlı bir zərdüşti üsyan qaldıraraq Həmədana yürüş təşkil edir. Simbad xalqa Əbu Müslimin ölmədiyini, ağ göyərçinə çevrilərək uçduğunu və bir qalada Mehdi və Məzdəklə birlikdə yaşadığını bildirir və ətrafına çoxlu sayda qüvvə yığa bilir, fəqət məğlub edilərək öldürülür. Bu üsyanın ardınca İshaq

əl-Türki qiyam qaldırır. İshaq Əbu Müslimin Zərdüşt tərəfindən göndərildiyini, ölmədiyini və Rey dağlarında yaşadığını bildirir. Fəqət 757-ci ildə bu üsyan da yatırılır. 767-ci ildə isə Herat, Sistan və Baqdistdə Zərdüşt adlı biri qiyam edərək bir sıra şəhərləri ələ keçirir, lakin o da yaxalanaraq işgəncə ilə öldürülür. Bu üsyanlardan ən qüdrətlisi isə mağ nəslindən olan, üzünü niqabla gizlədən Muğannanın (əsl adı Haşim ibn Hakim) başçılığı ilə baş verir. Müasirlərinin anlatdıqlarına görə Muğanna işıq saçdığı üçün üzünü niqabla gizlədirdi və düşmənlərinin qorxduğu də elə bu amil idi. Və hətta niqabsız halda onu görənləri yandırdığını da qeyd edirlər. Digər hərəkatçılar kimi Muğanna da Məzdək inancından çıxış edərək, hər bir şeyin insanlar arasında bərabər şəkildə bölüşdürüləcəyini bildirir və peyğəmbərliyin Əbu Müslimdən sonra ona keçdiyini bildirir. Muğanna iki il ərzində Zərəfşan, Buxara, Səmərqənd kimi əraziləri öz hakimiyyəti altında saxlaya bilir. 783-cü ildə isə əsir düşəcəyini görüb özü və tərəfdarları ilə birlikdə ocağa atılırlar. Fəqət Muğannanın da ölümü xilafətə qarşı başlayan ideoloji və siyasi hərəkatları boğa bilmir. Artıq Əbu Müslimin qisasçıları təkcə Xorsanda olmayıb imperiyanın bütün ərazilərinə yayılırlar. Və çox qəribədir ki, bu cür hərəkatlara daha çox türk liderlər (İshaq, Muğanna, Babək) başçılıq edirlər. Məhz bu amil də Müslimin türk olmasını sübut edir. Müslimiyyə hərəkatı öz kuliminasiya nöqtəsinə Babəkin öndərliyində çatır. Azərbaycan, Ərməniyyə, Mazandaran, Xorasan və digər mühüm ərazilərdə bu hərəkat özünə tərəfdar tapır və 20 il ərzində Xilafətə qarşı mübarizə aparılır. Babəkin ərəb qaynaqlarında "Xorasanın iblisi" adlandırılması və edamından sonra başının Xorasana göndərilməsi bu hərəkatın da kökünün Xorasana və Əbu Müslimə bağlandığının göstərir.

**XVI yarpaq**

## Arınma günü

Türk ruhaniyyətinin ana təməlini təşkil edən Novruz törəni minilliklərdir ki, mənəvi bağlarla əcdadlardan bizlərə ötürülən bayramdır. Türkün qurtuluşu, mənəvi arınması, gələcəyə ümid dolu gözlərlə baxmasını özündə ehtiva edən Novruzun gəlişi yeni bir canlanma yaradır. Bu canlanma təkcə təbiətə aid olmayıb, həmçinin insan ruhunun suçlardan arınaraq yeni bir başlanğıca qədəm qoyması ilə əlaqədardır. Türk dünyasında 20-dən yuxarı adı olan və bir çox məna çalarları ilə özünü göstərən Novruza olan yanaşmalar da müxtəlifdir. Bizim üçün əsas olan Novruzun xilas və qurtuluşla əlaqəli olmasıdır. Novruz hadisəsi ilə bağlı olan Ergenekon dastanına nəzər saldığımızda mavi işığın arxasınca hərəkət edən Bozqurdun xilas yolunu göstərməsini və bu xilasın da ancaq qalanan tonqalla mümkün olmasını göz önünə gətirsək bayramın əsl mahiyyətini anlamış olarıq. Türk ezoterizminin ana qaynağı olan Ergenekon dastanı gerçək mənada Türkün əsarətdən xilasını əks etdirirsə, batini anlamda Türkün yalnız mavi işıqla və od ilə arına biləcəyini göstərir. Bu baxımdan Türk dünyasında Novruz sözünün real qarşılığı Ergenekondur:

Ergənə- yeni, kon- gün.
Novruz Türk dünyasını birləşdirən ortaq dəyərdir. Onun digər adlarından birinin Oğuz olması da təsadüfi deyildir. Millətlər tarixindən bilirik ki, əgər xalqlar əsarət altında olsalar da, öz dillərini və adət ənənələrini saxladıqları təqdirdə onların assimilyasiyaya uğraması prosesi baş vermir. Məhz buna görədir ki, hazırda Güney Azərbaycanda ana dilinin qadağası ilə bərabər, Novruz törənlərində də milli şüarların dilə gətirilməsinin qarşısı alınır. Bu gün Novruz törəninin farsçılığa xidmət etməsi üçün müxtəlif rəvayətlər uydurulsa da, bütün hallarda bu rəvayətlər Novruzun ruhuna yapışmadığından gerçək olmadığı dərhal üzə çıxır. Bahar bayramını ilk dəfə olaraq Ön Asiya xalqları, xüsusən azər türklərinin ulu əcdadları olan qutilər və lulubilər tərəfindən keçirilib. Əski şumərlər bu bayramı Akitil ("til" yaşamaq, yenidən doğmaq mənasını ifadə edir) adı altında qeyd edib. Eyni zamanda miladdan öncə XVIII yüzillikdən etibarən Babildə arpa

əkinindən öncə Akitu adlı şənliklərin keçirilməsi mənbələrdən məlumdur. Qədim Babildə bahar bayramında Tanrının simvolik təsviri yaradılaraq çay kənarında yerləşən Akitu məbədlərinin içərisinə qoyulur ki, bu ənənə Tanrının yenidən Yer üzünə qayıtmasını, daha doğrusu ölən təbiətin yenidən dirilməsi prosesini özündə əks etdirir. Şumərlərin ünlü "Bilqamus" abidəsində bahar şənliklərinin qutlanması əhatəli şəkildə qeyd olunur.

Miladdan öncə II minillikdən etibarən Zərdüşt inancının formalaşması Ön Asiyada yaranan bahar bayramının dini mahiyyət qazanmasına səbəb olur.

Bahar bayramının hər hansı bir xalqa aid edilməsi məntiqi baxımdan mümkünsüzdür. Çünki ilk insanların əsas məşğuliyyətindən olan əkinçiliklə və ümumilikdə, təbiətlə əlaqədar olduğun üçün Yer kürəsinin istənilən nöqtəsində bu bayrama rast gəlinir. Hazırda Amerika qitəsində Kaliforniya ətrafında dağınıq halda yaşayan hindu tayfalarından Yurok, Karuk, Hupa, Yuki, Pomo, Modoc və Maidu tayfaları şaman öndərliyində mart ayında yeni il bayramı keçirirlər. "Diriliş" şənlikləri adlanan bu bayramda hindular (qızıldərililər) yaşadıqları ərazinin tam ortasına uzun və düz şəkildə bir dirək basdırır və bunun dünyanın mərkəzinin və Ulu Yaradıcının simvolikası olması bildirilir. Burada daha maraqlı hadisə şamanın həmin dirəyə çıxaraq mənsub olduğu qəbiləni şər ruhlardan, xəstəliklərdən, hər cür bəladan qurtararaq, onlara bol məhsul verməsi məqsədilə Ulu Ruha-Gök Tanrıya dua etməsidir. Bu adət daha çox Kaliforniyada yaşayan Kamella qəbiləsinə xasdır. Bu qəbilələrlə yanaşı hazırda Boliviyada yaşayan Aravak və Manası, Meksikada yaşayan Arıkara qəbilələri də Gök Tanrı inancına uyğun şəkildə martda bahar şənlikləri keçirirlər. Qədim keltlərin də bahar bayramı keçirmələri bəllidir və hazırda İrlandiyada qeyd olunan Belteyn törəni Novruzun analoqlarındandır.

Hunların miladdan öncə III yüzillikdən, uyğur türklərinin isə miladi IX əsrdən etibarən "yanqı kün" şənlikləri keçirmələri qeyd olunur. Əski uyğurların insanlara xoşbəxtlik bəxş edən "Akkuza" ulduzunun adına uyğun olaraq verdikləri Akkuza ayının başlanğıc gününü (miladi 21 mart) bayram kimi keçirmələri bildirilir. X əsrə aid olan Maytrısimit əsərində "yanqı kün"də uyğurların teatrda müxtəlif pyesləri

oynamaları, güləş keçirmələri haqqında məlumatlar vardır. Miladdan öncə 70-ci illərə aid bir sənəddə Parfiya hökmdarı I Valaşın Novruz törənləri keçirtməsi qeyd olunur. Sasanilər dönəmində tacqoyma mərasiminin Novruz günündə Atropatenadakı mərkəzi məbəddə keçirilməsi mənbələrdən bəllidir. Bu amilin özü də Zərdüştlüyün və Novruzun Azərbaycanla bağlılığını sübut edir. Hazırda Altay türkləri martın 21-i "Cılgayak" adlı bayram keçirirlər. Qırğız tarixçisi Anvar Baytur qırğızların Kuzu ulduzunun görünməsindən bir gün sonra bahar bayramı keçirdiklərini qeyd edir. Çin qaynaqlarında hunların miladdan öncə 220-ci ildən mart ayında bahar şənlikləri keçirdikləri qeyd olunur. Tsi-Ma-Çianın əsərinin "Hun adətləri" adlı bölməsində hunların müxtəlif şənliklər keçirmələri, atalarının ruhlarını yada salmaları, ibadət etmələri və Gök Tanrıya qurban kəsmələri qeyd olunur. Digər bir Çin tarixçisi Fenyenin "Son Xan sülaləsi" adlı əsərinin "Cənub hunları" adlı bölməsində hunların başda 21 mart olmaqla ildə 3 dəfə toplanıb (milad təqvimi ilə 3-cü, 8-ci, 12-ci ayda) qurban kəsdikləri bildirilir.
Firdovsinin sonradan özünün də uydurma adlandırdığı "Şahnamə"sində mifik İran şahı Cəmşidin müxtəlif ölkələr gəzdikdən sonra Azərbaycana gələrək buranı bəyənməsinin xalq üçün yeni günə çevrilməsi və bu hadisənin həmin ildən etibarən bayram kimi qeyd olunması bildirilir. "Şahnamə"də uydurulan digər bir hadisə dəmirçi Gavə ilə Zöhhak arasındakı mübarizədir ki, bunun sonucunda guya kürtlərin əcdadı olan iki qardaş tonqal qalayaraq üsyan qaldırır və şahı məğlub edirlər. Məhz bu uydurma olayı azadlıq mübarizəsi kimi Novruza calayan PKK Novruz şənlikləri zamanı Türk bayrağını yandırmaqdan da çəkinmirlər.
Ərəblərin istilasından sonra Azərbaycanda Novruz şənliklərinin keçirilməsi davam edir və Babəkin yaratdığı Xürrəm dövlətində geniş şəkildə qeyd olunur. Məhz xürrəmilərin ildə bir dəfə toplanaraq dağ başında tonqal qalayaraq şənliklər keçirmələrinin mahiyyətini anlamayan cahil ərəb tarixçiləri onların əyyaşlıq etmələrini düşünüblər. Xilafətin Novruza qadağa qoymaması isə iki amillə əlaqələndirilir:
1. Məlum olduğu kimi, Azərbaycanda və digər ölkələrdə ərəblər hakimiyyətə gəldikdən sonra məcbur olduqlarından Sasanilərin idarə üsulunu saxlayırlar. Sasani üsul idarəsində əhalidən vergilər Novruz

zamanı yığılırdı və məhz buna görə də ərəblər müasir istilahla desək, bir növ xalqı "soymaq" üçün Novruzu qadağan etmirlər.
2. Digər tərəfdən artıq Novruz şiə müsəlmanlar tərəfindən müqəddəs bayramlar sırasına salınmışdı və bu baxımdan artıq bahar bayramı ərəb icması içərisində də özünə yer tapmışdı.
Səlcuq oğullarından Cəlaləddin Məlikşahın dövründə 1079-cu ildə ilbaşı 21 mart götürülən Cəlali təqvimi yaradılır. Ağqoyunlu Sultan Həsənin "Qanunnamələr"ində Novruz yeni gün hesab edilir və vergilərin toplanılmasına bu gündən başlanılır. Bu qayda Osmanlı dövlətində də qüvvədə idi və Sultan Novruz adı verilən bu gün həm də vergilərin yığılması günü kimi sancaqların qanunnamələrində öz əksini tapıb.
Osmanlılarda Novruz günündə dövlət əczaxanalarında Novruziyyə adı verilən və iştahı artıran, şəfaverici olduğuna inanılan dərman hazırlanırdı. Xalq bu dərmanı qaynadaraq suyunu içir və üzlərinə sürtərdilər. Dərmanı tapa bilməyənlər müxtəlif şirniyyatlar bişirirdilər.
Hər il Novruz zamanı vəzirlər, saray adamları, əyalət hakimləri bayramla əlaqədar olaraq sultana atlar, silahlar, qumaşlar və sair hədiyyələr verirdilər.
Təbii ki, Səfəvilər dönəmində Novruz öz möhtəşəmliyinin zirvəsində olmuş və hətta Ərzincanda hələ də yaşlı nəsil tərəfindən söylənilən bir rəvayətdə Novruz Şah İsmayılla əlaqələndirilir. Həmin rəvayətə görə, Şah İsmayıl Ərzincana gələrkən Öbek (və ya Höbek) dağı ətrafında çadır qurduraraq burada törən keçirir. Dağın ətrafında yerləşən böyük və düz daşın üzərində yemək yeyərək süfrəsindəki nemətlərdən seyidlərə də paylayır. Hazırda Şah xonçası adlanan bu daş müqəddəs sayılır və hər il Novruz günü bu daşın üzərində yemək yeyilir, yığıncaqlar təşkil edilir, insanlar bir-birindən halallıq alır, küsülülər barışır.
Fəqət tarixən Novruz bayramının keçirilməsinə bir sıra hallarda qadağalar da qoyulub. Belə ki, 1826-cı ildə sultan II Mahmud Novruz bayramının keçirilməsini qadağan edir. Sonralar Cumhuriyyət dönəmində rəsmi bayramlar çərçivəsinə salınmasa da, xalq arasında əvvəlki əzəməti ilə qeyd olunur.
TBMM açıldıqdan sonra ilk Novruz 21 Mart 1921 ildə keçirilir. İstiqlal savaşı dönəmində ən möhtəşəm Novruz

törəni 22 Mart 1922-ci ildə Ankarada Taşhan meydanında qeyd olunur. Bu törəndə Mustafa Kamalın Azərbaycan, Özbəkistan, Əfqanıstan və Rusiyadan gələn nümayəndələrlə birlikdə bir çadırdan bayramı seyr etdiyi bildirilir. Bir il qabaqkı törənlə əlaqədar olaraq Atatürk 24 Mart 1921-ci ildə N.Nərimanovdan teleqraf alır: "Cənubi Qafqaz komissarı, Azərbaycan Sərbəst Hərbi Məktəb tələbələri, iki bölüklü Süvari əsgərləri, Şuşa Mühafizə Taboru əsgərləri Türk millətinin böyük Novruz bayramını təbrik edir və biz ümid edirik ki, Azərbaycan İnqilab Ordusu qəhrəman Türk ordusu ilə bərabər bu yaxınlarda Şərq millətlərini Qərb imperializminin təzyiqindən qurtararlar. Yaşasın Şərq inqilab başçılarından Mustafa Kamal" (Nəriman Nərimanov, Azərbaycan Hökumətinin başçısı).

1863-1878-ci illərdə Şərqi Türküstanda olan Şao Xun "Qərb bölgəsi haqqında şeir" adlı dörd cildli kitabında türklərin Novruz şənlikləri keçirmələrini, pəhləvan güləşlərini şövqlə anladır. Sonralar Çində diktatura rejiminin hökm sürdüyü zamanlarda uyğurlara Novruz bayramı keçirmək qadağan olunur. Belə ki, 1938-ci ildə uyğur şəhəri Ağsuda 30 min nəfərin qatıldığı Novruz törəni diktatorlar tərəfindən dağıdılır.

1922-ci ildə N.Nərimanov Genuya konfransında olduğu vaxt Kirovun əmri ilə küçələrdə Novruz bayramını qeyd edən əhaliyə atəş açılır. 1920-ci ildə Özbəkistanda qadağan edilən Novruz törənlərinin keçirilməsinə 1960-cı ildən etibarən yenidən başlanılır. 1988-ci ildə Qazaxıstanda, 1990-cı ildə Özbəkistanda Novruzun rəsmi şəkildə qeyd olunmasına icazə verilir.

İndi isə 200 ilə yaxındır ki əsarətdə olan güneyli soydaşlarımızın keçirdikləri Novruz törənlərindən bəhs edək.

Zərdüştün Türk olduğunu isbatlayan güneyli professor, görkəmli alim Mahmud Təqi Zöhtabi yazır: "Novruz bayramı adının farsca olmasına baxmayaraq Azərbaycan və Həmədan diyarında və bu yerlərin əski sakinləri tərəfindən yaranmış, həm də təbiətin yenidən canlanmasıyla əlaqədar yaranan milli bir şənlik bayramıdır. Əvvəllər bu bayram Azərbaycan və Həmədan ərazisində əsrlər boyu formalaşan Zərdüşt dini ilə bərabər və hətta ondan əvvəlki əsrlərdə yaranmağa başlamışdır. Bu bayramın ilk rüşeymləri miladdan 2500-3000 il əvvəl bu günkü Azərbaycan və Həmədan torpaqlarında yaşayıb, mədəniyyətlər

qurmuş quti-lullubi xalqları və başqa Orta Asiyadan gələn ellər və kütlələr vasitəsilə yaranmışdır”. Göründüyü kimi Zöhtabi Novruzun Ön Asiyadakı Türklərlə, Orta Asiyadan gələn türklərin törənlərinin qarışığından ibarət olduğu qənaətindədir. Fikrimizcə, bu inkaredilməz gerçəklikdir. Bilirik ki, Zərdüştilikdə od müqəddəs sayıldığından hətta nəfəsləri ilə də onu kirlətməmək üçün ağızlarını parçayla örtürdülər. Halbuki Novruz törənlərində insanlar öz mənfi enerjilərini (xalq dilində “ağırlıqlarını”) oda “verərək” ondan xilas olmağa çalışırlar. Bu isə şaman türklərinə məxsus adətdir. Görünür, müxtəlif ərazilərdə yaşayan türklərin adətləri birləşərək vahid ənənə yaradıb. Hazırda Quzey Azərbaycanda olduğu kimi güneyimizdə də Novruz törənləri adətlərə bağlı şəkildə qeyd olunur. Bayram martın 21-də başlayır və 13 gün davam edir. Qışın son günlərindən etibarən “Ev tökmək” adlanan təmizlik mərasimləri başlanır. Yas tutan qohum-əqrəbanın və tanışların evinə gedilir, həmin evin kişilərinə ağ köynək, qadınlarına isə rəngli paltarlar aparılır. Bunun mahiyyəti ondan ibarətdir ki, qohumlarının “qara paltarını” ağ ilə əvəzləyərək onları yasdan çıxarırlar. Daha sonra əgər varsa, küsülülüklərə son qoyulur, kiçiklər böyükləri ziyarət edirlər. Bayram zamanı “Novruz ağası” adlanan şəxslər evlərin damından və ya pəncərəsindən içəriyə səbət sallayaraq ev yiyəsindən pay istəyirlər, sonra isə bu payı yoxsullar arasında bölüşdürürlər. Güneydə keçirilən ən maraqlı adətlərdən biri də bayramın 13-cü günü ilə əlaqəlidir. Həmin gün kimsə evində olmaz. İnanca görə Həzrəti Adəm məhz bu gün cənnətdən qovulub, ona görə də əgər kimsə həmin gün evində olarsa, ilboyu ona dərd və müsibətlər gələcəkdir. Bir çox Türk boyları arasında geniş yayılmış “Qodu-qodu”, “Kosa-kosa”, “Tənbəl qardaş”, “Qoca gəlin” oyunları Güneydə bayram günü oynanılan tamaşalardandır. Güneyli şairimiz M.H. Şəhriyarın “Heydər babaya salam” poemasında isə bütövlükdə bir çox adətlərin real təsviri öz əksini tapıb.

Tədqiqatçı S.Soltanın yazdığına görə mərkəzi Urmiya olan Qərbi Azərbaycan əyalətinin Sulduz (adı dəyişdirilərək Nağədə olub) və ətraf rayonlarda bu bayram çox böyük şövqlə keçirilir. Aşıqlar saz çalır, insanlar türk havalarına şənlənir. Türk dünyasının başqa bölgələrində olduğu kimi, Güney Azərbaycanda da Yeni Günə hazırlıq çərşənbələr

və təmizlikdən başlayır. Bu işləri bayrama 40, 30, 15 və ya 10 gün qalanda görürlər. Məsələn, Güneyin Qoşaçay və Çayqara bölgələrində bu işlər xalı-xalçanın, pal-paltarların çay sularında durulanması ilə başlayır. Bu, gələcək günlərin təmiz olacağı inamı ilə bağlıdır. Təbrizin Dəvəçi, Qonqabaşı, Şamqazan, Yekədükanlar, Abrəsan, Qarabağlılar, Sento, Bahar, Pastur, "Çaharrahe-Şahnaz", "Tərbiyət", Qurd meydanı, Acı körpü, Abbasi, "Kuye-vəli-əsr", "Terminal", "Barnava", Bazarağzı, Saatqabağı, Xiyabani, "Şəmsül-imarə", "Vadiye-rəhmət", Ərk məhəllələrində də Bakının, Gəncənin, Şəkinin, Ordubadın, Borçalının, Lənkəranın, Dərbəndin küçələrində olduğu kimi tonqallar qalanır, "ağırlığım-uğurluğum burada qalsın" söylənilir. Yeməklərə gəldikdə isə, plovun çeşidli növləri - fisincan plov, zəriş plov, mürəssə plov, şirniyyatı ilə ad çıxarmış "Şəbüstər şirinləri", şorbalar, "Təbriz" küftəsi, rizə küftə, qarnıyarıq (badımcan dolması), "Qoşaçay" kababı, yarma aşı, işgənə, şolən və başqa ləzzətli yeməklər hazırlanır. Şirniyyatlardan isə - paxlava, bamiyə, zulbiya, tərə (halva növü), halvanın çeşidli növləri, qayğanaq (paxlavaya oxşayır), filqulağı (quşfil), qulabiyə, badambura, lətifə, kişmişli, dil ("zəban") süfrələrə yaraşıq verir. Bundan başqa Təbrizdə badımcandan tutmuş qarpızadək, eləcə də gilənardan qozadək bütün meyvələrdən mürəbbə və şərbət hazırlanır, bu nemətlər Güney Azərbaycan türklərinin bayram süfrəsinin bəzəklərindəndir. Novruz yeni günlərə olan başlanğıcdır. Bilavasitə təbiətlə əlaqəli olduğu üçün nə qədər təmtəraqlı, möhtəşəm keçirilərsə, onun enerjisi bir il ərzində yurdumuzun azadlığı üçün kömək edəcəkdir. Novruz zülmə, haqsızlığa dirənişin bayramıdır. Xalqın birlik və bərabərlik günüdür. Doğrudur, bilinən və bilinməyən səbəblər ucbatından son dönəmlər milli bayramların keçirilməsi ötən illərə nisbətdə daha passiv görünsə də, ümidə doğru addımladığımız yeni dönəmdə daha coşğuyla qutlanmalı, Türk dünyasının ortaq dəyərlərə sahib olması sərgilənməlidir.

**XVII yarpaq**

## Manilik

*Yurdumuzun görkəmli mütəfəkkiri Maninin 2014-cü ildə keçiriləcək 1800 illiyinə həsr olunur.*

**Maninin həyatı-** Yurdumuzun ünlü filosofu Maninin həyatı tarixi mənbələr əsasında bu günümüzədək gəlib çatıb. Zərdüşt peyğəmbər kimi əsl adı bəlli olmayan Mani miladın 216-cı ilində aprel ayının 14-də Mesopotomiyanın (Babilin Nahr Kutha bölgəsində) Mardinu şəhərində zəngin bir ailədə dünyaya göz açıb. Atası Pətik Babak (Patekios, Patticius, Paftiq, ərəbcə Futtuq) dindar bir şəxsiyyət olub, əsli kökü Azərbaycan-Türk dövləti olan Madayın paytaxtı Ağbatana (Həmədana) bağlı idi. Anası Mar Maryam (Məryəm) Arşaki xanədanı ilə (Arşakilərin Kamsarakan qolu) qohumluğu olan bir qadın olub. Mani (Manys, Manytos, Manentos, Manou, Manichios, Manes, Manetis, Manichaus) sözünün mənası Arami dilində "Mana" kökündən yaranıb ki, bu da "işıq" anlamındadır. Umumilikdə, "Mani" sözünün mənası elmdə "aydınladan" kimi qəbul edilir. Ağbatandan Ktesifona köçən Pətik çoxallahlı şəhər olan Ktesifonda həqiqi bir dindar olmaq istəyirdi. O, bilgəlik Tanrısı Nabuya daha çox bağlanmışdı. Pətik bir gün bu tanrı üçün edilən törənə aparılan bütün qırılmasına səbəb olan Palmiralı Sittay ilə tanış olur. Sittayla tanışlıqdan sonra Pətik onun ardınca getməli olduğunu anlayır və bu yolçuluğa baş qoyur. Bu onun üçün asan olmayacaqdı, çünki bu yolda o bir çox şeylərdən vaz keçməli idi. Sittay insan ruhunun tərbiyə edilməsinə inanan Nəsrani bir təriqətin üzvü idi. Bu təriqətin üzvləri ticarətlə məşğul olur və qatı dindarlar idilər. Pətik yaxşı bir insan olmaq istəməsindən bu təriqətə üzv olur. Maninin atası təriqətə üzv olmaqla yanaşı həm də dini islahatçı qismində də çıxış edir. Bu təriqət barədə bilgilər çox məhduddur. Əsas ayinlərindən birinin Vaftiz olduğu bəllidir. Belə ki, günahlardan

təmizlənmək üçün hər gün dəstəmaz alır, yediklərini su ilə mütləq təmizləyirlər. Ət və şərab içmək qadağan idi. Hər bir üzv onun üçün ayrılmış tarlada işləməli idi. Umumilikdə, təriqətin bu adətləri yəhudi təriqəti olan Esseneləri xatırladır. Belə ki, onlar da essenelər kimi dini inanclarını Yasa (Nomos) adlandırırdılar və yəhudi adəti olan Sabbat gününə riayət edirdilər. Bu təriqətin qaydalarına əsasən əgər Pətikin oğlu olarsa, onu anasından ayırıb onlara verməli və uşaq burada yetişməli idi. Dünyaya gələn Maninin bir ayağı axsaq olsa da, o, bu təriqətdə özünü zəkalı bir gənc kimi göstərməyə başlayır. Mani bir dəfə Malkos adlı birininin (Yolçuluq əsnasında atası öldüyündən 15 yaşınadək təriqətdə qalmalı idi.) cəzasını yüngülləşdirdiyindən Malkos daima onun yanında olmağa başlayır. Mani əvvəlcə Malkosla danışmaq istəməsə də, sonra onunla yaxınlaşmağa başlayır və onlar birlikdə ticarətlə məşğul olurlar. Bu ticarət ərəfəsində Malkos bir qızla tanış olur və Mani ilə birlikdə onun atası ilə əlaqə yaradırlar. Mani bu qızın evində rəssamlıq qabiliyyətini kəşf edir və burada olan kitabların səhifələrini bəzəməyə başlayır. Malkos 15 yaşı tamam olduğunda təriqətdən ayrılır və həmin qızla evlənərək uzaq ərazilərə gedir. Bu vaxt Maninin 12 yaşı var idi. Bu vaxtlar Mani bir su kənarına gedərək tənhalığını paylaşırdı. Belə günlərin birində Maninin suda olan əksi onunla danışmağa başlayır və Maniyə təriqətin doğru yolda olmadığını, onun insanlara kömək etməsini bildirir. Bu hadisədən sonra Mani böyük rahibin fikirlərinə qulaq asmır və oranı tezliklə tərk etmək istəyirdi, fəqət onun əksi bir az da gözləməsini bildirir. Bu müddət ərzində Mani buradakı kitabxanalardakı kitabların hamısını oxuyur və bir həkim səviyyəsinə çatır. 21 yaşına çatdığında kölgəsi ona artıq elmini dünyaya yaymasını bildirir. Mani çox çətinliklə təriqətdən ayrılır və yola düşür. Yaxın dostu Malkosu taparaq özünə qoşur və getdiyi yerlərdə düşüncələrini yaymağa başlayır.

Mani uzun illər müxtəlif ölkələri gəzərək Türküstan və Şimali Hindistanda (Deb şəhərində) maniçi yığıncaqlar qurur. Yurdumuza

qayıdanda Şapurun qardaşı Pərvizi öz inancına cəzb etməyi bacara bilir. O, ən önəmli əsərlərindən biri olan "Şapurikanı" Pərvizə ithaf edir. Pərvizin köməyilə Mani Şapurla görüşə bilir və öz ideyalarını ona anladır. 20 mart 242-ci ildə Sasani hökmdarı I Şapurun taxta çıxdığı gün (İran hökmdarlarının taxtaçıxma günü Novruzda baş verirdi.) mövcud qələbəliyə üzünü tutaraq bunları söylədi: "Necə ki, Budda Hindistana, Zərdüşt Midiyaya, İsa qərb torpaqlarına gəldi, indi də mən-Mani Həqiqi Tanrının elçisi kimi öz peyğəmbərliyimi elan edirəm". Maninin xalqa ilk çıxışında onun yanında atası Pətik və həvarilərindən Simon və Zakko da var idi.

Həkimlik qabiliyyəti sayəsində Şapur ona imperiya hüdudları daxilində görüşlərini yaymasına imkan verir. Şapurun Bizansa yürüşündə Mani onunla birlikdə olmur və bu səbəbdən aralarında soyuqluq yaranır. Belə ki, Mani Şapuru Romanı qılıncla işğal etmək fikrindən çəkindirməyə çalışır və ona bildirir ki, mən Romanı düşüncə gücü ilə zəbt edə bilərəm. Şapur onu bu fikrindən vaz keçirmək üçün böyük vədlər verir, lakin Mani qəbul etmir, Şapura bu cavabı verir: **"Sözlərim qan tökməyəcək, əlim heç vaxt silah tutmayacaqdır"**.Ona görə də sarayda yaşayan Mani oranı tərk edərək imperiyanın başqa bir əyalətinə yerləşir. Şapurun xəstələndiyi zaman Mani onu müalicə etmək istəsə də, buna imkan yaradılmır. Şapur da onunla görüşməyi arzu edir, fəqət saray münəccimləri Maninin onların dininə həqarətlə baxdığını Şapura inandırır və bu fitnə nəticəsində sonuncu dəfə əlaqə yarada bilmirlər.

Az sonra Mani yenidən gəzərgi həyat sürərək bu dəfə öz təlimini məktublar vasitəsilə yaymağa başlayır. Bu hərəkətinə görə, Mani tutularaq həbsə atılır, 274-cü ildə I Şapurun ölümündən sonra azadlığa qovuşur. I Şapurdan sonra hakimiyyətə gələn oğlu I Hörmüz Maniyə dəstək çıxsa da, onun hakimiyyəti cəmi bir il sürür. O, saray münəccimləri və Bəhram tərəfindən öldürülür. Növbəti dəfə hakimiyyətə gələn I Bəhram Zərdüşt etiqadında idi, ona görə də digər

inancların qatı düşməni idi. Bəhram "Bu adam xalqı dünyanı məhv etməyə səsləyir, ona görə də planlarını həyata keçirmədən onu məhv etmək lazımdır"-deyə fikrini bildirir. Sonuncu dəfə o, baş zərdüşti kahin Kartirin yanında Maniyə açıq-aşkar bildirir ki, onun ideyalarının İranda yayılmasına heç bir vəchlə yol verməyəcəkdir. Mənbələrdən məlum olur ki, Bəhram hakimiyyətə gəldiyi zaman, Mani ona sığınacaq verən Quşan krallığına getmək istəyir, fəqət Bet Lapatdakı sarayda şahın hüzuruna gəlməli olması əmrini alır. Maninin saraya gəlməsi böyük əks-səda doğurur. Sarayda Bəhram və Kartir Mani ilə mübahisə etməyə başlayır. Mani fars dilini yaxşı bilmədiyindən ana dili olan parf dili ilə (tərcüman vasitəsilə) müdafiə olunmağa başlayır. Həbsə atılan Mani yanvarın 19-dan fevralın 14-dək orada qalır və 276-cı ildə çarmıxa çəkilir, dərisi üzülərək parça-parça doğradılır və içinə saman doldurularaq şəhər qapısından (hələ də Mani qapısı adlanan Qundişapur qapısından) asılır. Maninin cəsədinin 3 gün orada saxlayırlar ki, onu dəfn edib məzarını ziyarətgaha çevirməsinlər. Fəqət Maninin tərəfdarları şəhər qapısından asılmış cəsədə baxaraq Mani-Hayy (Canlı Mani) deyərək ölümə meydan oxuyurlar. Bu söz o qədər məşhur olur ki, sonralar yunanlar buna uyğun olaraq Manihey sözünü və Maniheyizm terminini yaradırlar.Maninin tərəfdarları təqiblərə məruz qaldıqlarından xarici ölkələrə qaçırlar və orada Maniçiliyi təbliğ etməyə başlayırlar.

**Nəqqaş Mani-** Bir peyğəmbər, filosof, mühəndis olmaqla yanaşı Mani həmçinin dövrünün məşhur rəssamlarından olub. O, müəllifi olduğu əsərləri müxtəlif rəsm əsərləri ilə bəzəmişdir. Orta əsrlərdə Şərq dünyasında ən yaxşı rəssamlara Mani adı verilirdi. Görkəmli türk şairlərindən Nazim Həzrəti Muhamməmdi (s.a.s) vəsf edərkən bu sözləri işlədib: "Sənsən ol kim, ya Həbibullah, rəsmi-nətini, Maniyi-dil rəşki, nəqşi-Çinü Fərxar eylədi". Digər türk şairi Dərviş Paşa bu beyti yazıb: "Səqfü divari nəqşini Mani Görsə, olurdu dəngü heyran".

**Mənbələrdə Mani-** Bir filosof və nəqaş kimi Mani Şərq və Qərb fəlsəfi-ədəbi sahəsində önəmli bir iz buraxıb. İstər qərb, istərsə də şərq filosof və mütəfəkkirləri əsərlərində Maniyə və Maniliyə müəyyən qədər yer ayırıblar. Maninin filosof və rəssamlığı haqqında ərəb alimi əl-Cahiz, xristian ilahiyyatçılarından Avqustin (354-430) və Edessalı Yefrem (VI əsr), fransız rəssamı Qoqen, Şərqin dahi şair filosoflarından Firdovsi, Nizami Gəncəvi, Hafiz Şirazi və başqaları məlumatlar vermişlər. Məşhur türk alimi Biruniyə görə, Mani Fadarunun şagirdi olub, ondan zərdüştilik və xristianlığı, dualizm fəlsəfəsini öyrənib və özünü Məsihin müjdələdiyi Farqalit olduğunu elan edib. XVIII əsrə qədər Avropada Maniyə yalançı din xadimi, şarlatan kimi baxırdılar. Fəqət o zamandan etibarən aparılan yeni tədqiqatlar mövcud bilgiləri tamamilə alt-üst etdi. Məlum oldu ki, Manilik buddist əxlaqını, zərdüştilik mədəniyyətini, xristian dünyagörüşünü özündə birləşdirən bir bəşəri dindir. Xüsusilə, XX əsrdə əldə edilmiş məlumatlardan bəlli olub ki, Mani Həzrəti İsanın həyatını, həvarilərin əziyyətlərini, Marcion və Bardanes kimi qnostiklərin fəaliyyətini, xristian kilsəsinin tarixindən, onun yaşadığı olaylardan geniş bilgilər vermişdir. O, özündən əvvəlki, öndərlər kimi Zərdüştü, Nuhu, Samı, İsanı və başqalarını göstərmişdir.

**Fəlsəfi düşüncələri-** Manilik zərdüştiliyin reform edilmiş bir halıdır. Belə ki, zaman keçdikcə Zərdüştün gətirdiyi dini prinsiplər, əxlaqi dəyərlər unudulmuş, əvəzində batil inanclar yaranmışdı. Mani zərdüştiliyi islah etmək məqsədi ilə xristianlığın, buddizmin, brahmanizmin, taosizmin, əski Babil folklorunun bir sıra dəyərlərini sintez edərək sinkretik bir din yaratmışdı. Bu dinin əsasını dualizm ideyası təşkil edir. Maniliyin sadaladığımız dinlərin ünsürlərini özündə əks etdirməsi bu dinin geniş bir coğrafiyaya yayılmasına səbəb olmuşdu. Belə ki, Mesopotomiya, İran ərazisində yaradılmış manilik tezliklə, Şimali Afrika, İspaniya, Fransa, Şimali İtaliya, Balkan yarımadasına, Çinə, Türküstan ərazilərinə, Şimali Hindistana qədər geniş ərazini əhatə edirdi.

Qeyd etdik ki,Mani öz ideyalarını həyata keçirtmək üçün Farqalit (Paracletos) adlandırdığı kölgəsindən əmr alıb. Ərəb tarixçisi Ən-Nədimə görə, bu kölgə ət-Taum (əkiz mənasını ifadə edən nəbaticə bir anlayış) adlı bir mələk olub və bu mələk Manini insanları aydınlatmağa səsləyən Farqalitdir. Farqalit termini Yuhanna İncilində (Yuhanna XIV/16,26 - XV/26 - XVI/7) qeyd olunub və Həzrəti İsanın dilində "təsəlliverici" şəklində işlənib. Mani Həzrəti İsa kimi öz fikirlərini gəzərgi həvarilər vasitəsilə yaymağa çalışmışdır. O, digər din mənsublarına hörmətlə yanaşmış, onların dini inanclarına həqarətlə baxmamışdır. Maniyə "bizim dinimizdə yaxın qohumlarla (ana, bacı ilə nigah) evlənmək müqəddəs adət sayıldığı halda sən bunları çirkin əməl hesab edirsən" deyənlərə o, "mən sizin dininizə hörmət edirəm" cavabını vermişdi.

Mani öz dini fəlsəfi əsərlərini yaratdığı Soqd əlifbası ilə (Bu əlifbada 18 hərf vardır-3-ü səssiz, 15-i səsli- və sağdan sola yazılır.) yazmışdır və bir neçə kitabın, o cümlədən 76 risalənin müəllifidir.Onun əsərləri aşağıdakılardır:

- **Ərjəng**- müxtəlif rəsmlər toplusundan təşkil olunubdur.
- **Sahberden**- bu kitabda pis insanlardan və onları aldadan Əhriməndən bəhs edilir.
- **Sendokojine**- yaxşılıqdan və yaxşı insanlardan söz açılır.
- **Riya Rast**- doğru yolu və doğru olanları göstərir.
- **Olperesti**- inanc, düşüncə və qəlb təmizliyindən bəhs edilir.
- **Veşarti**- mövcud və keçmiş dinlərdən, peyğəmbərlərdən danışılır.
- **Nivista Qernasa**- tanınmış insanlardan, pəhləvanlardan, qəhrəmanlardan bəhs edilir.

- **Mani Yevangeliyası-** əsər 22 hissəyə bölünür.
- **Şapurakan-** "Şapurun kitabı" anlamındadır və orta fars dilində yazılmışdır.

1931-ci ildə Misirdə 2 min vərəq həcmində 7 kitabda soqd əlifbası və qibti dilində yazılmış maniçi ədəbiyyat tapılıb. Maninin fikrincə, Zərdüşt, Budda və İsanın müvəffəq olmamalarının səbəbi öz təlimlərini yazıya köçürməmələridir.Ona görə də, Mani xalqın başa düşə biləcəyi formada əsərlər yazaraq öz təlimini yaymışdır.

**Dualizm**-Zərdüştilikdə olduğu kimi manilikdə də hər bir şeyin əsasında Nur və Zülmət dayanır. Dünya nurla zülmətin qarışığından yaranıb. İnsanın ruhu nurdan, bədəni isə zülmətdən törənib. Ona görə də insan qatı asketik (tərki-dünya ) həyat tərzi sürərək nuru zülmətdən ayırmalıdır. Var-dövlət, şan-şöhrət hərisliklərini pisləyən Maniçilər insanları nigaha girməməyə, zahid həyat sürməyə səsləyirdilər. Onlar İlahi Varlığı qəbul edir, Axirətə, göylərdəki Əbədi Səltənətə inanırdılar. Zərdüştilikdən fərqli olaraq Maniçilər Xeyirin Şər üzərindəki qələbəsinə inanmırdılar. Onların fikrincə, dünya şərdən yaradıldığına görə (yəni mənəvi yox, maddi olduğuna görə), Xeyir səltənəti yalnız göylərdə qurulacaq. Ona görə də, Maniçilər bu dünyanın ləzzətlərindən əl çəkərək, səadətə qovuşmağa çalışırdılar.

**Umumilikdə, Maniçilər 2 təbəqəyə ayrılırdılar:**

1. **Yetkinlər-** Bu insanlar müxtəlif mərhələlərdən və ayinlərdən uğurla keçərək, sonucda qəlblərini İlahi İşıqla aydınladırlar. Bu xoşbəxtliyə nail olanlar İlahi İşığı dünyəvi şeylərlə kirlətmir, o cümlədən evlənmir, var-dövlət sahibi olmur, ət yemir, şərab içmirlər. Hətta çörəyi doğramaq da onlar üçün qadağan idi. Yetkinlərin həyatı gündəlik yeməkləri və paltarları ilə birgə gəzərgi həyat sürməkdən ibarət idi. Onlar həyatda **üç möhürə** məhkum edilmişdilər: ağız, əl və qəlb möhürləri. Birinci möhür bütün pis yeməkləri və pis sözləri qadağan edərdi. İkinci möhür canlı varlıqların içində mövcud olan işığa

verilə bilən hər cür zərəri dəf etmək üçün və eyni zamanda adam və heyvan öldürməyə, hətta meyvə qopartmağa qarşı idi. Üçüncü möhür Maniçilik inancına və təmizliyinə qarşı olan hər cür düşüncəni qadağan etmişdi. Bu üç möhür indi də deyimlərimizdə "əlinə, dilinə və belinə sahib ol" kimi işlənir. Yetkinlərə qadınlar da daxil edilirdi. Yetkinlərin bu həyatı buddist keşişlərinin həyat tərzinə çox bənzəyirdi, yeganə fərq yetkinlərin daimi qaldıqları müəyyən bir yerin olmaması idi.

2. **Dinləyənlər-** bunlar dinə kor-koranə inananlar idi və sayları təbii ki, yetkinlərdən çox idi. Bunlar Maninin 10 əmrinə tabe olanlar idi:

- ✓ Yaşanılmış zamana inanmaq
- ✓ Çoxallahlılıq dövrünün olduğuna inanmaq
- ✓ Özünü yalan danışmaqdan qorumaq
- ✓ Pis insan olmamaq
- ✓ Ət yeməmək
- ✓ Özgəsinin namusuna pis gözlə baxmamaq
- ✓ Oğurluq etməmək
- ✓ Oxumaq, sehrlə həqiqəti tanıyaraq bunları bir-birindən ayırmaq
- ✓ Əhali içərisində inanclı olmaq
- ✓ İşində yavaş və etinasız olmamaq

Bu on əmr bütpərəstliyi, namussuzluğu, qətli, zinanı, oğurluğu, yalançılığı, sehrbazlığı, ikiüzlülüyü və dinə xəyanəti qadağan edirdi. Dinləyənlər yetkinlərə (və ya seçilmişlərə) hörmət etməli, onların qarşısında diz çökməli idilər. Bunun müqabilində yetkinlərdən meyvə və göy-göyərti alardılar. Maniçilikdə ibadət günorta, axşamüstü, gün batdıqda və günün batmasından 3 saat sonra olmaqla gündə 4 dəfə (Əslində namaz 7 dəfə idi, fəqət insanlar 4-nü yerinə yetirirdi.) edilirdi. Gündüz duaları Günəşə, gecə duaları isə Aya baxaraq edilirdi. Ay və Günəşin olmadığı zamanlarda isə üzlərini Şimala doğru tuturdular. Duadan əvvəl təmizlənmək üçün sudan, olmadıqda isə torpaqdan istifadə olunurdu. Həftənin ilk günü Günəşin şərəfinə hamı oruc tutmalı idi. Yetkinlər isə həftənin ikinci günü Ayın şərəfinə də oruc tutardılar. Eyni zamanda hamı hər yeni ayda iki gün oruc tutmalı idi. Manilikdə 3 möhürlə yanaşı mövcud olan **5 buyruğun** əvvəlində 100

günlük orucluq dayanırdı. Yetkinlər öldükdən sonra mütləq cənnətə qovuşacaqlar, dinləyənlər isə müəyyən bir mərhələdən sonra səadətə çatacaqlar. Ölümdən sonra İlahi Məhkəmənin olduğu qəbul edilir. Maniyə görə, keçmiş, indi və gələcək zamanın mənbəyində də nur və zülmət dayanır.

**Bema mərasimi-**Maninin ölüm gününə həsr olunurdu və çoxlu dualar edilməklə, müqəddəs yazılar oxumaqla qeyd olunurdu. Bu ayin barədə yetərli bilgilər mövcud deyildir. Məlum olan 5 pilləli bir sahənin üstünə boş taxtın qoyulmasıdır. Eyni zamanda Maniçilikdə keçirilmə qaydası bizə gəlib çatmayan Vaftiz ayini də mövcud olub.

Manilikdə insanlara rəhbərlik etmək üçün Mani tərəfindən təlimatlandırılmış bir öndər dayanır. Bu öndərdən sonra 5 təbəqə özünə yer alır. Bunlar 12 müəllim, 72 keşiş, 360 ağsaqqal, yetkinlər və dinləyənlərdir.

**Tanrı və Şeytan-** Mani dualizmində İşıq Tanrının, qaranlıq isə Şeytanın simvolu hesab edilir. Zülmət və nurun bir-birilərinə münasibətdə heç birinin üstünlüyü yoxdur. Qaranlıq və İşıq özlərindən üstün bir qüvvə tərəfindən yaradılmayıb və heç biri daha əvvəl olmayıb. Zülmət dünyada **Arkon**lar adlanan varlıqlar mövcuddur ki, bunlar İblisin əsgərləri hesab edilir və hər cür pisliyi törədirlər. Manilikdə **"Üç an"** adlanan kosmoloji bölgü vardır ki, buraya keçmiş, mövcud və gələcək zaman daxildir. Keçmiş zamanda zülmət və nur bir-birilərinə qarşı olmayıb, ayrı-ayrı dünyalar vəziyyətində idi. Mövcud indiki zaman maddi olanın mənəvi olana hücumu ilə başlanmış və bu hal hazırda da davam edir. Kosmosun yaranması bilavasitə bu hadisə ilə əlaqədardır. Qaranlıq işığa hücum edərkən kosmos yaranmış və kosmos nə xeyir, nə də şərdir, o bir qarmaqarışıqlıq, xaos anlamındadır. Gələcək zamanda zülmət və nur əvvəlki kimi bir-birilərindən ayrılacaqdır ki, bu da kosmosun sonu olacaqdır. İnsan nə qədər pislik edərsə, dünyadakı qarmaqarışıqlıq, xaos çoxalacaq, əks halda bu proses çözüləcəkdir.

Zərdüştiliyin monist ideyasının tam əksinə olaraq manilikdə xeyir və şər anlayışları tamamilə dualist xarakterlidir. Belə ki, Zərdüştilikdə xeyir və şəri bilgəlik Tanrısı Ahura Mazda (Hörmüzd) yaratmışdır, Manilikdə isə hər iki qüvvə əbədidir, onları heç bir üstün varlıq yaratmayıb və bir-birilərindən asılı deyillər. Maniliyə görə, dünyanın sonu gəldiyi zaman böyük bir savaşdan sonra İsa (ə) yenidən dünyaya gələcək, məhkəmə kürsüsü qurulacaq, yaxşılar pislərdən ayırd ediləcəkdir. Bu hadisədən sonra dünya atəşlə yox ediləcəkdir. Bu atəş 1468 il davam edəcəkdir, ta ki sonuncu şər maddə də aydınlıqdan ayrılaraq yox olsun. Manilikdə hər cür pisliyi, şəri yaradanlar Div adlandırılıb.

**Maniliyin yayılması-** Roma və Sasanilərin kəskin müdaxiləsinə baxmayaraq manilik tezliklə qərbə və şərqə yol almağa başlayır. IV əsrdən etibarən şərqi İrana yayılan Manilik Böyük İpək yolu vasitəsilə Əfqanıstana və Tarım hövzəsinədək genişlənir. 762-ci ildə Uyğur dövlətinin rəsmi dövlət dini olduqdan sonra Manilik Çinə doğru genişlənməyə başlayır. IX əsrdə Uyğur dövlətinin yox olmasından sona ta Çingiz xanın zamanınadək Tarım hövzəsində öz mövqeyini qoruyub saxlayır. Çində isə ölkənin güney ərazilərinə qədər yayılır. Çinin Fukien əyalətində XVI yüzillikdə də maniliyə rast gəlinir. Əl-Biruni haqlı olaraq qeyd edir ki, "Şərq türklərinin böyük bir hissəsi, Çin və Tibetdə yaşayanlar və Hindistanın bir hissəsi Mani dininə etiqad edirlər". Əməvilərin zamanında xilafətdən heç bir zərər görməyən Maniçilər İraqın bir çox kəndlərinə yayılırlar, fəqət Abbasilərin zamanında "zındıq" adı altında təqib olunmağa başlayırlar. Bu təzyiqlər nəticəsində Maniçilər Xorasana və dinin geniş yayıldığı Uyğur torpaqlarına köç etməyə başlayırlar. Xristianlıq tərəfindən qəbul edilməyən "Tomas İncili", "Addas təlimləri" və "Hermesin Çobanı" kimi İncil mətnləri Manilik tərəfindən qəbul edildiyindən Tomas, Addas ve Hermesin Maniliyin həvariləri olduğu fikrini yaranır. Addasın Şərqdə, Tomasın Suriyada və Hermesin Misirdə həvarilik etməsi qeyd olunur.

Maniçiliyin Fələstində mövcud olması haqqında da bilgilər bəllidir. Müqəddəs. Efrem 378-ci ildə Maniliyin Mesopotomiyadan başqa heç bir ölkədə daha güclü olmadığına heyfslənirdi. Edessada (Urfada) 450-ci ildə güclü bir maniçi yığıncağın olması məlumdur. Emesuslu Eusebiusun, Laodicealı Georgeunun, Tarsuslu Diodorun, Antakyalı Chrysostomusun, Salamisli Epifanın və Bostralı Titin Maniçiliyə qarşı mübarizə aparmaları barədə bilgilər mövcuddur. Bütün bunlar Maniçiliyin xristianlıq üçün necə bir təhlükə törətdiyindən xəbər verir. Manilik xristianlıq üzərindəki mübarizəsində ən böyük nailiyyətini Misirdə qazanır. Belə ki, imperator Konstantin zamanında İskəndəriyyə valisi buradakı xristian rahiblərinə sərt divan tutmuşdu. 375-400-cü illərdə Manilik Şərqi Romada böyük nüfuz qazandı və sonra sürətlə geriləməyə başladı.VI əsrdə manilik yenidən dirçəlməyə başlasa da, imperator Yustinian tərəfindən qarşısı alınır.

X əsrdə Türküstan ərazilərindəki maniçilərə **Acari** adı verilmişdi. Miladın 694-cü ilindən etibarən manilik Çinə daxil olmağa başladı. XIX əsrdən bu yana Çinin Dunhuanq şəhəri yaxınlığındakı Moqao Mağaraları və Xinjianqın Turfan bölgəsində Maniliyə aid dini kitablar və bəlgələr maniliyin Çinin şimal qərbinə qədər yayıldığını göstərir. XX əsrdən etibarən Turfan vadisində aparılan arxeoloji qazıntılar zamanı orta fars dilində, o cümlədən parfiya və soqd dilində maniliyə aid ədəbiyyatlar tapılmışdır.

Bu ədəbiyyatlar X əsrə qədər soqdi maniləri tərəfindən qələmə alınıb. Buradan tapılmış əlyazmalar 618-907-ci illərə aiddir. Maniliyin xristianlıq üzərindəki qələbəsi tez bir zamanda kilsəyə nifrət edən insanların inamına çevrildi. Maniliyin qərbdəki əsas yurdu Şimali Afrika idi. Manidən sonra gələn və ikinci Farqalit adlanan Adimantus da burada yaşamışdır. Maniliyin buradakı öndərlərindən biri IV əsrin sonlarında yaşamış Mileveli Faustdur. Milevede yoxsul bir ailədə dünyaya göz açan Faust gəncliyində Romaya getmiş və orada maniliyi qəbul etmişdi. Yüksək intellektə sahib olmasa da, insanları özünə cəlb

edəcək natiqlik qabiliyyətinə malik idi. Manilər arasında böyük nüfuz sahibi olan Faust 383-cü ildə Kartacaya köç etdiyi zaman xristianlar tərəfindən həbs edilir, lakin heç bir cəza verilmədən azad edilir. 400-cü ildə Maniliyin prinsiplərindən bəhs edən bir kitab yazır, bunun əleyhinə xristian filosoflarından Avqustin 33 cildlik bir tənqidlə cavab verir. Faustun sonrakı taleyi barədə heç bir bilgi məlum deyildir. Avqustinin sonrakı 20 illik fəaliyyətində Manilik haqqında heç bir söz etməməsi bu dinin artıq öz mövqeyini itirməsindən xəbər verir. Vandallar Afrikanı ələ keçirərkən Maniçilər **Arius** məzhəbinə etiqad edən vandalları öz tərəflərinə çəkməyə çalışmışlar. 427-484-cü illərdə hökmdarlıq edən kral **Huneric** bu prosesə qarşı çıxmış və Şimali Afrikadakı Maniçilərin bir qismini sürgün etmiş, digərlərini isə məhv etmişdir.

Maniliyin qərbdəki əsas mərkəzlərindən biri də Roma şəhəri olub. 311-314-cü illər arasınada papalıq edən Miltiad **"Liber Pontificalis"** adlı əsərində Romadakı Maniçilərdən bəhs edib. İmperator Valentianın 372-ci ildə verdiyi fərmanda bütün Maniçilərin bir yerə toplanmasını bildirmişdir. 384-388-ci illər arasında Romada **"Martari"** adında yeni bir Maniçi təriqət yaradıldı. Bu təriqətin əsas məqsədi yetkin manilərin bir monastr ətrafında birləşdirmək və gəzərgi fəaliyyətinə son qoymaq idi. Fəqət digər maniçilər tərəfindən kəskin etirazla qarşılandılar. VI əsrdən etibarən qərbdə Manilik demək olar ki, tamamilə yox oldu. Sonralar bu ərazilərdə dualist təriqətlər, xristianlığa qarşı gizli birliklər yaransa da, bunların heç biri bilavasitə maniliklə əlaqədar olmamışdır.

Manilik xristianlıqdan 255 il sonra yaranmasına baxmayaraq tezliklə xristianlığın ən böyük rəqibinə çevrildi. Kilsə itirilən nüfuzunu bərpa etmək nüçün əmrlər, buyruqlar verərək və dualist inancın əleyhinə çıxışlar edərək Maniliyin qərbdəki yayılışının qarşısını almağa çalışırdı. Kilsənin bu təbliğatından biri də Maniçi ədəbiyyatların məhv edilməsi idi. Miladın 279-cu ilində Roma imperatoru Diokletian İskəndəriyyə şəhərindəki Maniçi ədəbiyyatların yandırılmasını əmr edir.

Xristianlığın Maniçiliyə qarşı çıxmasının bir səbəbi də Maninin İncildəki İsanı yalançı adlandırmasıdır. Onun fikrincə, bu şəxs əsl İsanın səlahiyyətlərinə təcavüz etmiş, Allahla insan təbiətini özündə birləşdirməyə qoymamışdır. Məhz bu səbəbdən gerçək İsanın səlahiyyətlərinin davamçısı olaraq Allah Manini göndərmişdir. Eyni zamanda Maniçilər İsanın Allahın oğlu olması fikrini cəfəngiyyat hesab edirdilər. Çünki Maniçilik inancına əsasən insanın bədəni maddi olduğuna görə şərdən yaranıb və şərdən törənmiş vücuda sahib olan insan əsla Tanrının oğlu ola bilməz.

**Maniliyin sonu-** Digər dinlərdən fərqli olaraq Maniçilik heç bir zaman sosial-siyasi xarakter daşımayıb. Belə ki, Maniçilik yayıldığı ərazilərdə xalqın sosial durumuna, siyasi proseslərə müdaxilə etməmiş və dinin fəlsəfəsindən də aydın göründüyü kimi insanları bu dünyada baş verən olaylardan qurtulub tərki-dünya həyat tərzi sürməyə səsləmişlər. Maniçiliyin bir din olaraq öz nüfuzunu itirməsi məhz bu amillərlə əlaqədardır. Maniçiliyin yayıldığı dönəmlərdə həm Sasani, həm də Roma imperiyasında ağır müharibələr baş alıb gedirdi, qarətçi yürüşlər günü-gündən çoxalırdı. Belə bir vəziyyətdə Maniçi missionerlər və öndərlər xalqa heç bir çıxış yolu göstərmirdilər. Maniliyin pessimist xarakter daşıması, insanları tamamilə dünyadan təcrid etməsi onun sürətlə nüfuzunun enişinə səbəb oldu.

**XVIII yarpaq**

## Məzdək Bəmdad oğlu

Zərdüşt və Maninin ideyalarını yenidən reform edən Məzdək Bəmdad oğlu klassik feodal cəmiyyətində indiyədək kimsənin cürət etmədiyi baxışlarla çıxış etdi. Nəyə görəsə, Qərb dünyasının hələ əsrlər sonra düşünəbiləcəkləri dəyərləri daha öncə qəbul etdirməyə çalışan Məzdəkin adı mənbələrdə yalnız "ümumi qadın" fikrini ön plana çəkən

bir "zındıq" kimi çəkilib. Ümumiyyətlə, ərəb-fars tarixçiləri bu cür məsələlərə xüsusilə önəm verirdilər. Babəkin 20 ildən artıq apardığı azadlıq mübarizəsini detalları ilə yazmaqdansa, onların qadınlı kişili nə iləsə məşğul olduqlarını özlərinin elmlərinə daha çox layiq bilirdilər. Yəni kimi nə maraqlandırırsa, ondan yazmaq daha rahat olur. Ona görə də, Məzdək Bəmdad oğlunun teoloji sosial baxışlarına xüsusi yer verəcəyik.

**Teoloji baxış**-Məzdəkiliyə görə başlanğıc ikili xarakterlidir. Aydınlıq elmdir, Qaranlıq isə cəhalətdir. Hər ikisinin öz himayəçisi vardır. İşığı, aydınlığı Tanrı, qaranlığı isə Şeytan təmsil edir. Tanrı ən ali qüvvədir və onun qarşısında dörd güc dayanır: Mühakimə etmə (Tamyiz), Anlamaq (Fəhm), Qorumaq (Hifz), Sevinmək (Sürur).Və Tanrı bu dörd gücü layiq olduğu şəxslərə verib: **Möbidlər möbidin**ə baş hakimliyi, **Herbad**a anlamağı, **Spahbed**ə qoşun başçılığını, **Ramişqar**a sevinci. Bu dörd seçilmiş 12 ruhi qüvvənin yaratmış olduqları dairənin içindəki 7 vəzirlə dünyanı idarə edirlər. Bütün bu keyfiyyətlər bir insanda toplaşarsa, o insan ilahi qüvvəyə sahib olacaqdır. Qiyamət gününə, axirətə, ilahi məhkəməyə inam digər dinlər kimi bu idealogiyanın da əsasını təşkil edir. Onlara görə, Qiyamət günü anlayışı əslində yenidən doğuluş, yəni ruhun bir bədəndən digərinə keçməsidir (reinkarnasiya, tənasüx).

**Sosial baxış**-Orta əsr feodal dünyasında sosial bərabərsizliyə qarşı baş qaldırmış bir çox hərəkatların əsasında müəyyən dini baxışlar dayanmaqdadır. Qərb dünyasında bu cür hərəkatlar bidətçi təriqətlər formasında xarakterizə olunur. Çünki feodalizm dövründə zülmün mənbəyində dövlətlə yanaşı, din və din xadimləri də dayanırdı. Ona görə də, hərəkatlar həm dövlətə, həm də dinə qarşı çıxışları özündə ehtiva edirdi. Bir sıra tarixçilərin ilk "kommunist" hesab etdikləri Məzdəkə görə "Tanrı torpaqdakı məhsulu və digər insana gərəkli olan şeyləri cəmiyyətdə bərabər şəkildə bölüşdürülməsi məqsədilə yaradıb. Heç bir şəxs digərindən artıq pay almamalıdır. İnsanlar bir-birilərinə

qarşı düzgün davranmayaraq bir-birilərindən asılı vəziyyətə düşüblər. Güclü zəifi əzərək həm malını, həm də yaşamaq hüququnu əlindən alıb. Mülkiyyət baxımından hər kəsin bərabər olması üçün mütləq bir şəxsin ayağa qalxaraq varlılardan alıb yoxsullara verməsi lazımdır. Hər kim olursa olsun, heç kəsin digərindən artıq var-dövlətə, mülkə və birdən artıq qadına sahib olmağa haqqı yoxdur".

Məlumdur ki, Sasanilər zamanında zərdüşti rahiblər atəşgədələrin ətafında yerləşən geniş ərazilərin sahibi hesab edilirdilər. Ona görə də, Məzdəkin sosial bərabərlik ideyaları onların "dinlərinə" uyğun deyildi və buna görə də Məzdəkiliyə qarşı mübarizənin labüdlüyünü düşünürdülər.

Məzdəkiliyə görə, insanlar azad yaradılıb və hər bir şey Tanrı tərəfindən onlar arasında bərabər bölünü. Birinin digərinin üzərində heç bir hüquqi, siyasi, sosial üstünlüyü yoxdur. İnsanlara zərər vermək günah anlayışına daxildir. İnsan yalnız haqsızlığa qarşı baş qaldırarkən qan tökə bilər, digər hallarda bu qəti şəkildə qadağandır. İnsanlar bir-birilərinə qarşı xoş fikirlər düşünməli, başqalarına zərər vermədən Tanrının onlara verdiyi hər cür zövqlə, əyləncə ilə məşğul olmaq hüququna sahib olmalıdır.

İnsanın daxili və zahiri təmiz olmalı, evlilik, andiçmə və bir sıra dini törənlərdə şərab və çörəkdən istifadə edilməlidir. Heyvanları öldürmək və onların ətindən istifadə qadağandır. Məzdəkə görə, insanları fəlakətə, hərisliyə sürükləyən yalnız iki şeydir: Sərvət və qadın. Ona görə də onların ortaq olması bu problemləri tamamilə aradan qaldıracaqdır. Manidən fərqli olaraq Məzdəkə görə, sosial bərabərliyin Tanrının köməyilə bu dünyada qurulması mümkündür. Bunun üçün istismarçılara qarşı fəal mübarizə aparılmalıdır.

**Hərəkatın başlanması-**Kəndlilərin istismarı, onların əmlakının müsadirə edilməsi iri feodalların güclənməsinə, dövlət xəzinəsinin boşalmasına və bunun sonucunda imperiyanın zəifləməsi prosesinin

kəskin xarakter almasına səbəb olmuşdu. İri fodallardan ehtiyat edən I Qubad (488-528) 481-ci ildən fəal mübarizəyə keçən Məzdak Bəmdad oğlundan dəstək istəyir və bir müddət onların fikirləri ilə hərəkət etməyə məcbur olur. Belə ki, qıtlıq zamanı Məzdəkin məsləhəti ilə, Qubad dövlətin taxıl anbarlarını xalqın istifadəsinə verir. Çünki, Məzdəkə görə, hər kəs Adəmin nəslindəndir və bir-birilərinə yardım etməlidirlər ki, heç kəs aclıq hissini duymasın. İmperiyada yaranmış böhrandan çıxış yolu tapmayan Qubad çarəni Ağ Hun imperatorluğuna sığınmaqda görür. Bunun müqabilində Ağ Hun imperatoru 499-cu ildə 30 min nəfərlik suvaridən ibarət qoşunu İrana göndərir. Az sonra güclənən Qubad artıq Məzdəkilərə ehtiyacı olmadığından köhnə dostlarına qarşı (ənənəvi fars riyakarlığı) mübarizəyə başlayır. Məzdəkilərə qarşı aparılan bu mübarizə Qubadın oğlu I Xosrovun (528-575) zamanında daha kəskin xarakter alır və 529-cu ildə Məzdək edam edilərək öldürülür və 80 min məzdəki qətlə yetirilir.

Lakin məzdəkilik ideyaları 200 il müddətində öz varlığını qoruyub saxlaya bilir. Belə ki, İslam dininin geniş vüsət aldığı dövrlərdə də Azərbaycan, Xorasan, Soqdiana, Gürgan, Kirman, İsfahan, Əhvaz, Təbəristan kimi ərazilərdə hələ də onun nümayəndələri və toplulukları yaşayırdı. Nizamülmülk VIII əsr hadisələrindən danışarkən İran əhalisinin yarıdan çoxunun məzdəki və rafizi inancında olduqlarını qeyd edir.

### XIX yarpaq

## Kadusilər talışların əcdadıdırmı?

Qədim Azərbaycanın və İkiçayarası torpaqların tarixi olduqca qaranlıq və ziddiyyətlidir. Təsadüfi deyil ki, 6 min il bundan əvvəl də hər iki regionda sabitlik, əmin-amanlıq hökm sürmürdü, indinin özündə də.

Bunun səbəbi qədim dövrlərdə bir-birinə qonşu olan tayfaların və dövlət qurumlarının hegemonluq üzrə apardıqları mübarizə idisə, bu gün bu xalqların hamısı demək olar ki, həm ümumi düşmənlərinə qarşı, həm də ki daxildə bir-biri ilə mübarizə aparmaqdadır.

Tarixən bu regionlarda dövlət sərhədləri tez-tez dəyişildiyi, müxtəlif dövlətlərin yaranıb süquta uğraması baş verdiyi üçün xalqlar iç-içə yaşamağa məcbur olmuş, bir-birinin mədəniyyətini əxz eləmişlər. Bu baxımdan miladdan öncə V-I minilliklər arasında yaşamış tayfaların bu gün hansı xalqların əcdadı olması qeyri-dəqiqdir və buna görə də müxtəlif mülahizələrin yaranmasına səbəb olub. Hazırda tarix elmində qədim xalqların kimliyinin araşdırılmasında bir sıra metodlardan istifadə edilir və bunlardan ən dəqiqi maddi-mədəniyyət nümunələri əsasında araşdırmadır. Digər metod toponimlərin, etnonimlərin etimologiyasının düzgün açılmasıdır. Kimliyi bu gün də dəqiq bilinməyən qədim Azərbaycan tayfalarından biri də tarixdə özünəməxsus rolu olan kadusilərdir.

Bu mövzuya toxunmağımızın səbəbi yaxın vaxtlarda çapdan çıxmış Həşim Kəlbiyevlə, İqbal Ağayevin birlikdə yazmış olduqları **"Kadusilərin, qədim talışların Azərbaycan tarixində yeri"** kitabını mütaliə etməmiz oldu. İlk öncə xüsusi vurğulamaq lazımdır ki, kitab heç də talışların kadusilərin nəsli olması konteksindən araşdırılmayıb, kitabda üstünlük daha çox kaspilərlə kadusilərin eyni xalq olması və kadusilərin dövrün hegemon imperiyaları ilə münasibətlərinə verilib. Müəllif sadəcə bir ifadədən yola çıxaraq kadusilərlə talışları eyniləşdirir və sübutlarında İran tarixçilərinin, və hazırda Azərbaycan tarixçiləri içərisində qəbul olunmayan imperiya siyasəti altında işləmiş (Əhməd Kəsrəvi, İqrar Əliyev, Dyakonov,) tarixçilərin əsərlərinə istinad edilib. Və bu da özlüyündə tədqiqat işinin qeyri-səmimiliyindən xəbər verir.

Əlbəttə ki, biz tariximizin öyrənilməsi və doğru düzgün araşdırılması üçün səy göstərən bütün tədqiqatçıları dəstəkləyirik. Azərbaycan

tarixən müxtəlif xalqların yaşadığı region olub və heç bir zaman etnik zəmində münaqişələrin yaranmasına imkan verilməyib. Dövlətin apardığı siyasət həmişə etniklərin hüquq və azadlıqlarının qorunmasına zərbə vurmayıb, əksinə onların öz dillərinə təhsil almalarına, adət və mədəniyyətlərini, tarixlərini öyrənmələrinə şərait yaradılıb. Ona görə də bir Azərbaycan vətəndaşı kimi bizim məqsədimiz heç də türkçülük duyğularına qapılaraq sizin konsepsiyanızı mütləq şəkildə inkar etmək deyil, sadəcə fikir mübadiləsi aparmaqdır.

Hörmətli Həşim bəy, ilk olaraq onu qeyd etmək istəyirəm ki, kitabınızı dəfələrlə oxumağıma baxmayaraq orada kadusilərin talışların əcdadı ola biləcək heç bir ağlabatan dəlilə rast gəlmədik. "Kadusilər haqqında tarixi-coğrafi" məlumatlar adlı fəsildə kadusilərin kaspilərin nəsli olmasını bildirir və dolayısı ilə kaspi tayfalarını da talışların ulu əcdadı və nəhayətində irandilli tayfa hesab edirsiniz. Kitabınızın 26-cı səhifəsində isə yazırsınız: **"Bizə məlum olan kassi-kaspi-kadusi şəxs adlarının və qaynaqlarda onlara məxsus olan sözlərin əksəriyyətinin Hind-Avropa-İran mənşəli olmasını dünyanın, o cümlədən Azərbaycan tədqiqatçılarının əksəriyyəti təsdiq edirlər".**

Cənab Kəlbiyev, kassilərin kaspilərin əcdadı olması fikrində haqlınız, lakin kassi-kaspi-kadusi şəxs adlarının hind-avropa mənşəli olmasını və üstəlik dünya tarixçilərinin bunu qəbul etməsini qeyd etməyiniz tamamilə yanlışdır. Birincisi, bir tarixçi kimi fikir irəli sürürsünüzsə, bunu sübutunu da göstərməlisiniz, yəni heç olmasa bir kassi şəxs adını çəkərək, onu hind-avropa dillləri əsasında açılışını verməli idiniz. Lakin biz buna əsərinizdə rast gəlmədik və dünya tarixçilərinin də bu fikirdə olmadığını sizə isbat edəcəyik. Bunu üçün tarixdə özünəməxsus rol oynamış 5 Kassi hökmdarının adını təqdim edirik:

1. **Qandaş- e.ə. 1720-1700**
2. **Qara- İndaş- e.ə 1445-1427**
3. **Qara- Hardaş- e.ə 1347-1346**

4. **Kadaşman Turqu- e.ə 1297-1279**
5. **Kadaşman Enlil- e.ə 1279-1264**

Bu hökmdar adlarını diqqətlə nəzərdən keçirin. "Qara" kəlməsi orta əsr türk xaqanlarının adlarında da (Göktürk xaqanı Qara Kiəli xaqan, Qaraqoyunlu Qara Yusif və s.) işlənir və ən əsası dördüncü hökmdarın adındakı "turqu" ifadəsi sizə bir şey demirmi? Bu hökmdarlar kassilərin ən qüdrətli dövrünün hakimləridir və ona görə də adları öz dillərindədir. Təsadüfi deyil ki, son Kassi hökmdarlarının adlarından bəziləri akkad mənşəlidir. Üstəlik kassi tanrılarının (Şimaliya, Harbe, Şukamuna, Kaşşu, Şixu, Sax, Suriaş, Qidar, Dur, Kamulda, Mirizir, İmmiriya) adları da şumer və türk dillərində izah olunur.

Onu da nəzərinizə çatdıraq ki, kassilərin önəmli bir tayfası karzi-yabqu adlanır ki, buradakı "yabqu" sözü türk yabğuları (orta əsr türk xaqanlıqlarında hökmdar titulu) ilə əsaslı şəkildə səsləşir: Dib-Yabku, Tokuz-Yabku və s. Üstəlik kassilərdə hökmdarın titulu olan "yanzu" ifadəsi də şumer dilində izah olunur (ağıllı öndər anlamındadır) və digər türk dövləti olan Manna hökmdarları da bu titulla tanınırlar. Sonralar bir sıra türk xalqlarının adında kas sözü geniş şəkildə yayılır. Bunlara misal olaraq kırkas (indi qırğız), xakas, kasax (sonralar qazax), kasar (sonralar xəzər) və nəhayət Azərbaycanın həm şimal, həm də cənub hissəsində - Dərbənd ətrafında, Mildə, Kürün Arazla birləşdiyi yerdən Xəzərə qədərki ərazilərdə yaşayan kaspilər. Üstəlik türklərin yaşadıqları coğrafi ərazilərin bəziləri də kas kəlməsi ilə yaranıb: Kaşqar, Kazan, Kafkas, və s. Bütün bunlardan aydın olur ki, kaspilərin ataları olan kaslar irandilli olmadıqları kimi, onların nəsilləri olan kaspilər də iranlılaşa bilməzdilər. Çünki kaspilər öz dövrünün ən qüdrətli tayfalarından idilər.

Digər tərəfdən mənbələrdən kassi hökmdarı Qandaşın 1742-ci ildə Babilistana yürüşü, II Aqumun ( 1595-1571) özünü «Kassilərin, akkadların, Babilistanın və Kutilərin hökmdarı» elan etməsi, XV əsrin

ortalarında kassi hökmdarı I Kara-İndaşın özünə "Babilistan hökmdarı, Şumer və Akkad hökmdarı, kassilər hökmdarı və Kar-Duniaş hökmdarı" titulunu qəbul etməsi məlumdur. Eyni zamanda kassilərin Qədim Misir fironları ilə məktublaşmaları, Assuriya ilə mübarizə aparmaları, Elam tərəfindən Babil hakimliklərinə son verilməsi bəllidir. Göründüyü kimi, qədim İkiçayarasında bu proseslər baş verdiyi zaman tarix səhnəsində hələ İran xalqları yox idi və onlar Hindistanın hansısa dərinliklərində yaşayırdılar.

Bununla da aydın olur ki, kassilər, onların nəsli olan kaspilər irandilli xalq olmadıqları kimi, kaspilərin sonrakı nəsli kadusilər də irandilli olmayıblar.

Kitabınızın 18-ci səhifəsində İqrar Əliyevdən sitat çəkirsiniz: **"Kaspilərin antroponimikasında İran təsirini mübahisə etmək tamamilə mübahisəsizdir. Demək olar ki, bütün Kaspi adları İran mənşəlidir".** Cənab Kəlbiyev siz İqrar Əliyevin bu fikrinin heç doğruluğunu yoxladınızmı və ya tarixdə olan bütün kaspi adlarını bilirsinizmi? Əvvəla qeyd edək ki, İqrar Əliyev digər mövzularda olduğu kimi kaspi mövzusunda da fikirlərini "ola bilsin ki, ehtimal ki, güman ki" ifadələri ilə başlayır və buna görə də onun fikirlərini aksioma kimi qəbul etməyinizi yersizdir. İkincisi, kaspi sözündəki "pi" hissəciyi türk tayfa adları üçün xarakterikdir və biz bunu lulubi, subi, aqrippi, traspi, nuşibi, tatabi kimi türk tayfalarının adında rast gəlirik və cəm şəkilçisini bildirir. Bununla da, kaspi tayfasının adının əsas hissəsinin kas olduğu aydın olur. Kaslar isə qeyd etdiyimiz kimi miladdan öncə 1595-1155-ci illər arasında 500 il ərzində Babilistanda hökmranlıq sürüblər. Və ən əsası kassilər mövzusunda olduğu kimi sadəcə İqrar Əliyevə əsaslanmaqla bütün kaspi şəxs adlarının İran mənşəli olduğunu yazırsınız və yenə də hər hansı bir kaspi şəxs adı çəkərək fikrinizi sübut etmirsiniz. Mənz bunu nəzərə alaraq tarixdə özünəməxsus rol oynamış kaspilərin adlarını və onun açılışını sizə

təqdim edirəm: (Onu da qeyd edək ki, bu adlar farsların ən hegemon olduqları dövrə aiddir- e.ə.VI əsr)

1. **Atarli**- türkcə "otar" sözündəndir və mənası geniş otlaqlara, mal-qaraya sahib olan mənasını ifadə edir. Kaspilərin əsas məşğuliyyətlərindən biri də maldarlıq idi. Digər tərəfdən adın birinci hissəsindəki "ata" kəlməsi açıq-aydın sözün türk mənşəli olduğunu göstərir.

2. **Darğa**- Türk dilində "darğa" və ya "tarğa" el başçısı anlamındadır, skif türklərinin ulu babası Tarğıtay şəxs adı ilə səsləşir.

3. **Barbari**- türk dilində "bar" və ya "var" sözü ilə əlaqəlidir, ümumilikdə mənası varı, əmlakı olan deməkdir.

4. **İppuliya**- Türkçə "ip"-bacarıqlı, mahir, istedad, qabiliyyət və "bul, bol" mərd, qoçaq, igid sözlərindəndir. Erkən orta əsrlərdə Bolqar xanı İsbul, Hun şahzadəsi Bel ,Hun xaqanı Bleda (yazılışı yunancadır, bol, bul və ata sözlərindən), Xəzər xaqanı Blucan, Xəzər xaqanı Bulan, Qıpçaqlarda Boluş, Türk xaqanlarından Pulixan, VII əsrdə Xəzərlərdə Bulişad, IX əsrdə Uyğurlarda Bulixan, XIII əsrdə Monqollarda Buluqan, XVIII əsrdə Qaraqalpaqlarda Puliçik, "Koroğlu" dastanında Bolubəy və b. şəxs adları ilə müqayisə olunur. Ad "bacarıqlı igid" mənasındadır. Adın əvvəlindəki –ip komponenti VI əsrdə Altayda Türk xaqanı İbi Tulunun adındakı –ib komponenti ilə eynidir.

5. **İnbuliya**- Türkçə "enq" qabaqda duran, ön cərgədə dayanan və "bol"-igid, qoçaq, mərd sözlərindəndir. Ad "qabaqda gedən qoçaq" mənasındadır.

6. **Baqazuşta**- Qədim türkçə "bökə"- igid, "çus"-qiymətli, dəyərli və "tay"- sözlərindəndir və "dəyərli igidə tay" olan anlamındadır.

7. **Vabil**- türkcə "va" və ya "ba" –"bənzər", "oxşar" və "bol, bul"- igid, qoçaq sözlərindən yaranıb, ümumi mənası "igidə bənzər" deməkdir. XVIII əsrdə Qaraqalpaqlarda Baybol şəxs adı ilə müqayisə olunur.

8. **Veyabul**- Yenə də adın sonunda qədim türkçə "bol, bul"-mərd, qoçaq, igid sözünün durduğu aydın görünür.

9. **Azari**- Türkcə "azar" uca deməkdir. XIII əsrdə Azar adlı Türk əmirinin adı ilə müqayisə olunur.

10. **Anani**- Azarinin oğlu. Qədim Türkçə "ənə"-ana və "ini"-kiçik qardaş sözlərindəndir. "Ananın kiçik qardaşı" (kiçik dayı)

mənasındadır. Qədim Türklərdə quruluşca Anaxun (ana və qun-knyaz sözlərindən) şəxs adı ilə müqayisə olunur.

11. **Vaya-Vabil-** Qədim türkçə "bay"-varlı sözü və yuxarıda izahını verdiyimiz Vabil komponentindən ibarətdir.

12. **Xeyxe**- Atarlinin oğlu. Naməlum mənalı "xey" və qədim türkçə "eke"-ağa sözlərindəndir. XIII əsrdə Çingiz xanın nəslindən Keyxa-tu şəxs adı ilə müqayisə olunur.

13. **Bazu**- Türkçə "bazuq"- yoğun, dolu bədənli sözündəndir. Albanlarda çar Bazuk, hunlarda Am-Bazuk şəxs adları ilə müqayisə olunur.

14. **Şatibarzan**- Şumercə "şat"-məxsus olan, "bar"-parıltı, ziya və "sanq"-başçı, ən birinci, kahin sözlərindən ibarətdir. Ad parıldayan başçıya (yəni Allaha, yaxud kahinə) məxsus olan mənasındadır.

15. **Egis**- Adın sonundakı –s şəkilçisi latın dilində adlıq hal şəkilçisi olduğuna görə, bu ad qədim Türkçə "eqe, eke, əkə, aka"-ağa sözündəndir.

Hörmətli Həşim bəy, sizdən fərqli olaraq sadəcə fikir irəli sürməklə qalmayıb, tarixdə olan bütün kaspi adlarını və onların açılışını verdik. Yeri gəlmişkən onu da qeyd edək ki, bu adlar və izahları Qiyasəddin Qeybullayevin əsərlərindən götürülüb. Gerisi sizin vicdanınıza qalıb. Ünlü bir filosofun dediyi kimi, ən qorxulu məhkəmə insanın öz vicdanı qarşısında olanıdır. Ona görə də bu fikrinizdə sizi vicdadınınzla baş-başa buraxaraq kadusi mövzusuna keçirik.

Kitabınızda Əjdər Fərzəlinin, Tofiq Hacıyevin, Tofiq Əzizovun "kadusi" tayfa adını türk dilində yozumuna qarşı çıxırsınız və bir etnonimin adının hər hansı bir dildə olmasını həmin xalqın da həmin dildə danışmasının mümkünsüzlüyünü iddia edirsiniz: "Əslində kadusi sözünün şərhi ilə bu tayfanı türk dilli hesab etməyin nə qədər elmi həqiqətə yaxınlığının sübut ehtiyacı vardır. Çünki, deyilənlər həqiqətdən çox ehtimala, təsadüfi oxşarlığa yaxındır və bu oxşarlıq həqiqət kimi qəbul edilsə belə yenə də kadusilərin türk dilli tayfa kimi qəbul edilməsinə kifayət etmir". Hörmətli baş müəllim, bir tərəfdən xalqın adının izahının həmin xaqlın kimliyini açıqlamamasını bildirirdiyiniz halda, digər tərəfdən "kadusi" ilə talışların əski adı

hesab etdiyiniz “taquş” sözünün eyni olduğunu bildirirsiniz. Bununla da özünüz özünüzə qarşı çıxmış olursunuz. Halbuki, Əjdər Fərzəlinin kadusi sözünün dağ oğuzu (hansı ki, siz Əjdər Fərzəlinin heç bir elmi əsas göstərmədən sübut etdiyini qeyd edirsiniz. Çünki sizin güzgü konsepsiyasından xəbəriniz yoxdur. Güzgü konsepsiyası vasitəsilə (sözlərin daxilində bəzi hissələrin tərsinə yazılması) indiyədək mənası açıqlanmayan bir sıra sözlərin mənası aydınlaşıb. Buna misal olaraq “köküdey” və “zikkurat” sözlərini qeyd etmək olar. Məhz güzgü konsepsiyası nəticəsində məlum olub ki, köküdey- yedükök-yeddi göy, zikkurat-tarukkız-tanrı odu mənasındadır. “Kadus” sözündə də ikinci kəlmə “uz” xalqını, “kad” isə güzgü konsepsiyası ilə dağ anlamını verir və məhz Fərzəli bəy də buna görə bu qərara gəlib.

Digər tərəfdən Tofiq Əzizovun şumer dilində olan “kad”-bərk sözü ilə, Tofiq Hacıyevin “kaslar və uzlar” izahını qəbul edə bilmədiyiniz halda (halbuki aşağı səviyyəli araşdırmaçı da bunun daha inandırıcı olması qənaətinə gələ bilər) kadusla taquşu, Kadusiya ilə Sataquşiya adlarını eyni hesab edirsiniz. Doğrudur, biz də razıyıq ki, sözlər zamanın süzgəcindən keçdikcə dəyişilir və həm də ki bu adlar bizə yunan mənbələri əsasında gəlib çatıb. Lakin sözlər bu qədər də dəyişikliyə uğramaz axı. Misal üçün mixi yazılarda Mannada bir ərazi Uşkaya adlanır və indiki dilimizdə Üçqaya şəklinə səslənir. Fəqət heç bir halda kadus sözü taquşa və nəhayətində talışa dönə bilməz, o cümlədən Kadusiya ilə Sataquşiyanın eyni olması imkansızdır.

Kitabınızda olan digər bir yanlış məlumat atın əhilləşdirilməsinin və ondan ilk dəfə olaraq minik vasitəsi kimi istifadə edənlərin İran mənşəli tayfalar olduğunu güman etməyiniz və bu barədə Solmaz Qaşqaya istinadınızdır. Cənab Kəlbiyev, tez-tez müraciət etdiyiniz yunan tarixçisi Heredot Marafon döyüşünü təsvir edərkən piyada döyüşçülərin farslardan, atlı oxçuların isə saqalardan (türklərdən) təşkil olunduğunu yazır. Azərbaycanda atçılığın inkişafını sübut edən ən qədim maddi mədəniyyət nümunələri isə Cəlilabad rayonunun Üçtəpə

kəndi yaxınlığındakı "Əliköməktəpə" kurqanından aşkar edilib və buradakı qalıqlar miladdan öncə V minilliyə aiddir. Hörmətli Həşim bəy, məhz bu tapıntının nəticəsidir ki, Azərbaycan tarixdə atın əhilləşdirildiyi ilk məskənlərdən hesab olunur. İrandilli tayfaların isə indiki İran adlanan əraziyə m.ö. IX-VIII əsrlərdə gəlməsi artıq qeyd-şərtsiz qəbul olunduğu halda atçılığın irandilli xalqlar tərəfindən ilk dəfə olaraq inkişaf etdiyini siz haradan çıxartdınız? Deməli, siz Azərbaycan oxucusunu o qədər savadsız hesab edirsiniz ki, bu gülünc ideyanızı tədqiqat əsəri hesab etdiyiniz kitabınızada verirsiniz. Üstəlik farsların dilindəki atla əlaqədar terminlərin çox hissəsi də türk dilindədir. Buna misal olaraq Əlişir Nəvainin farsların bir qolu olan sartlarda atçılıqla bağlı fikrini qeyd etmək olar: (sitat Firudin Cəlilovun "Azər xalqı" kitabından götürülüb): "At cinslərindən tupuçaq, arğumaq, yeke, yabu, tatu və sairəni sartlar türkcə deyirlər. Atların yaşlarına görə adların çoxu türkcədir. Yalnız bir yaş dayçanın öz adı var: kura. Qalanlarının- tay, ğonan, dunan, tulan, çırğa, lanqa və sairənin daha fəsihləri türkcə deyilir, amma çoxları bunu bilməzlər. Sartlar at yəhərinə zin desələr də, başqa ləvazimatın adını çəkəndə türk sözü işlədirlər: jibilqir, hana, tokum, yarlıq, ularçaq, ğançuğ, çılbır, quşqun, qantar, tüfək, toqa".

Digər bir yanlış fakt kitabınızın 57-ci səhifəsində yer alır: **"Bəlkə də Qaumat-Hamato Bardiyə kömək edən kahin olmuş və Kirə düşmən kəsilən ərazidən Piranın Hamat məntəqəsindən olduğu üçün belə adlanmışdır. (Lerik rayonu Hamat (indiki Hamarat) kəndi)".** İlk öncə qeyd edək ki, Bağıstan mixi yazılarında və Herodotun "Tarix"ində qeyd olunan Qam Ata olayı İran-Turan ziddiyyətinin ən maraqlı mərhələlərindəndir. Bağıstan (Bisutun) qayasında Qam Atanın mağ adlandırılması həm onun milli mənsubiyyətinin, həm də ki dini statusunu əks etdirir. Abidənin fars mətnində mağın adı kimi Qaumata, elam mətnində Kamata, babil variantında Qumata kimi qeyd olunur. İlk dəfə bu adın türkcə dəqiq açılışı islamaqədərki tarixlə məşğul olan

professor Firudin Ağasıoğlu Cəlilov tərəfindən Qam Ata formasında verilib. Bu izahın "Qorqud Ata kitabı"ndakı şəxs adları ilə səslənməsi (Qamğan, Qambörə) açılışın doğruluğunu sübut etmiş olur. Farsca mağın adının Qaumata şəklində yazılması isə iki cəhətdən izah edilir. Birinci yanaşmaya görə, fars dilinin qrammatik qaydalarına uyğun olaraq mətndə "U" səsi əlavə olaraq artırılıb, ikinci yanaşmaya görə isə fars şahı nifrətə layiq hesab etdiyindən mağın ismini bilərəkdən Qaumata şəklində yazdırıb ki, burada "qau" sözü "öküz" anlamına gəlir. Cənab Kəlbiyev, Herodotun "Tarix"ində "Asiyanın ədalət simvolu", "ölümünə farslardan başqa hamının kədərləndiyi" kimi tanınan Midiyalı maq Qam Atanı da talışlara bağlamağınız sizin qeyr-səmimiliyinizdən xəbər verir.

Qayıdaq kadusilərə. Kadusilər haqqında yazılan bütün mənbələrə nəzər yetirdikdə tam dəqiq şəkildə onların nəsillərinin bu gün hansı xalq olduğunu demək çox çətindir. Əgər həqiqətən kaspilər sonradan kadusilər adlanıbsa, sözsüz ki, türk mənşəli olublar. Yox əgər kaspilərlə kadusilər ayrı-ayrı xalqlardırsa, bəlkə də o zaman siz haqlısınız. Amma bunun üçün çoxlu sübutlara ehtiyacınız var. Sadəcə bir ifadədən və tarixi-coğrafi mövqedən yola çıxaraq qəti fikrə gəlmək imkansızdır. Bu baxımdan sizin tədqiqat işiniz qeyri-səmərəlidir və bunun da ən əsas səbəbi qeyri-dəqiq mənbələrdən istifadə etmənizdir. Yaxşı olardı ki, bir araşdırmaçı kimi Sovet dövrünün tədqiqat əsərlərinə və Əli Əbdöli kimi fars tarixçilərinin cızma-qaralarına müraciət etməkdənsə, çağdaş zamanımızın araşdırmaçılarının yazdıqlarını nəzər yetirmənizi məsləhət bilirik. Bunun üçün isə bütün milli duyğuları kənara atıb, həqiqəti araşdırmağa can atan bir elm xadimi kimi işə girişməlisiniz.

**XX yarpaq**

## Saqa çarı Atey

Lap əski çağlardan Ön Asiyada yaşayan saqalar sosial və siyasi səbəblərdən şərqə və qərbə doğru köç ediblər. Və bu köçlərin nəticəsidir ki, saqalar (skif, iskit, işquz, aşquzay, skolot və s. şəkildə mənbələrdə qeyd olunur) şərqdə Xəzər dənizindən Altaya, Əfqanıstandan Sibir tayqasınadək, qərbdə Qara dənizin şimal sahillərindən İdil çayınadək olan ərazilərdə məskunlaşırlar. Və bu gün bir çox xalqların (rusların, osetinlərin, kürdlərin və s) əcdadının saqalara calanması onların geniş bir ərazidə yerləşməsinin nəticəsidir. Fəqət tapılan maddi-mədəniyyət nümunələri saqaların daha çox türk xalqlarından olmasını sübut edir və demək olar ki, bütün antik və erkən orta əsr tarixçiləri yekdilliklə saqaları türk adlandırırlar. Yunan-Roma mənbələrində Atheas, Ateia, Ataias və Ateus kimi qeyd olunan Saqa çarı (elbəyisi) Atey Dunay çayının sağ sahilində yerləşən Skif dövlətinin hökmdarı idi. Strabona görə, kral Atey hakimiyyəti dönəmində Maeotian (Azov və ya Azaq) dənizindən Tuna (Dunay) çayınadək olan əraziləri birləşdirərək dövrün güclü dövlətlərindən birini yaradır. Çar Ateyin hakimiyyəti zamanı Frakiyanın bir hissəsi ələ keçirilir və saqalar Avropada və Tunanın şərq hüdudlarında qüdrətlənirlər. Roma tarixçisi Pompey Troq Atey çarlığı ilə Makedoniya dövləti arasında bərabərsəviyyəli danışıqların aparıldığını, elbəyi Ateylə çar II Filippin eyni qüdrətdə olduğunu qeyd edir. Digər bir önəmli cəhət çar Ateyin zamanında üzərində yaydan ox atan skif süvarisinin təsviri olan pul sikkələrinin buraxılması idi.

Roma tarixçiləri Pompey Troq və Strabon Ateyin hakimiyyəti dönəmində artıq skiflərin vahid bayraq altında birləşmələri və Ateyin mütləq monarx olmasını bildirirlər. Zaur Həsənov "Çar Skifləri" əsərində qeyd edir ki, artıq V əsrin sonunda Dnepr sahilində bütün

əlamətlərə görə Atey çarlığının paytaxtı olmuş Kamensk şəhərciyi mövcud idi.

Təbii ki, bu dövrdə Atey çarlığının ən qüdrətli rəqibi II Filippin rəhbəri olduğu Makedoniya çarlığı idi. Mənbələrin bildirdiyinə görə, elbəyi Atey bir dəfə qonşu xalqlarla mübarizə apardığı zaman yenildiyini görüb II Filippdən kömək istəyir. II Filipp kömək etməyə söz verir, lakin Ateyin qabağına şərt qoyur. Şərtə görə bu yardımın müqabilində Filipp Ateyin vəliəhdi olacaq. Hiyləgər Filipp bilirdi ki, qoca Ateyin ölümünə çox qalmayıb və qüdrətli Saqa çarlığının ərazisini dövlətinə birləşdirmək üçün mühüm fürsət ələ keçib. Fəqət Atey bu təklifi qəbul etmir və tezliklə hər iki çarlıq arasında münasibətlər gərginləşir və savaş qaçılmaz olur. Savaşa rəvac verən digər bir bəhanə saqaların Dunay çayı ətrafında Heraklın heykəlinin qoyulmasına icazə verməmələri idi. Döyüşdən qabaq Ateyin II Filippə göndərdiyi məktub Makedoniya fatehini daha da qəzəbləndirir: "Siz savaşı öyrənən makedoniyalıların üzərində hökmransınız, mən isə aclıq və susuzluq ilə mübarizə apara bilən skiflərin üzərində hökmranam".

Tarixçi Yustinin anlatdığına görə, savaşdan əvvəl saqalar əsir düşmüş məşhur yunan fleytaçısını elbəyinin hüzuruna gətirirlər və bildirirlər ki, çar döyüşdən qabaq onun ifasına qulaq asaraq keyiflənsin. Fəqət 90 yaşlı Atey cəldliklə atının üzəngisinə qalxır və tarixə damğa vuracaq sözlərdən birini işlədir: "Mənim üçün dünyada bircə musiqi var: döyüş meydanında atların kişnərtisi". Qoca Atey makedoniyalılarla cəngə girir və qəhrəmancasına həlak olur. Miladdan öncə 339-cu ildə baş verən bu döyüşdə Ateyin göstərdiyi qəhrəmanlıq sonralar qaraçay-malkar türklərinin nart dastanlarında Açey obrazında özünü göstərir.

**XXI yarpaq**

## Atatürk və laiq Türkiyə

Bu gün bir çoxları Osmanlı dövlətinin süqutunu ağır bir faciə olaraq dəyərləndirir və bugünkü Türk dünyasının yaşadığı problemləri bilavasitə bu çöküşlə əlaqələndirirlər. Doğrudur, Osmanlının yaranmasından və xüsusilə İstanbulun fəthindən sonra Batı dünyası imperatorluğun məhvi üçün müxtəlif hərbi ittifaqlar yaratmaqla, müxtəlif iqtisadi amillərlə dövləti sıxmağa çalışsalar da, uzun müddət buna müvəffəq ola bilməyiblər. Lakin bütün bunlara baxmayaraq, əslində digər imperiyalar kimi Osmanlı imperatorluğunun çöküşü Türk dünyasının gələcək yaşamı üçün yeni başlanğıca səbəb oldu. Yəni Osmanlı dövləti Türk dünyasını ayaqda saxlayan və Türkün qüdrətinin təmsilçisi olan bir imperiya kimi deyil, daha çox dini dəyərlərə əsaslanan və Türk milli kimliyini arxa plana salan bir funksiya rolunu oynayırdı. Əgər XX əsrin əvvəllərindəki qüdrətini itirmiş və parçalanmış Osmanlı yaşasaydı, bu günkü Türk dünyasının hansı vəziyyətdə olduğunu təsəvvür etmək çətin olmayacaqdı. Məhz Osmanlının çöküşü və eyni zamanda Çar Rusiyasının devrilməsi Türk xalqlarında yeni bir düşüncənin ortalığa çıxmasını şərtləndirdi. Türk dünyası anladı ki, onları birləşdirəcək yeganə ortaq dəyər din deyil, milli kimlik və keçmişə dayanan ortaq tarixdir. Məhz buna görədir ki, XIX əsrin sonu, XX yüzilin əvvəllərində Türk fikir adamları Türk birliyi ideyasını həyata keçirməyə başladılar. Bu birliğin formalaşmasının ilkin addımı isə müstəmləkə altında olan türk xalqlarının bağımsızlığı və Türkiyənin xilafət "libasından" çıxaraq dünyəvi, hüquqi, demokratik dəyərlərə əsaslanan idarəçilik sisteminə qədəm qoyması olacaqdı.

Artıq osmanlıçılıq ideyası ilə Türkiyəni tərəqqiyə doğru aparmağın mümkünsüzlüyünü dərk edən böyük Mustafa Kamal türk milli kimliyini mərkəzə alaraq dövlət idarəçiliyində xilafətə yer olmadığını bildirərək demokratik dəyərlərə əsaslanan laik Türkiyənin əsasını qoyur.

Bununla da, Türkiyə tarixində "Atatürk devrimləri" adlanan proseslər həyata keçirilməyə başlanılır və Türkiyə Cumhuriyyəti laikliyi rəhbər tutaraq yeni dövrə qədəm basır. Qeyd etmək lazımdır ki, dini və dünyəvi dövlətlərlə bağlı hüquqda istifadə olunan və elmi dairələrdə Böyük Fransa inqilabından sonra  işlədilməyə başlanılan "laik" termini qədim yunan dilində olan "laicos" sözü ilə bağlıdır. Qədim yunanlar bu sözü özlərini Tanrıya həsr edən rahiblər sinfinə daxil olmayan geniş xalq kütlələrini adlandırmaq məqsədilə istifadə edirdilər. Buna görə də, laiklik iki təməl prinsipə söykənir: 1) Din azadlığı 2) Din və dövlət məsələlərinin ayrılığı

Laikliyin vətəndaşlara verdiyi din azadlığı ondan ibarətdir ki, hər bir şəxs istədiyi inancda ola bilər və dövlətçiliyə zidd olmadığı təqdirdə öz inancının tələb etdiyi ibadətləri sərbəst şəkildə yerinə yetirə bilər. Eyni zamanda istənilən fərd hər hansı bir dinə mənsub olmamaq hüququna da malik ola bilər. Böyük Atatürk haqlı olaraq deyirdi: "Din bir vicdan məsələsidir, hər kəs vicdanının səsini eşitməkdə sərbəstdir". Yəni laiklik dinsizlik və insanlığın sahib olduğu dini dünyagörüşü qadağan etmək anlamında olmayıb, dinin azadlığı və fərdiliyi prinsipini rəhbər tutmaqdır. Laikliyin ikinci təməl prinsipi din və dövlət məsələlərinin ayrılığıdır. Hüquqi bir anlayış olan laikliyə görə, din və dinə aid işlər cəmiyyətin ümumi xarakter daşıyan tələbatlarından olduğundan dövlətin sosial xidmətləri çərçivəsinə salınmalı və bu məsələləri tənzimləyəcək qurumlar dövlətdə olmalıdır. Hər hansı bir dinin qanunları və ya bir din ətrafında birləşən icmaların açıq və ya gizli şəkildə dövlət idarəedilməsində istifadəsinə cəhd göstərilməsi qanuna zidd hesab olunur. Laik hüquqda qanunlar ağıla, isbat olunmuş dəyərlərə və ortaq məntiqə əsaslanır və dini qanunlar kimi doqmatik xarakter daşımır. Teokratik monarxiya dövləti olan Osmanlıdan fərqli olaraq Atatürkçü Düşüncə Sistemində hüququn əsasını insanların ortaq iradəsi təşkil edir, hüquq bəşəri dəyərlərə əsaslanır və zamana uyğun olaraq dəyişdirilməsi nəzərdə tutulur. Atatürk haqlı olaraq deyirdi:

"Yüz, beş yüz, min il əvvəl yaşayan bir cəmiyyət üçün qəbul edilmiş qanunlarla çağdaş cəmiyyəti idarə etməyə cəhd göstərmək qəflətdir, cəhalətdir". Məhz buna görə 23 aprel 1920-ci ildə açılan Türkiyə Böyük Millət Məclisi milli suverenlik, milli iradə prinsiplərinə söykənirdi. 1921-ci il yanvarın 21-də qəbul edilən konstitusiyaya əsasən bu prinsiplər siyasi-hüquqi əsasa çevrildi. Bu inqilabların ardınca 1922-ci il noyabrın 1-də xilafət idarəçiliyi aradan götürülür. Və bunun ardınca 29 oktyabr 1923-cü ildə Türkiyə Cumhuriyyətinin əsası qoyulur. Artıq Cumhuriyyətin əsası qoyulduğu üçün Mustafa Kamal hələ I Dünya Müharibəsi ərəfəsində düşüncəsində formalaşan dəyərləri ardıcıllıqla həyata keçirməyə başlayır. 2 mart 1924-cü ildə verilən qərarla 479 mədrəsə ləğv olunur, martın 3-də alınan qərarla Türkiyə ərazisində olan bütün təhsil mərkəzləri Təhsil Nazirliyinin nəzarətinə verilir. 1924-cü il aprelin 20-də alınan qərarla ibtidai təhsil məcburi elan edilir. Bu islahatların ardınca 1925-ci ilin sentyabrın 2-də türbələrin, təkkələrin fəaliyyəti və çoxevlilik qadağan edilir, noyabrın 25-də qiyafət yasası, 1 yanvar 1926-cı ildə təqvim və ölçü dəyişikliyi həyata keçirilir. 1926-cı il oktyabrın 4-də İsveçrə, Almaniya və İtaliya hüquqi sistemlərindən nümunələr əsasında yeni hüquqi dəyərlər yaradılır. 1928-ci ildə konstitusiyada aparılan dəyişikliklə qanunda mövcud olan "dövlət dini İslamdır" maddəsi götürülərək Türkiyə Cumhuriyyəti laik sistemə qədəm qoyur. Həmin ilin noyabrın 1-də alınan qərarla ərəb əlifbası latın əlifbası ilə əvəz olunur. 1932-ci ildə isə məscidlərdə azanın türkcə verilməsi qanuniləşdirilir. Çağdaşlaşan Türkiyə 1934-cü ildə qadınlara millət vəkili olmaq və seçmək hüququnu bəxş edir. Növbəti ildə artıq TBMM-ə 15 qadın millət vəkili seçilir. 1935-ci ildə qüvvəyə minən qanuna əsasən ərəbcə olan familiyalar Türk soyadları ilə əvəz olunur. 1937-ci il 5 fevralda Anayasada edilən dəyişikliklə Türkiyədə laik sistem ana qanunla müəyyənləşir və 1982-ci ildə qəbul edilmiş sonuncu Anayasada da təsdiqlənir. Konstitusiyanın ikinci maddəsində yazılır: "Türkiyə Cümhuriyyəti, cəmiyyətin əmin-amanlığı, milli həmrəylik və ədalət anlayışı içində, insan haqlarına hörmətlə yanaşan Atatürk

millətçiliyinə bağlı, “Başlanğıcda” müəyyən edilən əsas prinsiplərə söykənən demokratik, dünyəvi (laik) və sosial bir hüquq Dövlətidir”.

Bu gün Türkiyə Cumhuriyyətində müəyyən qruplar və dini əsaslı icmalar tərəfindən Atatürkçü Düşüncə Sisteminə qarşı açıq və üstüörtülü şəkildə müəyyən hücumlar edilir. Yeni Osmanlıçılıq ideyası adı altında modernləşən Türkiyəni yenidən qəflətin və cəhalətin hökm sürdüyü xilafət və ya sultanlıq idarəçilik sisteminə aparmaq, türkçülük ideologiyasını türkiyəçiliklə əvəz edərək Türk Birliyinə gedən uğurlu yolun qarşısını kəsmək istiqamətində psixoloji müharibə aparılır. Bu psixoloji müharibənin tərəfdarı olan qüvvələr insanların dini inancından istifadə etməkdə, Türkiyəni yenidən şəriət dövlətinə çevirmək arzusundadırlar. Modern Türkiyəni teokratik idarəçiliklə əvəz etmək istəyənlər cumhuriyyəti uçurumun kənarına gətirdiklərini anlamalıdırlar. Çünki bu gün dövlət təsisatının formalaşması ilə bağlı olan teoloji nəzəriyyə artıq yalnız bir sıra ləng inkişafda olan dövlətlərdə hakimdir və əsas üstünlük verilən ictimai müqavilə və marksist nəzəriyyələr dövlətin sadəcə olaraq insan amili ilə əlaqəli olduğunu isbatlamışdır. Biz marksist nəzəriyyəni (dövlətin meydana gəlməsinin varlı-yoxsul təbəqələrin formalaşması, yəni güclülərin zəiflər üzərindəki hökmranlığı ilə əlaqələndirilməsi) qəbul etmirik və fikrimizcə, ilk dövlətlər ictimai müqavilə nəzəriyyəsini (insanların özlərini idarə etmələri üçün birlikdə düşünərək dövlət təsisatını yaratmaları) dəstəkləyənlərin söylədikləri kimi olmuşdur. Yəni fikrimizcə, insanlar necə ki özlərini idarə etmələri üçün düşünərək dövlətin yaradılmasını məqbul saymışlar, eləcə də bu dövlətdə tətbiq olunacaq qanunları da özləri qəbul etmişlər və etməlidirlər. Bu baxımdan Atatürkçü Düşüncə Sisteminin əsasını təşkil edən laik sistem Türk Birliyinin formalaşmasının yeganə çıxış yoludur.

**XXII yarpaq**

## Elçibəy və Azərbaycan tarixşünaslığı

**Azərbaycan dünyanın qədimdən-qədim insan məskənlərindən və ilkin mədəniyyət mərkəzlərindən biri, varlı təbiətli, əzəli və əbədi bir Türk yurdudur.** (Ə.Elçibəy)

Bu gün Azərbaycanda Ə.Elçibəy şəxsiyyəti müxtəlif yanaşmalar çərçivəsində tədqiq olunsa da, onun ictimai-siyasi fəaliyyəti, xüsusilə prezidentlik dönəmindəki və ondan sonrakı elmi fəaliyyəti yetərincə araşdırılsa da, fikrimizcə onun hələ Sovet dönəmindən etibarən Azərbaycan tarixşünaslığına gətirdiyi yeniliklər təəssüflər olsun ki, lazımi şəkildə tədqiq olunmayıb. Elçibəy Sovet tarixşünaslığı çərçivəsində təhsil almasına, bu sahə üzrə pedaqoji fəaliyyət göstərməsinə baxmayaraq onun düşüncə sistemi bütün bu təhrifləri vaxtında dərk edərək sonralar Azərbaycan tarixşünaslığında yeni bir mərhələnin əsasını qoymuşdur. Təsadüfi deyil ki, istər ayrı-ayrı çıxışlarında, istərsə də, elmi monoqrafiyalarında Azərbaycan türkünün qədimliyindən, onun əzəli yurdunun tarixindən bu və ya digər şəkildə ciddi mənbələrə əsaslanan məlumatlar verirdi.

Elçibəy illər öncə qarşısına qoyduğu bir sualın cavabını uzun tədqiqatlar sonucunda əldə etmişdi: "Türkün gerçək tarixi haradan başlayır? Araşdırmalarımın sonunda gördüm ki, nəinki türkün, bütövlükdə dünyanın tarixi Turandan başlayır. Şumer miladdan 3 min il əvvəl mövcud olub, üstünə indiki eranı da gələndə edir 5 min il, yəni Şumerin 5 min il tarixi var. Azərbaycanınsa tarixi Şumerinkindən qabaqdır. 6 min-7 min il qabaq Azərbaycan mədəniyyəti olub - böyük Kür-Araz mədəniyyəti! Bu mədəniyyət sonralar Şumerə keçib, ona təsir edib, orada yayılıb".

Elçibəyə görə Azərbaycan tarixşünaslığında müəyyən bir sistem, çərçivə yoxdur, tədqiqatçılar tarixi araşdırarkən hansı metodlardan istifadə

edəcəklərini bilmirlər. Çünki indiyədək Azərbaycan tarixşünaslığı marksist-leninçi metodologiya ilə (xalqları ibtidai icma, quldarlıq, feodalizm, kapitalizm və sosializm ictimai-iqtisadi formasiyalar əsasında araşdırılması) tədqiq olunduğundan bütünlükdə gerçəkliyi əks etdirmir. Buna görə də Azərbaycan tarixçiləri (güneyli-quzeyli) bir yerə yığışıb Azərbaycan tarix və mədəniyyətinin araşdırılmasının metodologiyasını hazırlamalıdır. Çünki bir sıra xalqların, xüsusilə türklərin tarixini bu metodologiya çərçivəsində tədqiq etmək mümkün deyil. Marksist-leninçi metodologiyaya əsasən, hər hansı bir dövlətin mövcudluğu yuxarıda sadaladığımız mərhələlərdən hansına təsadüf edərsə, birmənalı şəkildə həmin dövlət dövrün səciyyəsinə uyğun şəkildə tədqiq edilir. Yəni hər hansı bir dövlət miladi III-V əsrlərdən öncədirsə deməli quldar, bu əsrlərdən sonradırsa, feodal mahiyyət daşıyır. Buna görə də Elçibəy ilk öncə tarixi-məntiqi metoddan istifadə etməyi gərəkli hesab edirdi. Bu metoda əsasən Əbulfəz Elçibəy ilk insan məskənlərini formalaşma tarixinə görə aşağıdakı mərhələlərə ayırır:

- Amudərya və Sırdərya çaylarının hövzəsi, Aral gölünün ətrafı və Turan ovalığı
- Xəzərin qərb sahilləri, Kür-Araz ovalıqları, Qızılüzən çayı boyu və Urmiya gölü ətrafı
- Dəclə-Fərat hövzəsi, Zaqros dağlarının qərb ətəklərindən Ərəbistan səhrasının şimal-şərqinədək olan ərazi

Bu bölgüyə əsasən Elçibəy tarixin başlanğıcı kimi ilk olaraq Turanı, ikinci yerdə Azərbaycanı, üçüncü olaraq isə Şumeri götürür. Bunun ardınca Misir dördüncü, Çin beşinci, Hind-Qanq ərazisi altıncı sırada gəlir. Azərbaycanda formalaşan Kür-Araz mədəniyyətini miladdan öncə VI-II minillikləri əhatə etdiyini qeyd edən Elçibəy bu mədəniyyətin formalaşdığı ərazi kimi mərkəzi Azərbaycan olmaqla şərqdə Orta Asiyanın güney-batısından tutmuş qərbdə Doğu Anadolu, şimalda Güney Qafqazdan tutmuş cənub-qərbdə Dəclə çayı, güneydə Bəsrə körfəzinədək olan əraziləri götürür. Şumerlərin (Kəngərlərin) ilkin

dövlət qurumunun Azərbaycanda - Kür-Araz ovalığı və Urmu gölünün ətrafında yarandığını, sonralar onların Urmunun yaxınlığındakı Patağ (Zaqros) dağlarının keçidlərindən aşaraq İkiçayarasına (Mesopotamiyaya) yerləşməsini, orada yeni mərkəzlərini yaratmasını qeyd edən Elçibəy bütün bunların həqiqət olduğunu dünya elminin bildiyi halda, şumerlərin (kəngərlərin) əcdadının Orta Asiyaya, Hindistana calamağın sadəcə olaraq antitürkçülüyün, irqçiliyin formalaşdırdığı amillərlə əlaqələndirir. Kür-Araz mədəniyyətinin m.ö X-VI minilliklərdə formalaşmış Turan mədəniyyətinin varisi, İkiçayarasında formalaşmış Şumer mədəniyyətinin isə sələfi qismində çıxış etdiyini bildirən Elçibəy Şumer və Azərbaycan tarixinin iç-içə olduğunu nəzərə alaraq gələcək tarixşünaslıqda Kür-Araz və Şumer mədəniyyətinin birləşdirilərək Azər-Kəngər (şumerlər özlərini kəngər adlandırırdılar) mədəniyyəti adı altında öyrənilməsini məqsəduyğun hesab edirdi. Əbülfəz Elçibəyi "Tarix Turandan başlayır" və Azər-Kəngər mədəniyyətinin bilavasitə Azərbaycan tarixi ilə əlaqəli olmasına vadar edən əsas amillər isə bunlardır:

- Bir sıra görkəmli mütəxəssislər tərəfindən Şumerdən öncə Ön Asiyada mövcud olan mədəniyyətə dair uğurlu tədqiqatların aparılması
- Azərbaycanın quzeyində yerləşən Azıx, Kültəpə, Qaraköpəktəpə, Baba-Dərviştəpə, Qobustan, Gəmiqaya abidələri ilə guneydə yerləşən Yanıqtəpə, Sarabtəpə, Firuztəpə, Gəncədərə və Dolmatəpə arasında olan bənzərliklər və eyniliklər
- Şumerlərə aid olan arxeoloji qazıntıların, sənətkarlıq nümunələrinin bilavasitə İkiçayarasından şimalda və şərqdə yaşayan xalqlarla əlaqəli olması
- Tur Xeyerdalın geniş tədqiqat sonucunda Xəzərdəki qamış qayıqların tarixini ən az miladdan öncə VI minliliyə aid etməsi
- Dünyada tapılan yeddi ən əski insan sümüyündən birinin (Azıxantrop insanın çənə sümüyü) Azərbaycanda tapılması

Dünyada ən az öyrənilmiş tarixin azərbaycan tarixi olduğunu qeyd edən Elçibəy Azərbaycan tarixşünaslığının həll etməli olduğu əsas problemlərin aşağıdakılar olduğunu qeyd edir:

- ✓ Şumer və Akkad abidələrini öyrənmək, onlara aid dünyadakı materialları əldə etmək, minlərlə gil lövhələrin foto surətini, ya da mikrofilmlərini toplamaq
- ✓ Hələlik bizə bəlli ən qədim abidələrimizdən "Avesta", "Oğuznamə", "Kitabi Dədə-Qorqud"u dərindən tədqiq etmək
- ✓ Azərbaycanda mixi, alban, hun, ərəb əlifbalarında olan əsərləri, abidələri axtarmaq
- ✓ Orta əsrlərdə məlum səbəblərdən ərəb və fars dillərində yazmağa məcbur olan minlərlə şair, alim, həkim, hüquqşünas, astronom, ictimai xadimlərin əsərlərini tədqiq etmək
- ✓ Ən əsası bu sahə üzrə məşğul ola biləcək tədqiqatçıların yetişdirmək

Çünki Elçibəyə görə Azərbaycanın öz tarixi qaynaqları yetərincə işıqlandırılmayıb, mövcud olan mənbələrin bir çoxu müxtəlif şəkildə yox edilib, əldə olunan tarix qaynaqları da düşmən əli ilə yazıldığından mühüm problemlər ortaya çıxmışdır. Bütün bunları hələ Sovet dönəmindən dərk edən Elçibəy sonralar ürək ağrısı ilə yazırdı: "Dünyada böyük, tarixi millətlər arasında türklərin tarixi qədər dolaşdırılmış, türk düşmənləri tərəfindən saxtalaşdırılmış, türklərin özləri tərəfindən ən az araşdırılmış ikinci bir millətin tarixini təsəvvür etmək belə mümkün deyildir. Tarix millətləri içərisində türklər qədər öz tarixinə saygısız yanaşan ikinci bir millət yoxdur. Tarixi şəhid qanı ilə yaradan bu millət unutmuşdur ki, qiyamət günündə gerçək alimin mürəkkəbi şəhid qanından fəzilətli tutulacaq".

Bu gün Əbülfəz Elçibəy yaradıcılığına nəzər yetirdiyimizdə onun Azərbaycan tarixşünaslığındakı aşağıdakı xidmətləri qeyd etmək mümkündür:

- ✓ Əbülfəz Elçibəy Azərbaycan tarixini ənənəvi Altay nəzəriyyəsi çərçivəsində deyil, bilavasitə qədim İkiçayarası ərazilərinin tarixi ilə əlaqəli şəkildə araşdırılmasının gərəkliliyini isbat etmiş oldu
- ✓ Zərdüştiliyin, maniliyin, məzdəkiliyin bilavasitə Azərbaycan türkləri ilə əlaqəli olduğunu, Avestanın türk dini-mifoloji dünyagörüşünün məhsulu olduğunu sübut etdi

- ✓ Azərbaycan tarixşünaslığının dolaşdırılmasında və çıxılmaz vəziyyətə salınmasında əsas rol oynayan qüvvələrin Rus imperiya siyasəti və fars şovinizmi olduğunu isbatladı
- ✓ Dünyanın ən qədim məskənlərindən birinin Azərbaycan olduğunu müxtəlif dəlillərlə sübut etdi

Bütün bunları nəzərə alaraq bu gün Azərbaycan gəncliyi Elçibəyin tarixşünaslığımızda böyük zəhmətlər bahasına açdığı cığırı uğurlu bir yola çevirməyi qarşılarına ən başlıca məqsəd kimi qoymalıdırlar. Çünki Elçibəyin bir zamanlar qeyd etdiyi uzaqlarda olan yolumuzun başlanğıcında məhz tariximizin tədqiqi dayanır.

**XXIII yarpaq**

## Petroqraddan Strasburqa İrene Melikof

"1969-un senyabrı idi. "Hacı Bektaş gecəsi" elanını gördüm. Getməyə qərar verdim. Dostlarım yığıncaq məkanının önünə gəldiyimizdə: "Biz buraya girə bilmərik. Bunlar ələvidirlər"- dedilər. "Qorxursunuzsa, mən yalnız gedəcəyəm"-dedim. O gün, 30 illik bir yolçuluğun başlanğıcı oldu. Bir həftə sonra Hacı Bektaşın türbəsini ziyarət etdim. Sonra bilmədiyim bir dünyanı kəşf etdim. Ələvi aşiqlərinin dünyasını...Rəsmi Türkiyəni ayrı bir cizgidə yaşayan, bilinməyən bir Türkiyə kəşf etdim..."

Bu kəşf böyük türkoloq İrene Melikofu türk ələvi dünyasının dərinliklərinə doğru aparacaq, bu yolçuluqda neçə-neçə məqalələr, kitablar ərsəyə gələcəkdi, türk sufilərinin, ozanlarının, ərənlərinin ruhu bu işdə ona yardımçı olacaqdı.

7 Noyabr, 1917-ci ildə Çar Rusiyasının Petroqrad şəhərində zəngin bir ailədə sarışın bir qız dünyaya gəlir. Atası neft ticarətçilərindən olan azər türkü (İvan Melikof), anası isə rus (Yevgeni Nikiferovna Mokşanova) olan İrenenin ailəsi oktyabr inqilabından sonra artıq Rusiyada yaşamağın mümkünsüz olduğunu görüb 1919-cu ildə Avropaya

gedərək öncə Finlandiyaya, sonra isə Parisə yerləşirlər. Burada hələ uşaq ikən İrene atasının zəngin kitabxanasından mütaliələr edərək Hafizin, Sədi Şirazinin, Ömər Xəyyamın dünyagörüşü ilə tanış olur. 18 yaşında isə Halide Edibin "Ateşden gömlek"əsəri vasitəsilə böyük öndər Atatürkü tanımış olur. Sarbonna universitetinin ədəbiyyat bölümünü bitirən İrene Melikof məzun olduqdan sonra Şərq dilləri məktəbində (Ecole Nationales des Langues Oriantales) təhsilini davam etdirir. Burada o, Jean Denydən (türk qrammatikasının tədqiqatçılarından) və sürgün həyatı yaşayan Doktor Adnan Adıvardan Türk dilinin problemlərini, ünlü tarixçi Claude Cahendən tarixi, islam tədqiqatçısı Louis Massiqnondan (1883-1962) isə sufiliyi öyrənir. "Danişmendnamə" üzərində apardığı tədqiqatdan sonra böyük şöhrət qazanan İrene Melikof türk xalqlarının kültürü ilə daha yaxından məşğul olmağa başlayır. 1954-cü ildə Ənvərinin Aydınoğulları bəyliyinin tarixinə həsr etdiyi mənzum "Qazi Umur Paşa dastanı" üzərində araşdırma aparır. 1957-ci ildə isə Danişməndli hökmdar Məlik Əhməd Danişmənd Qazinin Anadoluda Bizansa qarşı apardığı savaşa həsr edilmiş "Danişməndnamə" dastanı ilə əlaqədar olan "Məlik Danişmənd dastanı, Danişməndnamənin tənqidi incələnməsi" adlı tədqiqat İreneye doktor ünvanını qazandırır. Bunun ardınca 1962-ci ildə Xorasanda Əməvi Xilafətinə qarşı üsyan qaldıran və Abbasilərin xilafətə gəlməsində önəmli rol oynayan Xorasan türkü Əbu Müslim Xorasaniyə həsr etdiyi əsəri (Abu Müslim: Le Porte-hache du Khorassan, Paris 1962) islamda heteredoks cərəyanlara olan marağı daha da artırmış olur.

Bu illərdə İrene Melikof Avropada tanınmış türk elm xadimləri ilə yaxın münasibət qurur, Fuad Köprülü və Ömər Lütfi Barkan kimi tanınmış insanlarla əlaqə yaradır. 1940-cı ildə Parisdə ikən tanınmış türk riyaziyyatçısı Salih Zəki Sayarın oğlu Faruk Sayar ilə ailə həyatı qurur və bu evlilikdən Sonia, Laden və Şirin adlı 3 qızı olur. Lakin sonralar bu evlilik yolunda davam etmədiyi üçün Faruk Sayardan ayrılır. Sonralar İrenenin qızı Şirin Sayar anasının yolunu davam etdirərək ələvi-

bektaşiliklə bağlı tədqiqatlar aparır və ələvi-bektaşi dünyasının tanınmış şəxslərindən olan Kasım Yeşilgül ilə ailə həyatı qurur.

II Dünya savaşı başladığında 1941-ci ildə İrene Melikof Türkiyəyə gəlir. Burada ikən İzmir Amerika kollecində müəllimlik fəaliyyəti ilə məşğul olmaq istəsə də, xarici vətəndaş olduğu üçün nazirlikdən icazə ala bilmir. Faruk Sayardan ayrıldıqdan sonra yenidən Avropaya qayıdır.

Avropada olduğu müddətdə İrene xanım bir sıra önəmli vəzifələrdə çalışır. İlk əvvəl Elmi Araşdırmalar Milli Mərkəzində (CNRS) asistant kimi çalışan, 1968-ci ildə Strasburq Universitetində Türkologiya və İran İnstitutuna rəhbərlik edən Melikof 1970-ci ildə türkoloji dərgi olan TURCICA jurnalını təsis edir. Bununla yanaşı Türkoloji İnkişaf Dərnəyinin sədri, Osmanlı dönəmi öncəsi və Osmanlı dönəmi təhsil beynəlxalq komitəsinin (CIEPO) sədri və s. vəzifələrdə çalışır.

Lakin İrene Melikofu Türk dünyasında tanıdan və sevdirən isə bektaşilik və ələviliklə bağlı araşdırmaları olur. Ələvi mühitində həddindən artıq sevilən və ələvi qadınların "İrene bacı" dedikləri dahi alim Hacı Bektaş Vəli, Əhməd Yəsəvi, Fəzlullah Nəimi, İmadəddin Nəsimi kimi tanınmış sufi alimlərini Avropaya tanıdır. Ən əsası bunları araşdırarkən tədqiqatlarını sadəcə olaraq elmi əsərlər üzərində deyil, bilavasitə həmin toplumun içərisində aparır. Ələvilərin Cəm evlərində, məclislərində şəxsən iştirak edərək öz müşahidələrini məqalələr və kitablar şəklində bölüşür. 15 islami ensiklopediyada 70-dən çox məqaləsi dərc edilən Melikof ələvi-bektaşi inancına bütünlükdə bu kitabları həsr edir: "Umur Paşa Dastanı" (1954), "Məlik Danişmənd" (1960), "Əbu Muslim Xorasani" (1966), "Türk sufizminin izində" (1992 & 1995), "Uyur idik uyardılar" (1993), "Əfsanədən gerçəyə Hacı Bektaş" (1998) , "Kırklar Cəmində" (2001)

Hacı Bektaş Vəlinin "Elmlə gedilməyən yolun sonu qaranlıqdır" fikri İrene Melikofu sirli ələvi dünyasına daxil olmasına səbəb olmuşdu. Bir Cəm mərasimində türk dostlarından biri "Bu gördüklərinizə

inanırsınızmı?" sualına İrene xanım "Mənim işim inanmaq deyil, öyrənmək və anlamaya çalışmaqdır" söyləyir. Yenə bir dostu ilə söhbətində İrene Melikof ərənlər dünyasında çıxdığı bu yolçuluğu barədə belə deyir: "Ələvilik-Bektaşilik artıq mənim bir parçam oldu. Hər halda mən də onların bir parçası oldum. Bu işə ilk başladığım illərdə bir fransız müəllim dostum mənə dodağını büzdü. Bu işdən çox şey əldə edə bilməyəcəyim düşüncəsindəydi. Yaxşı ki, ona qulaq asmamışam. Mübarizə apardım, səbr etdim və məqsədimə çatdım". Avropada ehtiyacı olan türk ailələrinə maddi və mənəvi yardım göstərən İrene Melikofun türkologiya sahəsində bir sıra davamçılar yetişdirmişdir. Fransız türkologiyasının önəmli isimlərindən Michel Balvet, Thierry Zarcone, Stephan de Tapia və Catherine Barlas onun ən sadiq yetirmələrindəndirlər. Türkiyədə isə A.Yaşar Ocak, Refet Yınanç, Ahmet Saltık və Erdal Yavuz kimi davamçıları vardır.

İrene Melikofun təriqətlərə münasibəti tamamilə elmi yanaşma çərçivəsində idi. Bir dəfə İranda olarkən oradakı təriqət ayininə qoşulduqdan sonra həm ruhi, həm də fiziki cəhətdən gümrahlıq tapmasına baxmayaraq, bu adətlərin siqaret və tiryək kimi insanı bağımlı etməsini bildirmiş və bunun zərərli olduğunu açıqlamışdır. Xüsusilə Nurçuluq təriqətinin Türkiyədə təhlükəli olduğunu və onun siyasiləşdiyini vurğulamışdır.

İrene xanım Azərbaycana ilk dəfə 1988-ci ildə gəlmişdi. 1996-cı il dekabrın 28-də isə Bakı Dövlət Universitetinin fəxri doktoru ünvanını qazanmışdı. Ümumilikdə isə, İrene xanımın yaradıcılığı aşağıdakı mükafat, diplom və ordenlərlə təqdir edilmişdir:

İran Milli Təhsil Nazirliyinin Onur Ödülü (1973),

Türkiyə Dövlət Nazirliyinin Onur Diplomu (1973),

Chevalier de Ordre des Palmes Academiques (1978),

Officier de Ordre des Palmes Academiques (1983)

Türk Tarix Qurumu Onur Medalı (1982),

Mövlanəni Anma Törəni Onur Medalı (1982),

Strasburq Universiteti Onur Medalı (1992),

Chevalier de Ordre du Merite (Legion dHonneur) (1994),

Bakı Dövlət Universitetinin fəxri doktoru (1996)

Səlcuq Universitetinin fəxri doktoru

TÜRSAK Vakfının Onur Ödülü

Hacı Bektaş Vəli dostluq və Barış ödülü (1999)

2009-un yanvar ayında Avropa Ələvi Birlikləri Konfederasiyası və Fransa Ələvi Birlikləri Federasiyası (FUAF) bütün Türk dünyasına acı bir xəbər çatdırır:

"2008-ci ilin noyabr ayından bəri Strasburq Haute Pierre xəstəxanasının reanimasiya şöbəsində müalicə alan, FUAF-ın fəxri başqanı və Ələvilik-Bektaşilik üzrə tədqiqatçı, hörmətli professor İrene Melikof cümə, 9 Yanvar 2009 tarixində, saat 21:30-da haqqa qovuşmuşdur. Acımız böyükdür"

Beləliklə, oktyabr inqilabı günü (yeni təqvimlə noyabrın 7-si) doğulan İrene Melikof ələvilər üçün xüsusi önəm daşıyan Məhərrəm ayının 11-də vəfat edir. Yaranmasında böyük dəstəyi olan Strasburqdakı Azərbaycan Evində doğmalarının qatıldığı bir mərasimdən sonra Parisdə ailə məzarlığında dəfn edilir. Ərənlər dünyasının sevimli alimi, ələvi qadınların "İrene bacısı", ələvilərin Ana Sultanı İrene Melikofa beləcə Gök Tanrıya qovuşmuş olur...

**XXIV yarpaq**

## Gülümsəyir doğan günəş üzünə

"Ey şanlı ölkənin şanlı ordusu

Unutma Qafqaza gəldiyin günü

Gəlirkən qovmağa Turandan rusu

Ayağını Qara dəniz öpdümü"

(Əhməd Cavad)

15 sentyabr 1918-ci il. Qara dənizin çırpınaraq Türkün şanlı bayrağına baxdığı, Xəzərin Türk ordusunu salamladığı bir günün tarixi.

Hadisələrin başlanğıcı çar Rusiyasının paytaxtı Peterburqda 1905-ci il yanvarın 9-da qanlı bazar günü hadisələrinin baş verməsi ilə əlaqədardır. Məhz bu hadisədən sonra həmin il fevralın 6-da ilk dəfə türk-erməni qarşıdurması yaranır, İrəvan, Şuşa, Gəncə və Tiflisdə toqquşmalar baş verir. Bu proseslərin ardınca Bakıda milli oyanış güclənir və müsəlmanların hüquqlarını qorumaq məqsədilə Difai, Hümmət, daha sonra Müsavat partiyası (1911) yaradılır. Hadisələrin ikinci dalğası 1917-ci ilin fevral hadisələrindən sonra baş verir və bu proseslərin sonucu olaraq 28 noyabr 1917-ci ildə türklər, gürcülər və ermənilər Zaqafqaziya Seymini yaradırlar. Lakin bir neçə ay sonra, seym üzvləri arasında baş verən anlaşılmazlıqlar, xüsusən ermənilərin 1918-ci ilin mart ayında türklərə qarşı soyqırım törətmələri artıq regionda müstəqil dövlətlərin yaradılmasının vacibliyini ortaya çıxarır. Məhz buna görə də 1918-ci ilin 28 mayında Azərbaycan Xalq Cumhuriyyəti elan olunur.

Qafqazda bu hadisələr baş verərkən, artıq son dönəmlərini yaşayan Osmanlı dövləti I Dünya müharibəsinin ən qaynar nöqtələrində

mübarizə aparır, türk millətinin xilası üçün gərgin mücadilələr verilirdi. Bu dövrdə qardaş Osmanlı dövlətini yalnız buraxmayan Azərbaycan maddi və mənəvi yardım göstərərək türk ordusunun qələbəsi üçün öz qardaş köməyini əsirgəmir. Belə ki, 1912-13-cü illərdə baş verən Balkan savaşı zamanı Azərbaycanda Müsavat partiyası bildiriş yayaraq, dünya türklərini və müsəlmanlarını Osmanlıya kömək etməyə səsləyir. Bildirişdə deyilirdi: "Dindaşlar, bilin ki, tək ümidimiz və qurtuluşumuz Türkiyənin istiqlalını qoruması, yüksəlməsi və inkişaf etməsindədir. Əgər keçmişdəki laqeydliyimizdən, nəyiməlazımlığımızdan indi də vaz keçməsək, dünyanın gözü önündə haqq və hüququmuzu qoruya bilmərik. Dinimiz və milliyətimizi itirərik. Bunun nəticəsində əsir olacağımızdan heç kimin şübhəsi olmasın. Balkan hərbinin arxasında ruslar durur. Əsl hədəfləri də türk əsgərini yox edib, türk dövlətini yıxmaq və əsir etməkdir". Bu bildirişin ardınca Azərbaycanda başda H.Z. Tağıyev olmaqla Osmanlı ordusuna maddi yardım edilir, daha sonra Çanaqqala savaşında Osmanlıya əsgəri yardım göstərilərək Türkiyə uğrunda şəhidlər verilir. Özü də nəzərə almaq lazımdır ki, Rusiyanın tabeçiliyində ola-ola Rusiyanın düşməni Osmanlıya yardımın göstərilməsi Azərbaycan tərəfinin misilsiz bir addımından xəbər verir. Bütün bunlar ondan irəli gəlir ki, artıq həm Türkiyə tərəfi, həm Azərbaycan tərəfi, həm də ki çar Rusiyasının işğalındakı digər türk yurdlarında yaşayan türklər yeni dünya düzəninin başlandığını dərk edir, yeni düzəndə ancaq milliyətçilik üzərində birləşmə ilə birliyə yol açmağın mümkünlüyünü başa düşürlər. Məhz buna görədir ki, 4 iyun 1918-ci ildə Batumda Osmanlı dövləti ilə Azərbaycan Cumhuriyyəti arasında Dostluq və Əməkdaşlıq müqaviləsi imzalanır. Bu müqavilə əsasında Azərbaycanda türk soyqırımının qarşısının alınması və bolşeviklərin Bakıdan uzaqlaşdırılması üçün M.Ə.Rəsulzadə yardım üçün Osmanlıya müraciət edir. Azərbaycan hökumətinin xahişinə cavab olaraq, Osmanlı hökumətinin hərbi naziri Ənvər paşa ilk yardım kimi Azərbaycana 2 milyon türk lirəsi həcmində kredit ayırır, onun göstərişi ilə Osmanlı ordusunun beşinci diviziyası Azərbaycana göndərilir.

Diviziya Gümrü-Dilican-Ağstafa yolunu döyüşlə keçərək Gəncəyə, yeni yaranmış Azərbaycan hökumətinə köməyə gəlir. Xalq Osmanlı qoşunlarını böyük sevinclə qarşılayaraq onların gəlişini bayram kimi qeyd edir, türk əsgərlərinin şərəfinə şərqilər yaradılır. Bu köməyin ardınca Osmanlıların beşinci piyada diviziyası və AXC-nin hərbi nazirinin müavini, general Əliağa Şıxlinskinin başçılıq etdiyi müsəlman milli korpusu əsasında Qafqaz-İslam Ordusu təşkil edilir. Nuru paşanın rəhbərlik etdiyi bu orduya türklərdən və azərbaycanlılardan ibarət 18 min əsgər və zabit daxil idi. Artıq proseslərin ciddi hal aldığını dərk edən Şaumyan iyunun 10-da Bakı Sovetinin ixtiyarında olan 20 minə yaxın qoşunla Gəncə istiqamətinə yürüş edir. İyunun 12-də Kürdəmiri işğal edən Bakı Soveti qüvvələri Göyçaya yaxınlaşır və burada Nuru paşanın komandanlıq etdiyi Qafqaz-İslam Ordusu ilə daşnak qüvvələri arasında qanlı döyüş baş verir. İki həftə sürən döyüşlər Qafqaz-İslam Ordusunun qələbəsi ilə nəticələnir. Bu döyüşdən sonra Qafqaz-İslam Ordusu bolşevik-daşnak birləşmələrini darmadağın edərək Bakı istiqamətində azadlıq yürüşünə başlayır. İyulun 20-də Şamaxı şəhəri azad edilir. İyulun sonunda isə Şaumyanın rəhbərlik etdiyi Bakı Soveti istefa versə də, avqustun 1-də Bakıda eser, menşevik və daşnaklardan ibarət yeni bir mürtəce qurum - "Sentrokaspi" diktaturası yaradılır. Lakin bütün bunlara baxmayaraq Qafqaz-İslam Ordusu 1918-ci il sentyabrın 15-də Bakı üzərinə həlledici hücum edərək daşnak qoşunları darmadağın edərək Bakıya daxil olur. Bununla da Bakı şəhəri bolşeviklərdən azad edilir və paytaxt Gəncədən Bakıya köçürülür. 1918-ci il iyun-oktyabr aylarında Azərbaycanın istiqlalı və suverenliyi uğrunda qəhrəmanlıq mücadiləsində Qafqaz-İslam Ordusunun 4 min əsgər və zabiti şəhid olur. Onların 1130 nəfəri Osmanlı əsgəri idi. O, əsgərlər ki, Azərbaycana gəldiklərində Əhməd cavad onlara “Ey əsgər” şeirini həsr etmişdi:

Bu qarşıdakı duman çıxan bacadan,

Sən gəlmədən iniltilər çıxardı!

Geciksəydin, məzlumların fəryadı

Yeri, göyü, kainatı yıxardı!

Yürü, yürü batan günün izinə,

Gülümsəyir doğan Günəş yüzünə!